**Ramiz Çıraqlı**

# ÇOBANOĞLU MƏHƏMMƏD

**Bakı-2016**

**Redaktor: Çingiz Qəribli**

**Ramiz Çıraqlı «Çobanoğlu Məhəmməd»**
**Bakı, «MBM», 2016, 160 səh.**

Kitabda Tovuz elinin Əyyublu kəndində anadan olmuş, şərəfli ömür yaşamış Çobanoğlu Məhəmmədin geniş həyat yolundan bəhs olunur.

Burada, eyni zamanda onun haqqında dostlarının, qohumlarının və övladlarının xatirələri toplanmışdır.

© R.Çıraqlı
Bakı, «MBM»

# QURBAN NECƏ ÇOBAN OLDU

***"Hər bir ata istəyir ki, onun edə bilmədiklərini oğlu həyata keçirsin".***

***İ.Höte***

Payızın ilk günləri idi. El yaylaqdan yenicə enmişdi. Şavadın meşəsinin gözəl vaxtı idi. Meşədəki dəymiş üzümlər, alma, armud ağız sulandırırdı. Meşədə bir atlı yavaş-yavaş irəliləyir, arabir dayanaraq bu meyvələrdən dərir, qucağında oturmuş 3-4 yaşlı oğlan uşağına yedizdirirdi.

Bu atlı Əyyublunun varlı-hallı kişilərindən, Şıxməmmədli nəslinin sayılıb-seçilən cavanlarından Əkbər idi. Onun sürülərinin bir hissəsi Ceyrançöldə qışlayırdı. Əkbər sürüləri yenicə yaylaqdan endirmiş, dədə-babadan Şıxməmmədlilərə məxsus örüş yerlərindəki yataqlarda yerbəyer etmişdi. Gəmi Kürün o tayında xarab olub qalmışdı. Nə vaxt düzələcəyini isə kimsə bilmirdi. Ona görə də Əkbər Kürü şığıtma keçmək qərarına gəlmişdi. İlin bu vaxtlarında çayda su az olsa da yenə bu xatalı iş idi. Aşıqların söylədiyi bir əhvalat yadına düşdü.

Deyirlər ki, bir zamanlar Qoç Koroğlu bu yerlərdə at oynatmış, meydan sulamışdır. Arabir Qarovul dağından karvan yollarına baxar, gəlib-gedəni izləyər, tacirlərdən bac-xərac alarmış. Bir dəfə tacirlərdən biri Koroğlunun əlindən qurtulmaq üçün yolunu dəyişib Kürün o tayından-Ceyrançöl səmtdən getmək istəyib. Gözdən iti olan Ko-

roğlu bunu görür və tacirin hiyləsini başa düşür. Tacirin qabağını kəsmək üçün atını vurur Kürə. Kürün də aşıb-coşan vaxtlarıymış. Koroğlu az qalır suda batsın. Birtəhər canını qurtarıb qırağa çıxır və deyir:

– Sən kür, mən kür, bizimki bir yerdə tutmaz. Deyilənə görə, Koroğlu bundan sonra acıq edib Anadolu səmtlərinə üz tutur. Çayın da adı qalır Kür çayı.

Ancaq Əkbər Kürün bütün dayaz keçidlərini beş barmağı kimi tanıyır, ona görə də narahatçılıq keçirmirdi. Onun həm özü yaxşı üzgüçü idi, həm də atı güclü, qüvvətli idi. At minicisinə, minici isə ata yaraşırdı. Çayın dayaz yerinə çatdılar. Əkbər qucağındakı uşağın başını nəvazişlə sığallayıb dedi:

– Oğlum, Qurban, indi biz çaydan keçəcəyik, suda bir az çiməcəyik. Sən qorxub eləmə.

Uşaq yaşına uyğun olmayan bir tərzdə, böyüklər sayağı cavab verdi:

– Qorxmuram, ata, sən yanımda olandan sonra nədən qorxacağam.

Ata qürurla oğlunu sinəsinə sıxdı və atı Kürə vurdu. Çayın ortasına çatanda Əkbər bir əli ilə oğlunu tutub, o biri əli ilə üzərək atı zora düşməyə qoymadı. Sağ-salamat qarşı sahilə çıxdılar. Bərk islanmışdılar. Atın yəhərinə bağladığı su keçirməz torbadan quru paltar çıxarıb həm özü əynini dəyişdirdi, həm də oğlunun əynini dəyişdirdi. At bir az dincini aldıqdan sonra yollarına davam etməyə başladılar.

Əkbərin arvadı Qurban anadan olanda ölmüşdü. Kənd mamaçası Zəhra qarı nə qədər çalışsa da gənc ananı xilas

edə bilməmişdi. Ana öz həyatını gələcək balasına qurban vermişdi. Yenicə dünyaya göz açan körpəni Əkbərin bacısı saxlamışdı. İndi bacısının özünün uşağı olmuşdu. Balaca Qurbana baxmaq çətinləşmişdi. Həyat yoldaşının vaxtsız ölümü Əkbəri bərk sarsıtsa da, o, yenidən ailə qurmalı idi. Həm özü cavan oğlan idi, həm də böyük təsərrüfatı, qonaqlı-qaralı evi dolandırmaq üçün qadın lazım idi. Həyat öz axarınca davam edirdi. Ölənlə ölmək olmazdı. Ona görə də Əkbər ikinci dəfə evlənməyə məcbur olmuşdu. Ancaq sevimli oğlunu, ilk sevgisinin yadigarını analıq ümidinə qoymaq istəmirdi. Qurban körpəlikdən ana südü görmədiyindən sanki qovrulmuş, zəif bir uşaq olmuşdu.

Əkbərin fermasında öz yaxın qohumları çalışırdı. Əliaçıq, gözü, könlü tox olan Əkbər çobanlarına yaxşı baxır, onların əmək haqlarını vaxtlı-vaxtında, artıqlaması ilə verirdi. Ona görə də çobanlar onu sevir, heyvanlarına öz malları kimi baxırdılar. Bu səbəbdən mal-qara, qoyun-quzu sürətlə artıb çoxalırdı. Camaat mübaliğə ilə deyirdi ki, Əkbərin sürüləri su bulandırır. Mal-qarası Kürə töküləndə çayı qurudur.

Sağım vaxtı birinci yatağa çatdılar. Burada ikinci dəfə doğmuş qoyunlar saxlanılırdı. Sağımdan sonra qoyun-quzu bir-birinə qarışmışdı. Analarını tapa bilməyən quzuların mələşməsi qulaq batırırdı. Balaca-balaca çoban uşaqları bu quzuların analarını tapıb əmişdiridilər.Anasını itirmiş təlik quzular südlü qoyunlara soxulur, qarınlarını doydurmağa çalışırdılar. İlk dəfə gördüyü bu mənzərə balaca Qurbanın çox xoşuna gəlmişdi. O da yüyürüb quzuların birini tutdu. Atası bu mənzərədən fərəhlənib oğlunu hə-

vəsləndirdi:

– Hə, balaca çoban, hansı quzunu tutsan böyüyəndə sənə verəcəm. İndidən manşırla.

Beləcə Qurban qohumlarının yanında böyüdü. Hamı onu "balaca çoban" çağırmağa başladı. Bu ad o qədər xoşuna gəlmişdi ki, kim adını soruşanda cavab verirdi ki, adım balaca çobandır. Hamı onu çoban kimi tanıdı və atası sənəd düzəldəndə yaddan çıxmış Qurban adının əvəzinə Çoban yazdırdı. Qurban beləcə Çoban oldu.



# DAĞILAN MAL-MÜLK

***"Heç vaxt çox varlı olmağa çalışmayın. Fatehlər kimi varlılar üçün də ən başlıca keyfiyyət vaxtında dayanmaq bacarığıdır."***
***A.Morua***

El yaylağa qalxırdı. Əkbərin sürüləri, naxırları Zəyəm çayı boyunca səpələnmişdi. Sürünün başı Ağ dəyirmanın yanında, ayağı isə Baydarda idi. Köçə Əkbər özü başçılıq edirdi. Yeddi kəndin koxası Hacı Məmməd də burada idi. Koxa yaylağa qalxanları növbəyə düzər, bu işə nəzarət edərdi. Ona görə də heç kimin sürüsü başqasına qarışmazdı. Hacı Məmməd kəndin ən hörmətli ağsaqqallarından, dünya görmüş kişilərindən biri idi. Bir vaxtlar sürülərindəki qoyun-quzunun, naxırlarındakı mal-qaranın sayı bilinməzdi. Kənddəki ən yaraşıqlı ev də onun idi. Daima qonaqlı-qaralı olan bu evə nəinki təkcə Çıraqlı tirəsində, eləcə də bütün elatda hamı həsədlə baxırdı.

Hacının oğlu Abbasəli oxumuş, tanınmış bir şəxs idi. Hökümət yanında böyük hörməti vardı. Bu hörmət və nüfuza görə də onu Çar dumasına üzv seçmişdilər. Çar Nikolay Qafqaza gələndə onu qarşılayanlar sırasında ikicə nəfər azərbaycanlı olmuşdu – Abbasəli və Xınna dərəsinin bəyi Allahyar bəy. Onların hər ikisi bir yerdə ali təhsil almış və dost olmuşdular. Son vaxtlar, ara-sıra atasına baş çəkməyə gələn Abbasəli fikirli görünürdü. O, bunun səbəbini soruşan atasına demişdi:

– Ata, dünya yaman qarışır. Belə getsə çarı aşıracaqlar. Rusiyada fəhlə-kəndli ayağa qalxıb. Heç Bakıda da vəziyyət yaxşı deyil. Belə getsə ac-yalavaclar ağa, ağalar isə nökər olacaqlar. Yavaş-yavaş, əl altından heyvanları satıb pula, qızıla çevir. Ürəyin qızan adamlara da belə məsləhət ver.

Ona görə də Hacının sürüsündə 200-300 qoyun, 5-10 inək və camış qalmışdı. Hacı həmin heyvanları etibar etdiyi Əkbərlə dağa yola salırdı. O, Əkbərin su bulandıran sürülərinə baxıb fikirli-fikirli dedi:

– Ay qohum, yavaş-yavaş bu dəriləri sarılara dəyiş. Son illər heyvanların yaman çoxalıb.

Bu sözlərin gizli mənasını başa düşməyən Əkbər yaman acıqlandı:

– Hacı əmi, mənim sürülərim kimin yerini dar edir. Bir vaxtlar sənin varını yer-göy tutmurdu, indi də mənim. Rəiyyətin malı çoxalan kimi bıçaq olub hamının gözünə batır.

Bu cavabı gözləməyən Hacı Məmməd alındı:

– Allah öz fikrindən özünə xeyir versin, mən səni istədiyimdən bu sözləri dedim. İstəsəm günü sabah yüz min qoyun alaram. Ancaq zamana yaman qarışır.

Bu sözləri söyləyən Hacı Məmməd atını minib uzaqlaşdı. Dağdan ağır ağsaqqala tərs cavab verdiyindən peşiman olan Əkbər bir istədi onun dalınca gedib üzr istəsin, könlünü alsın. Ancaq daha iş işdən keçmiş, ox yayından çıxmışdı.

Çarın yıxılması xəbərini camaat yaylaqda eşitdi. İnanan da oldu, inanamayan da. Arana enəndə eşitdilər ki, Erməni Şaumyan Bakıda yeni hökümət qurub. Ermənilər bundan

ruhlanıb silahlı dəstələr yaradır, azərbaycanlılara divan tuturlar. Göyçə mahalından Əyyubluya böyük bir köç gəldi. Gələnlər ermənilərin vəhşiliklərindən elə şeylər danışırdılar ki, heç kimin inanmağı gəlmirdi.

Çox keçmədi komissarları hakimiyyətdən salıb güllələdilər. Milli hökümət qurulanda hamı bir az dərindən nəfəs aldı. Daha heç kimin mal-mülkünə ziyan dəyməyəcəkdi. Ancaq yerli əlaltıların sayəsində bolşeviklər milli höküməti devirdilər. İndi də şapqası ulduzlu komsomollar at oynatmağa başladılar, dünənə qədər qapılarında qarınlarını doydurduqları bəylərə, ağalara divan tutdular. Mal- mülklərini əllərindən aldılar. Əkbərin özünə toxunmasalar da var-yoxdan çıxardılar, sürülərini, naxırlarını yoxsullara payladılar. Əkbər onda müdrik ağsaqqal, uzaq görən Hacı Məmmədin vurduğu eyhamın mənasını başa düşdü.

Hacı Məmmədin qızıllarının taleyi isə məlum olmadı. Onun evini müsadirə edib məktəb etdilər. Çox-çox sonralar həmin bina sökülləndə oradan qalaq-qalaq çar əskinasları çıxdı. Heç nəyə yaramayan bu şəkilli kağızlarla uşaqlar oyun oynayır, “alış-veriş” edirdilər. Qızıllar ilə isə bağlı çoxlu rəvayətlər hələ də söylənilir.

Çoban artıq bir yeniyetmə idi. Şıxməmmədliyə yaxın bir yerdə, Cırdaxan məktəbində təhsil aldı. Oxuyub- yazmaq öyrəndi. Əkbər əslən bəy, ağa nəslindən olmadığı üçün yeni qurulmuş şura hökümət ona toxunmadı. Ancaq əvvəlki var – haldan əsər-əlamət qalmamışdı. Ona görə o da başqaları kimi kolxozda çalışır, balalarını birtəhər saxlayırdı.

O, Çobanı yaxşı nəsildən olan Əmiraslanın qızı Pəri ilə

evləndirdi. Evin ilk uşagı Məhəmməd dünyaya gələndə bütün ailənin üzü güldü.Uşağa babaları Məhəmmədin adını qoymuşdular. Çoban diribaş, savadlı, gözüaçıq olduğu üçün onu kənd sovetində milis vəzifəsinə təyin etmişdilər. O vaxtlar kənddə milis işciləri böyük hörmət və izzətə malik idilər. Cobanın mərdiməzarlıqla işi yox idi. Gördüyünü görməməzliyə vurur, heç kimi rəislərinə satmırdı. Ona görə də, kənddə böyük xətir-hörmət sahibi idi. Ona baxıb analar körpələrini əzizləyəndə deyirdilər ki, ay mənim milisəner balam.

Ümumiyyətlə, Sovet dönəmində milis işçilərinə qarşı bir xof qarışıq hörmət formalaşmışdı. Belə bir lətifə də yaranmışdı. Bir dəfə rayon partiya komitəsinin birinci katibi dağ kəndlərindən birinə gedirmiş. Yolda kəndə piyada gedən bir milis serjantını da maşına götürəsi olur. Camaat kənd klubunun qabağında katibi gözləyirmiş. Katib maşından düşüb camaata sarı gəlir, milis nəfəri də onun yanında yeriyir. Katib əlini uzadıb ağsaqqallarla görüşmək istəyəndə onlardan biri onun əlini kənara itələyib deyir:

– Ayə, öldüyün ha deyil, qoysan qabaqca nəçənniklə görüşək.

Çobanın da yaşadığı kənddə böyük hörməti vardı. Kənd sakinlərindən milisə işi düşənləri o qurtarır, işlərini aşırırdı. Çoxları elə bilirdi ki, Çobandan böyük adam yoxdur. Çobanı camaat yanında hörmətə mindirən cəhətlərindən biri də xırda-para nöqsanlara göz yumması, rəislərinə xəbər daşımaması, satqınlıq etməməsi idi. O illərdə kənddə hökümət qulluğunda işləmək də olduqca çətin bir iş idi. Hökümətdən narazı qalanlar, incidilənlər əllərinə silah gö-

türüb dağlara, Şavadın meşəsinin dərinliklərinə çəkilir, fürsət düşəndə isə hökümət malına, hökümət qulluqçularına zərər vururdular.

Neçə-neçə milis işçisi, hökümət qulluqçusu onların gülləsinə tuş gəlmişdi. Ancaq qaçaqlar nə Çobana, nə də ailəsinə toxunurdu. Onlar da bilirdilər ki, çiyinlərində paqon daşısa da həmişə camaatın xeyrinə danışır. Elə buna görə də Çoban ölənədək bu işdə çalışdı.

Çobanın külfəti isə çoxalırdı. Məhəmməddən sonra Hümbət, Əmirəhməd, Qəşəm və Sayalı dünyaya gəldilər. Dörd oğuldan sonra qız övladlarının dünyaya gəlişinə ən çox sevinən də Çoban oldu. Anasını erkən itirdiyindən, həyatda bacı sevgisinin nə olduğunu bilmədiyindən Sayalıyı tanrının ona ana, bacı əvəzi göndərdiyini sandı.

Sayalının da ayağı sayalı oldu. Evlərinə din, bərəkət gəldi. Qardaşları sağlam böyüdülər, ona ömürlərinin axırınadək arxa, dayaq oldular.



# GÖBƏKKƏSMƏ

***"Qadınlar! Əgər sizi üç kişi sevirsə, biri mənəm. Əgər bir kişi sevirsə, o da mənəm. Xeyir! Sabah sizi heç kəs sevməsə, onda bilin ki, Rəsul Həmzətov yoxdur həyatda."***

***Rəsul Həmzətov***

Evin ilki Məhəmməd ata qayğısı, ana sevgisi ilə böyüyürdü. İlk dəfə ata, ana deyib dil açanda Çobanla Pəriyə sanki dünyanı bağışladılar. Körpəlikdən hiss olunurdu ki, o fərasətli, dərrakəli, şirindil bir uşaq olacaq. Hamıya özünü sevdirməyi bacarırdı. Qonşunun təzə gəlinləri, qızları onu götürüb aparar, saatlarca yanlarından buraxmazdılar. Onun dili tez açılmışdı. Qonşular Pəriyə deyirdilər:

– Ay qız, sənin bu oğlun böyüyəndə ilanı şirin dili ilə yuvasından çıxaracaq. Çox qılıqlı uşaqdır.

Bir dəfə üç yaşı olanda Məhəmməd bərk xəstələndi. Onu Zəyəmə həkimə apardılar. Həkim uşağın sağlam olduğunu, azacıq soyuqladığını bildirib dəva-dərman verdi. Bəzi uşaqlar həkimdən qorxduqları, müayinə zamanı ağladıqları halda, balaca Məhəmməd ona baxıb gülümsəyir, əli ilə ağ xalatının üstündən asılmış cihazı tuturdu. Həkim onu söylədir, uşağın danışığından ləzzət alırdı. Ayırlarkən Məhəmmədə bir xışma konfet verib Çobana dedi:

– Allah başatan versin, bu uşağı qoruyun, bu dili ilə onun açmadığı qapı qalmayacaqdır.

Kəndə qayıdanda Çoban Çovuşluda yaşayan dostu Aslana rast gəldi. Aslan onların həkimdən gəldiklərini bilən kimi buraxmadı.

– Çoban, səndən eybi yox, öyrəncəlisən, ancaq Pəri bacı ilə uşaq yorulub, əldən düşüb. Həm bir stəkan çay içərsiniz, həm də uşaq bir hovur dincələr.

Çoban dostunun sözünü yerə sala bilmədi. Həm də, Məhəmməd anasının qucağında yuxuya getmişdi. Deyəsən həkimin verdiyi kinənin təsiri ilə tərləmişdi. Ona görə də biraz Aslangildə dincəlməyə qərar verdi.

Aslanın da kiçik bir qızı vardı. O da həyətdəki tut ağacından asılmış beşikdə mışıl-mışıl yatırdı. Aslanın həyat yoldaşı Məhəmmədi də qızı Bülqeysin yanına, beşiyə qoydu. Dünyadan xəbərsiz mışıl-mışıl yatan bu iki körpəyə iki göz istəyirdi tamaşa etsin. Bu mənzərəni uzun-uzadı seyr edən Çoban qeyri-ixtiyari dilləndi:

– Ay Aslan, elə bil tanrı bu iki uşağı bir-birinə tay yaradıb. Necə də yaraşırlar. Gəl, əhdi-peyman bağlayaq. İndidən bu uşaqları göbəkkəsmə edək. Böyüyəndə onları evləndirək.

Aslan gülərək dostuna cavab verdi:

– Bir halda ki, tanrı ürəyinə bu fikri salıb, qoy sən deyən olsun. Anaları da bizə şahidlik etsinlər. Bizim başımıza bir iş gəlsə, qoy onda onlar bizim bu əhdimizi yerinə yetirsinlər.

Qonaqlar yeyib-içib, bir xeyli dincəldikdən sonra Cırdaxanla Gömərlinin arasında yerləşən evlərinə getdilər.

İllər tez ötüb keçdi. Məhəmməd ucaboylu, enlikürək, tökmə bir oğlan olmuşdu, Bülqeyis isə çox cavanların ürə-

yinə od salan bir qız. Qızlar bulağından yenicə su içmiş bu gözəli evinə gəlin gətirmək çox anaların arzusu idi. Aslan dünyasını dəyişmişdi. Ancaq göbəkkəsmə məsələsindən həm Məhəmmədin, həm də qızın xəbəri vardı. Arabir rastlaşanda yalnız ılıq bir təbəssümlə baxışır, gülümsəyərək keçirdilər. Məhəmməd deyiklisinə hələ bir söz demir, öz ürəyini açmağı əsgərlikdən gələndən sonraya saxlayırdı.

Ancaq bir gün eşitdiyi xəbər onu bərk sarsıtdı. Eşitdi ki, qardaşı Məhəmməd Bülqeyisi başqa birinə ərə vermək istəyir. Həmin illərdə ata, o olmayanda isə böyük qardaş qızı kimə versəydi ona da gedirdi. İstər könlü olsun, istərsə də olmasın. Məhəmməd yaxşı bilirdi ki, Bülqeyis də qardaşının sözündən çıxa bilməyəcək.

Bütün bunları düşündükcə qan beyninə vururdu. Bir dəfə izləyib qızın qardaşı Məhəmmədin qabağını kəsdi. Özünü saxlaya bilməyib qəzəblə dedi:

– Ayə, sən kim olursan ki, mənim nişanlımı başqasına verirsən? Bəyəm mən ölmüşəm ki, o, özgəsinə qismət olsun? Allah əmrilə, yan dəmiri ilə də olsa o qız mənimdir.

Məhəmməd qarşısında qan-qan deyən, gözləri qaynayan bu yeniyetmənin bu hərəkətindən bir az tutuldu, heç nə başa düşə bilmədi. Qarşısındakı uşağın ona meydan oxuması cəbhənin od-alovundan sağ-salamat qayıtmış , dəfələrlə ölümlə üz-üzə dayanmış Məhəmmədi cin atına mindirdi. Ona görə də özündən yaşca xeyli kiçik olan adaşına bozardı:

– Mənim bacım nə vaxtdan sənin nişanlın olub biz bilmədik?

– Biz göbəkkəsmə nişanlıyıq. Rəhmətlik Aslan əmiylə

atam bizi beşikdəykən nişanlayıblar. İnanmırsan, get anandan soruş. Mən elçilərimi göndərəcəyəm, əgər verməsən bacını qaçıracağam.

Onlar xeyli bir-birinə hərbə-zorba gəldikdən sonra ayrıldılar. Məhəmməd Məsi oğlu Bülqeyisin anabir qardaşı idi. Aslan öldükdən sonra evin başbiləni o sayılırdı. Çox ürəyi yumşaq, insaflı, istiqanlı bir insan idi. Müharibədən sinəsi orden və medalla dolu qayıtmışdı.

**Haşiyyə.** Sovet dönəmində oğlanları əsgərlikdə olan bir çox valideynlər Rusiyada qulluq edən övladları ilə görüşə gedəndə Məhəmməd Məsi oğlunu özləri ilə aparırdılar. Heç kimin sözünü yerə salmaz, təmənnasız-filan yanlarına düşüb ölkənin ən ucqar yerlərinə belə gedərdi. Günlərlə qatarda yol gedərkən müharibədə aldığı yaralar sızlasa da, biruzə verməzdi. Övladlarla valideynlərin görüşündən aldığı sevinc ona hər şeyi unutdurardı. Kəndimizdə niyə məhz onu aparırdılar? Həm müharibə veteranı idi, sözü ötürdü, həm də rus dilini yaxşı bilirdi. Dilli-dilavər insan idi. Getdiyi yerdən boş qayıtmazdı.

Qonşum Əli Zeynalov sağlığında bir əhvalat danışmışdı. Əsgərlikdə olan oğlunun yanına-Ukraynaya gedəndə Məhəmməd Məsi oğlunu da aparır. Hərbi hissədə karantin olduğundan onlara görüş vermirlər. Nə qədər cəhd göstərsələr də, növbətçi onları hərbi hissə komandirinin yanına buraxmır. Möhkəm yağış yağırmış. Məhəmməd Əliyə dalda bir yerdə dayanmağı tapşırıb, özü yağışın altında dayanır. Pəncərədən sinəsi orden və medallarla dolu bu adamı görən komandir növbətçidən onun kim olduğunu, nə məqsədlə orada dayandığını soruşur. Növbətçi hər şeyi danışır.

Komandir dərhal onları içəri çağırtdırır. Onları qonaq otağına aparıb üst-başlarını quruladıqdan sonra komandirin yanına aparırlar. Komandir onlardan niyə yağışın altında dayanmalarının səbəbini soruşanda Məhəmməd belə cavab verir:

– Yoldaş komandir, cəbhədə biz günlərlə yağışın altında vuruşub məqsədimizə nail olduq. Bir-iki saat yağışın altında qalmaq mənim kimi cəbhəçiyə nə edəsidir. Mən ayrı cür sizin qəbulunuza düşə bilməzdim.

Bu sözlər komandirin çox xoşuna gəlir. Onları qonaq evində yerləşdirir, uşağa da üç günlük icazə verir. Bax, belə bir insan idi Məhəmməd Məsi oğlu.

Məhəmməd Məsi oğlu anasından köbəkkəsmə məsələsini öyrəndikdən sonra hər şeyi başa düşdü. Bildi ki, Çobanoğlu kimi ədəb-ərkanlı, tərbiyyəli gənc boş-boşuna onun qabağını kəsib meydan oxumaz. Ona görə də Məhəmmədin elçilərini xoş üzlə qarşıladı, bacısı Bülqeyisi Çobanoğluna verdi. El adətincə toy çalındı. Çavuşlu nəsli ilə Şıxməmmədli tayfası qudalaşdı. Beşikdəykən kəsilmiş kəbin nikah masasında gərçəkləşdi. Evə gəlin gələndən bir az sonra Məhəmmədi əsgər apardılar. Bülqeyisin gözləri bir müddət yollarda qaldı. Ancaq bu uzun yollara dikilən gözlər ümidlə dolu idi. Bilirdi ki, əri bir gün gələcək, qapını açıb içəri girəcək.

## "KAZBEK" QUTUSUNA YAZILMIŞ ŞEİR

***"Hətta poeziyanı sevməyənlər də onun bir məziyyətini inkar edə bilməzlər. O nəsrlə müqayisədə az sözlə daha böyük mətləblər ifadə edir."***

***Ə.Dəhləvi***

Məhəmməd əsgərlikdə də seçildi. Bacarığını, hesab bilməsini nəzərə alıb onu anbardar qoydular. Komandirlər onun xətrini istəyir, bir sözünü iki etmirdilər. Rus dilini tezcə öyrənmişdi. Bir dəfə yeni gəlmiş əsgərlərə paltar paylayırdı. Geyim əşyaları hər kəsə öz ölçüsünə görə verilirdi.

Əsgərlərdən biri tez-tez arxadan qışqırırdı ki, çəkmələri ayağına böyükdür, onu dəyişdirsin. Növbədə isə çoxlu əsgər dayanmışdı. Həmin əsgər rus dilini bilmədiyi üçün ona Azərbaycan dilində müraciət edirdi. Axırda dözə bilməyib arxaya çevrilib qışqırdı:

– Ayə, yağın ha daşmır, görürsən ki, səndən qabaqda hələ çox adam var. Qorxma, çəkmə çoxdur, sənin ayağının ölçüsündə bir şey taparıq.

Birdən bu səsi eşidən əsgər həyəcanla qabaqdakıları yarıb ona doğru cumdu:

– Qağa, bu sənsənmi?

Bu dəfə səsindən kiçik qardaşı Hümbəti tanıdı:

– Bıy səsinə qurban olum, nə vaxt gəlibsən xəbərim olmayıb?

Sonra bərk-bərk qucaqlaşdılar. Əsgərlər bu mənzərəyə

maraqla baxırdılar. Məhəmməd rusca onlara dedi ki, doğma qardaşıdır. Əsgərlər azərbaycanlıların bir-birilrinə "qardaş" deyə müraciət etdiklərini bildikləri üçün əvvəlcə onların doğma qardaş olduqlarına inanmadılar. Ancaq sonradan hər şeyi öyrəndilər. Həmin dövrdə Sovet ordusunda "dedovşina" deyilən yazılmamış bir qayda vardı. Köhnə əsgərlər təzələri incidir, çirkli işlərə onları buyururdular. Komandirlər bunu bilsələr də, bu yazılmamış qaydaları ləğv edə bilmirdilər. Hümbət qardaşının hesabına bu çətinliklərdən keçəsi olmadı.

Məhəmməd əsgərlikdən tərxis olunanda isə qardaşı artıq təcrübəli bir əsgər olmuşdu.

Ailə Məhəmmədin əsgərlikdən qayıtmasının sevincini doyunca yaşaya bilmədi. Çoban qəflətən dünyasını dəyişdi. Böyük ailənin ağır yükü qaldı Məhəmmədin çiyinlərində. İndi işləməli, həm ailəsini, həm də qardaşlarını böyütməli idi. 1958-ci ildə camaatı təzə plana köçürməyə başladılar. Məhəmməd və qardaşları təzə yurda köçdülər. Məhəmmədin üç övladı – Vahid, Gülxanım və Valeh dünyaya göz açmışdılar. Külfət böyümüşdü. Məhəmməd öz evinə köçsə də yenə qardaşlarına və bacısına ağsaqqallıq edir, onları növbə ilə ev-eşik sahibi edirdi.

Çıraqlı arxının üstündə, dəmir yolunun kənarında qocaman bir çinar vardı. Yayda həm çayın sərinliyi, həm də ağacın kölgəsi buranı bumbuz edirdi. Çayın üzərində bir yeməkxana vardı. Mərkəzdən gələn qonaqlar çox vaxt burada çörək yeyər, dincələrdilər. Məhəmməd də cavan vaxtı burada işləmişdi. Hər gün bu yeməkxanada müxtəlif insanlara qulluq edirdi. Bu şirindil, istiqanlı cavanın xətrini

hamı çox istəyirdi.

**Haşiyə:** Bir dəfə bu kəndin oğlu, kənar rayonların birində birinci katib işləyən Hüseyn Zeynalov Səməd Vurğunla oraya gəlirlər. Məhəmməd hörmətli qonaqları görüb əl-ayağa düşür. Yemək-içmək hazırlayır. Qonaq bu diribaş, ağıllı oğlanı yanına çağırıb sorğu-suala tutur, xeyli söylətdikdən sonra H. Zeynalova deyir:

– Ay Söyün, bu çox dərrakəli uşaqdır, hayıfki, ömrünü buralarada çürüdür, oxuyub təhsil alsa yaxşıdır.

Sonra cibindən bir "Kazbek" qutusu çıxarıb Məhəmmədə verib xahiş edir ki, üzərindəki şeiri ağ vərəqə köçürsün. Yeməkxanadakı ağsaqqalların marağına görən H.Zeynalov belə bir əhvalat danışır:

– Dilicanda "Şinkar" bulağında oturub dincəlirdik. Uzaqdan gördüm ki, bir qadın atın belində yalı aşmaq istəyir. Bu vaxt duman gəlib hər yanı bürüdü. Qadın atdan düşüb yolu tapmağa çalışırdı. Sən demə Səməd də bayaqdan bu mənzərəni seyr edirmiş. Üstündə kağız olmadığı üçün özündən asılı olmayaraq bədahətən ürəyinə gələn şeiri papiros qutusuna yazdı. Oğlum, bu papiros qutusunu möhkəm saxla, bu bir tarixdir.

Məhəmməd şeiri səliqə ilə köçürüb böyük şairə verdi, qutunu isə özünə saxladı.

Məhəmməd əmi bu əhvalatı hər dəfə danışanda böyük təəssüf hissilə deyridi ki, uzun illər bu qutunu saxladım. Ancaq sonradan hara qoydum, kimə verdim yadımdan çıxıb. Beləcə "Üstündən karvan yeriməz, sıxdır duman, qarın dağlar" misraları ilə başlayan məşhur şeir Çıraqlı arxının üstündəki yeməkxanadan bütün dünyaya yayıldı.

## OXUMAQ HEÇ VAXT GEC DEYİL

***"Neçə yaşında oluruqsa olaq, öyrəndiklərimiz həmişə keçmişə aid olur və bu səbəbdən biz həmişə səriştəsiz və cahil qalırıq."***

***M.Meterlinq***

Məhəmməd Çobanoğlu əsgərlikdən qabaq kənddə maliyyə agenti işləyirdi. Həmin işlə məşğul olanların əsas vəzifəsi camaatdan dövlətin vergisini toplamaq idi. İlk dəfə işə başlayanda atası Çoban ona öyüd-nəsihət verdi:

– Oğlum, hələ gəncsən, orta məktəbi təzəcə bitirmisən. Camaatla işləmək olduqca çətindir. Həm dövlətin vergisini yığmalı, həm də camaatı yola verməlisən. Bir əlin od olanda, bir əlin su olmalıdır. Neçə ildir milisdəyəm, hələ heç kimi nahaq yerə incitməmişəm. Çox vaxt gördüklərimi görməzliyə vurmuşam. Mən bu dünyadan köçəndə sən mənə rəhmət də oxuda bilərsən, nəhlət də. Çalış insanları başa düşə biləsən. Heç kimin əlindəki son çörək pulunu əlindən alma. Bir də sənə nəsihətim budur ki, mütləq təhsil al, savad qazan. Bu gün ehtiyac olduğu üçün səni bu işə götürüblər, sabah diplomlu adamlar iş başında oturacaqlar.

O, cəmi bir il maliyyə agenti vəzifəsində işlədi. Ancaq bu bir il onun üçün bir həyat məktəbi oldu. Ağır taxtalı rəhbər işçilərdən insanlarla davranış, dövlət məmurları ilə münasibət qurmaq bacarığı öyrəndi. Hərbi xidmətə də beləcə bişmiş, toxtamış bir gənc kimi getdi.

Əsgərlikdən qayıtdıqdan sonra atasının ölümü onun oxumaq arzusunu bir müddət ləngitsə də yenə sonunda məqsədinə çatdı. Yeyinti-sənaye texnikumunu bitirdi. Bir müddət Ağstafa pambıq zavodunda sex rəisi vəzifəsində işlədi. Bu ağır taxtalı, tökmə bədənli oğlan qısa vaxtda Ağstafa camaatının dərin hörmətini qazandı. Həmin illər pambıqçılıq SSRi-də mühüm sahələrdən biri sayılırdı. Pambıqçılıq kənd təsərrüfatının ən ağır sahələrindən biri olduğu üçün Moskvada bu işlə yalnız müsəlman ölkələrinin məşğul olması planlaşdırılmışdı. Hər bir briqadir, sex rəisi, zavod direktoru hər bir kiloya görə məsuliyyət daşıyırdı. Ancaq Çobanoğlu maliyyə agenti işlədiyi və texnikumda oxuyarkən əldə etdiyi təcrübə sayəsində uçot-hesabat işlərini gözəl bilir, ona görə də işində heç bir səhvə yol vermirdi. Onun işlədiyi sexin işçiləri daima ona arxalanır və razılıq edirdilər. Atasının ölümündən sonra bacı və qardaşlarının qayğıları onun çiyinlərində olsa da öz köməyini heç vaxt tabeçiliyindəki işçilərdən əsirgəmir, son tikəsini belə onlarla yarı bölürdü. O, Ağstafada qısa bir vaxt işləsə də yenə də onların ürəklərində iz qoya, xoş xatirə yarada bilmişdi.

**Haşiyə:** Ötən əsrin axırlarında "Xalq qəzeti"ndə bölgə müxbiri işləyirdim. Bir gün Ağstafada parkda təkcə çay içirdim. Yaşlı bir kişi icazə istəyib yanımda əyləşdi. Bir azdan söhbətimiz tutdu. Çay yoldaşım məndən Tovuzdan, Aşağı Ayıblıdan olduğumu öyrənəndə Çobanoğlu Məhəmmədi soruşdu. Mən Məhəmməd əmini yaxşı tanıdığımı, uşaqları ilə dostluq etdiyimi söylədim. O, ayağa qalxıb boynumu qucaqladı və alnımdan öpüb dedi:

– Allah o kişiyə və övladlarına uzun ömür, cansağlığı versin. Mən bu gün onun sayəsində sağ qalmışam, yoxsa indi türmələrdə çoxdan sümüyüm çürümüşdü.

Sonra başına gələnləri danışdı:

– Məhəmməd bizim zavodda sex rəisi işləyirdi. Mən isə qəbul məntəqəsində çalışırdım. Bir gün zavoda müfəttiş gəldi. Yaşlı bir adam idi. Üz-gözündən zəhrimar yağırdı. Əlqərəz, mənim bir qədər əksiyim çıxdı. Pambığı yeməmişdim ha. Yığım zamanı yağışlar yağdığından çox vaxt məhsulu yaş-yaş qəbul etməyə məcbur olurdum. Pambıq quruyanda isə çəkisini itirirdi. İtki normasını isə az qoymuşdular. İşim fırıq idi. Bilirdim ki, əlli-ayaqlı gedəcəyəm. Gündə oturub-durduğum, çörək kəsdiyim, dostluq işlətdiyim iş yoldaşlarımın hamısı məndən üz döndərmişdi, heç kim mənə yaxın gəlmirdi. Məhəmmədlə də elə sən deyən yaxınlığım olmamışdı, elə-belə salamımız vardı. Belə ağır vaxtlarımda isə mənə yalnız o arxa çıxdı. Çox ünsiyyətcil, şirindil adam idi. İstəsəydi ilanı da şirin dili ilə yuvasından çıxarardı. Üz-gözündə elə bir nur, şirinlik vardı ki, heç kim onun bir sözünə yox deyə bilmirdi.

Məsəlini o da bilirdi. Yoxlamanın qızğın vaxtında o, cibindən bir qədər pul çıxarıb mənə verdi və dedi ki, get bir quzu, yemək-içmək al, mənzərəli bir yerdə stol aç. Axşama müfəttişi da götürüb gələcəyəm. Mən mənzərəli bir yer seçib Məhəmmədə xəbər verdim. Axşam tərəfi o, müfəttiş, yanında da bir aşıq gəlib çıxdılar. Mən Aşıq Əkbəri ilk dəfə onda gördüm. Cavan vaxtlarıydı, səsi elə bilirdin bülbül səsiydi. Sən demə, müfəttiş aşıq azarkeşiymiş. Məhəmməd bunu təsadüfən bilib və ona deyib ki, nə vaxt desən

Əkbəri qulluğunda hazır edərəm. O da sevincək razı olur. Daha orasını bilmirəm Əkbəri necə razı salmışdı. Məclis başladı. Aşıq Əkbərin zəngulələrindən adamın tükü biz-biz olurdu. Hamı yeyib-içirdi. Mənimsə boğazımdan çörək keçmirdi. Məhəmməd gözəl məclis aparırdı. Kefi kökəlmiş müfəttiş içki süzüb mənə uzatdı. İçmək istəmədiyimi görüb israr etdi. Bu vaxt Çobanoğlu ustalıqla söz vurdu:

– Ay yoldaş müfəttiş, yazığın içki içməyə halımı qalıb. Heç bu məclisə gəlmək istəmirdi. Buranı qaydaya salıb getmək istəyirdi. Mən zorla saxladım. Bu nə sənin, nə də onun günahıdır. Günah yağışlarındır.

Müfəttiş içki havasına dedi:

– Ay yoldaş Əkbərov, sən ki, Əkbəri buraya gətirdin, mənim arzumu yerinə yetirdin, mən də sənin arzunu yerinə yetirəcəm, bu priyomçunun işini qaydaya salacağam. İndi isə de ki, qoy rahat yeyib-içsin.

Həmin gecə Məhəmməd və Əkbərin telli sazı mənim həyatımı xilas etdi. Mən onun yaxşılığını ömrüm boyu unuda bilmərəm.

Bu əhvalatı Məhəmməd əmi ilə görüşəndə söylədim. Bığaltı qımışıb dedi:-Qadan alım, o qədər belə işlər olub ki, hamısını yadda saxlamaq olmur.

Onun bu sözlərində böyük bir həqiqət vardı. Məhəmməd Çobanoğlu bütün ömrü boyu o qədər dara düşəni dardan qurtarmışdı ki, saymaqla qurtarmaq olmaz. Heç vaxt da etdiyi yaxşılığı başa qaxmaz, orda-burda danışmazdı.

Sonradan o, ailə vəziyyəti ilə bağlı doğma kəndə qayıtdı. Bir müddət briqadir, yeməkxana müdiri, ticarət sahəsində əmtəəşünas, anbardar işlədi. Hər yerdə də üz ağartdı.

Məhəmməd Çobanoğlu elmə, savada böyük qiymət verən bir insan idi. Ona görə də övladlarının hamısının ali təhsil almasına çalışmışdı. Atası Çobanın "təhsil almaq heç vaxt gec deyil" sözləri isə sırğa olub qulaqlarından asılmışdı. Bəlkə elə buna görə də övladlaının hamısı ali təhsil aldıqdan sonra, ömrünün yaşlı çağlarında Xalq Təsərrüfatı İnstitunu qiyabi yolla bitirmişdi. Tələbə yoldaşları övladları yaşda, müəllimlərinin bir çoxu isə özündən kiçik idi. Onun tələbə yoldaşları və gənc müəllimləri bu yaşlı tələbəni indi də xoş xatirələrlə yada salırlar.



# ŞÖHRƏTİ AZƏRBAYCANA SƏS SALMIŞ ÇÖRƏKLƏR

***"Çörəyi ver çörəkçiyə, bir pay da artıq."***

***Atalar sözü***

Kənd böyümüşdü. Mağazaların sayı günü-gündən artırdı. Bir neçə yerdə ayrıca çörək dükanları açılmışdı. Bu mağazalara çörək rayon mərkəzindən gətirilirdi. Xeyirdə, şərdə lazım olan çörəkləri də camaat ordan-burdan tapıb gətirirdi.

Məhəmməd bir dəfə çörək mağazasının ağzındakı növbəyi görəndə çörək sexi açmaq fikrinə düşdü. Ancaq o elə bir sex açmaq istəyirdi ki, orada bişirilən çörəklər tamam fərqli olsun. Dədə-baba qaydasında evdə bişən çörəklərin dadını versin. Evlərində kiçik bir kürə vardı. Həyat yoldaşı Bülqeyis xanım və anasının kürədə bişirdiyi çörəklərin ətri uzaqdan adamı vururdu. Qonum-qonşu da çox vaxt çıl-çırpısnı gətirib kürəni isidir, çörəyini onlarda bişirirdi.

Fikrini evdə bildirəndə əvvəlcə hamı çox təəcübləndi. Anası Pəri arvad:

– Ay Məhəmməd, -dedi-sən hara, çörək hara? Gərək birinci hökümətdən icazə alasan. Avadanlıq gətirdəsən. Qaldı ki, bişirmək işinə, o mənlikdir, iki-üç günə ustalarını öyrədəcəyəm.

Həmin dövrdə kiçik çörək sexləri rayon mərkəzi çörəkbişirmə kombinatına tabe idi. Ona görə də kombinatın direktoru ilə danışmaq qərarına gəldi. Özü ilə də evdən bir çörək götürüb kombinata getdi. Direktor bir qarşısındakı 40

yaşlı kişiyə, bir də ətirli kömbəyə oxşar çörəyə baxıb bir xeyli fikirə getdi. Sonra başını qaldırıb ağır-ağır dilləndi:

– Belə çörəkləri sənayə üsulu ilə bişirmək çox çətindir. Kürədə isə sutkada uzağı 2-3 tay unun çörəyini bişirimək olar. Bununla da Fatıya tuman olmaz.

– Hesablamışam, əgər iki kürəm, xəmir yuğuran dəzgahım olsa sutkada 2-3 ton çörək bişirərəm. Özü də keyfiyyəti heç də bu gördüyün çörəklərdən əskik olmayacaq.

– Onda sən get kənd sovetindən, sovxoz direktorundan mənə bir məktub gətir ki, camaatın tələbini ödəmək üçün belə bir sex lazımdır. Məktubu gətir, sonrasına baxarıq.

Məktubu almaq onun üçün o qədər də çətin olmadı. Düzdür, arada kimlərəsə qonaqlıq da verdi. Kənddə hörmətli, sözü keçən cavanlardan idi. Bu şirindilli, hamını “qadanalımla” dindirən, ailəsinə bağlı insanın xətrini hamı istəyirdi. Ona görə də onun kənddə “pekarnı” açmaq fikrini hamı alqışladı. Çünki, çörək halallıq sevir, Məhəmməd Çobanoğlu da halal insan idi. Bu vaxtacan işlədiyi yerlərdə özünə təmiz bir ad qazanmışdı.

Kəndin ağsaqqalı, uzun illər bu kənddə rəhbər vəzifələrdə olmuş Böyükkişi Yusifov onun ideyasını alqışlayanlardan ilk kişi idi. Ona görə də ona ürək-dirək verdi:

– Çobanoğlu, nə kömək lazım olsa utanma, mənə de. Sənə bir tövsiyyəm var. Heç vaxt çörəyə haram qatma. Çünki, çörək müqəddəs şeydir. Heç vaxt bir tikə çörək üçün üstünə qaçanları əliboş qaytarma. Allah özü sənə ruzi verəcək. Ailənin dolanması oradan çıxacaq. Yer seçmisənmi?

– Fikrim sexi dəmir yolunun qırağındakı yeməkxana binasında qurmaqdır. Hələlik ora boşdur. Həmin binanın içərisini yenidən qurub sex etmək olar.

– Yaxşı fikirləşmisən, yaşayış yerindən də bir az aralıdır. Çıraqlı arxına da yaxındır. Yolun açıq, işin avand olsun. Yenə təkrar edirəm, kimdən asılacaq işin olsa, utanma, gəl yanıma.

– Sağ olun, Böyük qağa, allah sizi eldən əskik etməsin. Elə bu xeyir-duanız mənə bəsdir. Nə çətinliyim olsa, sizə deyəcəyəm.

Məhəmməd Çobanoğlunun iradəsi üzləşdiyi bütün çətinliklərə qalib gəldi. Bəzən elə olurdu ki, bir barmaq kağızdan ötrü hansısa bir bürokratın qapısında saatlarca gözləməli olurdu. Nəhayət, kənddə çörək sexinin fəaliyyəti üçün icazə verildi. Rəhbərlik əvvəlcə israr edirdi ki, çörək sənaye üsulu ilə bişirilsin. Ancaq Məhəmməd dediyinin üstündə möhkəm dayandı, kürə çörəkləri bişirəcəyini söylədi və kombinatın direktorunu razı saldı.

İndisə qalırdı kürələri hazırlamaq. Avadanlıq işi asan idi. Çörək kombinatında xəmir yoğuran və digər avadanlıqlar çox idi. Kənd ustaları kiçik kürələr tikməyi bacarırdılar. Ancaq ona böyük kürələr lazım idi. Ona elə bir usta gərəkdi ki, az yanacaqla tez qızan və gec soyuyan kürə tikə bilsin. Belə bir ustanı çoxdan, bu fikrə düşdüyü ilk gündən soraqlayırdı. Hər yana xəbər salmışdı.

Günlərin bir günü Göyçədəki dostlarından biri xəbər göndərdi ki, əmoğlusu elə o axtardığı adamdır. Ustalar gəldilər, onların məsləhəti ilə oda davamlı kərpic tapdı. Bir neçə günə kürələr hazır oldu. Lazım olan avadanlıqları kombinatdan gətirdi. Hamı səbirsizliklə kürələrin işə düşəcəyi günü gözləyirdi.

Nəhayət, kürələr tamam qurudu, bir neçə dəfə ocaq qalandı. İndi işə başlamaq olardı. Pəri ilə Bülqeyis bir neçə

gün sexdə oldular, çörək bişirən ustaları və Məhəmmədi öyrətdilər. Kürədən çıxan ətirli çörəklər heç də evdə bişənlərdən seçilmirdi. Məhəmməd Çobanoğlunun bişirdiyi çörəklərin şöhrəti hər yana yayıldı. Rayondakı rəhbər işçilər də artıq evlərinə buradan çörək apartdırırdılar.

Çox vaxt qatarlar çörək sexinə yaxınlaşanda fit verir, ora çatanda dayanır, sexdə çalışan cavanlardan biri isti çörəkləri maşinistlərə verirdi. Sutkada 2-3 ton çörək bişsə də yenə tələbatı ödəmirdi.

1969-cu ildən 1997-ci ilə qədər işləyən çörək sexi çox ac qarınları doyurdu. Çörəkçi Məhəmməd Böyükkişi qağanın öyüd-nəsihətlərini unutmadı, qapısına gələni əliboş qaytarmadı.

Yaxşı yadımdadır, 1990-1992-ci illərdə çörək qıtlığı yaranmışdı. Rayon camaatı qatarla Bakıdan, Gəncədən çörək daşıyanda Aşağı Ayıblı camaatı çörəkdən korluq çəkmədi. Çünki, Məhəmməd Çobanoğlu və onun kürələri vardı. Hətta, rayona təzə gələn, onu hələ yaxşı tanımayam rəislər, prokurorlar bir neçə dəfə onu bu "özbaşınalığının" üstündə çək-çevirə salmaq istəmişdilər. Ancaq onun camaat arasında olan hörmətini, nüfuzunu öyrənəndən sonra fikirlərindən daşınmışdılar. Başa düşmüşdülər ki, Çobanoğluna dəyib toxunsalar "dava kağızı gəzənlər" ayağa qalxacaq, onlardan əl çəkməyəcəklər.

Məhəmməd Çobanoğlunu aləmdə məşhur edən çörək sexi 1994-cü ilə qədər özünün, sonra isə oğlu Vahidin rəhbərliyi altında fəaliyyət göstərdi. Bu sexin sayəsində tanındı, övladlarının hamısına ali təhsil verdi.

# OĞUL DAĞI

***"Xoşbəxt günlər tez unudulur, dərdlər isə ömür boyu yaddaşdan silinmir."***

***C.Bayron***

Məhəmməd Çobanoğlu dörd oğul, bir qız böyütmüşdü. Hamısı da ağıllı-kamallı, el-obada özlərinə hörmət qazanmış cavanlar idi. Ata-ana balaları ilə qürur duyur, xoşbəxt ömür sürürdülər. Biz Bakıda təhsil alanda Məhəmməd əminin üçüncü oğlu Saleh tibb texnikumunda diş texnikliyi fakültəsində təhsil alırdı. Saleh şirindil, yanımcıl, əliaçıq bir oğlan idi. Mən ADU-nun hüquq fakültəsində oxuyan uşaqlıq dostum Etibarla bir otaqda qalırdım. Saleh dərsdən sonra tez-tez bizə qonaq gəlir, bəzən də bizdə gecələyirdi. O gələndə sanki, kiçik otağımız daha da şenlənirdi.

Bir dəfə Saleh dedi ki, atam sabah Bakıya gələcək, ona görə də sizə gələ bilməyəcəm. Səhərisi axşam yemək hazırlayırdıq. Qapımız döyüldü. Açanda gözlərimizə inanmadıq. Qarşımızda Məhəmməd əmini, Salehi və kiçik qardaşı Vidadini gördük. Bizi bağrına basıb dedi:

– Bıy sizin qadanız alım, Saleh səhərdən oturub-durub sizdən danışır. Deyir ki, Etibarla Ramiz olmasa qəribsəyib darıxardım.

Sonra dərslərimizlə, bir şeyə ehtiyacımız olub-olmaması ilə maraqlandı. Bir xeyli oturub sonra dedi:

– Buraya gələndə yaxşı bir yeməkxana gördüm. Durun gedək, birlikdə yemək yeyək.

Təklif ürəyimizdən olsa da, etiraz etmək istədik. Ancaq

Çobanoğlu dediyindən dönmədi:

– Vahidin canı üçün qulağınızı buraram. Əminin sözünü yerə salmayın. Sabah da bazardır, dərsiniz yoxdur.

Məhəmməd əminin bu sözlərindən sonra getməkdən başqa çarəmiz qalmadı. Gözəl bir məclis alındı. Məhəmməd əmi elə bir şərait yaratmışdı ki, aradakı yaş fərqini unutmuşduq. Orada bir şeyin fərqinə də vardım. O, övladları ilə təkcə ata kimi deyil, həm də dost kimi rəftar edir. Bu isə hər ailəyə qismət olmur. Ayrılanda zorla cibimizə xərclik qoymaq istədi. Nə qədər ərkyana hərəkət etsə də qəbul etmədik. Ancaq, səhərisi gün Saleh bir taksi ilə bizə xeyli bazarlıq gətirdi və bildirdi ki, bunları atası göndərib.

Şirin tələbəlik illəri tez ötüb keçdi. Daşkəsəndə işləyirdim. Ara-sıra kəndə gələndə Salehlə də görüşürdük. Diş texniki işləyirdi. Evlənməyə hazırlaşırdı. Həmişə deyirdi ki, sağdışım, solduşum Etibarla sən olacaqsan. Mən iş yerimin telefonunu da yazıb ona vermişdim. Xahiş etmişdim ki, toydan bir neçə gün qabaq zəng vurub xəbər versin. Mən toy xəbəri gözləyirdim, ancaq, necə deyərlər, sən saydığını say, gör fələk nə sayır.

Həmkəndlim Aydın Məmmədov Daşkəsəndə həkim işləyirdi. Bir gün kəndə dəyib qayıdandan sonra mənə Salehin avtomobil qəzasında öldüyünü söylədi. Toyuna hazırlaşdığım dostumun yasına getmək kimi ağır bir iş düşdü qismətimə.

O yas mərasimində dağ kimi ağır Məhəmməd kişi sanki balacalanmışdı. İnsan hər dərdə dözür, ancaq övlad dərdini çəkmək çox çətindir. Övlad dağı ata-anaları bir gecənin içində əridir, məhv edir. Mən həmin gün Məhəmməd əmini içində ağladığını gördüm O gündən də içindəki dərd onu acı qurd kimi gəmirməyə başladı, həyatını zəhər etdi.

O gündən mən Məhəmməd əminin gözlərinə görünməməyə çalışırdım. Bilirdim ki, məni görəndə oğlunu xatırlayacaq, kövrələcək, acı xatirələrin qaysağı qopacaq, ürəyindən qara qanlar axacaq. Çünki, rəhmətlik Salehlə məni bir-birimizə çox oxşadırdılar. İndinin özündə qardaşı Valeh məni görəndə hiss edirəm ki, kövrəlir.

Bu faciə xoşbəxt ailənin pərənini pozdu, ailə üzvləri uzun müddət özünü toparlaya bilmədi. Yenə, Məhəmməd kişi çətin anda ailəsinə dayaq oldu. Bu ağır yükü yüngülləşdirmək üçün onlara təsəlli verməyə belə özündə güc tapdı:

– Salehi bizə tanrı vermişdi, özü də əlimizdən aldı. Allahın işinə naşükürlük etmək olmaz. Bircə şeylə təsəlli tapın ki, bizdən pis dərddə olanlar var. Kəndimizdə gözünün ağı-qarası tək övladını itirən, yurdu boş qalan insanlar görün nə qədərdir. Bəs o biçarələr nə etsin, necə yaşasınlar? Allaha min şükür ki, allah övladlarımdan birini aldı, 4-nü mənə saxladı.

Sonra belə bir maraqlı əhvalat danışdı:

– Tanrı peyğəmbərlərdən birinə çoxlu övlad və var-dövlət vermişdi. Uca yaradan əvvəlcə onun varını, sonra isə övladlarını əlindən alır. Peyğəmbər isə allaha dua edir ki, özün bilən məsləhətdir. Nəyim vardısa mənə sən vermişdin, sən də aldın. Uca yaradan ondakı bu inam və etiqadı görüb onu təzədən xoşbəxt edir. Ona aldıqlarından da çox övlad və var-dövlət verir. Ona görə də, sizə məsləhət görürəm ki, əlinizi tanrının ətəyindən üzməyin. Naşükür olmayın. Həmişə dərdə düşəndə bir şeylə təsəlli tapın ki, sizdən də çox dərd çəkənlər var.

Ancaq özünü nə qədər toxtaqlı tutsa da, övladlarına və həyat yoldaşına təsəlli versə də oğul dağı ömrünün sonu-

nacan ona yoldaş oldu. Hər dəfə övladlarına, nəvələrinə toy çaldıranda gözləri nakam getmiş oğlu Salehi aradı. Bir gözü güldü, bir gözü ağladı. Ancaq heç bir qüvvə gedəni geri qaytarmadı. Həmişə hay-küylü, qonaq-qaralı evində Salehin yerini kimsə doldura bilmədi. Bəzən dərd güc gələndə xəlvətcə oğlunun məzarı başına getdi, içini boşaltdı. Hər dəfə oradan sarsılmış, sınmış vəziyyətdə qayıtdı. Ancaq, bu xəlvəti ziyarətləri uzun müddət gizli tuta bilmədi. Oğlu Vahid bir gün izləyib məsələdən halı oldu. Evin böyük uşağı olduğu üçün atası həmişə hər işi ona gənəşirdi. Atasını bu vəziyyətdə görəndən sonra Vahid onu məzəmmətləmiş, and içdirmişdi ki, br daha buraya tək gəlib özünü üzməyəcək. Həmin vaxtdan da bir müddət onu nəzarətdə saxlamış, heç yerə tək buraxmamışdı.

Oğlunun dünyadan nakam getməsindən sonra onsuz da əliaçıq olan Məhəmməd əmi daha səxavətli olmuşdu. Eşidib biləndə ki, kiminsə uşağı ağır vəziyyətdədir, dərin müalicəyə ehtiyacı var, dərhal həmin ailəyə yardım edər, hər cür köməklik göstərərdi. Həyat yoldaşına və övladlarına da bərk-bərk tapşırmışdı ki, qapısına gələn dilənçini yedizdirib-içizdirməmiş yola salmasınlar.

Bir dəfə kəndin mərkəzindəki çayxanada oturmuşduq. Bir qadın stolumuza yaxınlaşıb yardım istədi. Kimsə qadına, – niyə işləmirsən, – deyib acıqlandı. Məhəmməd kişi əlini cibinə salıb qadına 10 manat pul verdi. Sonra üzünü həmin adama tutub onu danladı:

– Ehtiyac olmasa heç kim əl açıb dilənməz, özünü alçatmaz. Bəlkə o qadının evdə xəstəsi var, bəlkə uşaqları acdır? Atalar deyib ki, əl tutmaq Əlidən qalıb. Bu gün biz əl tutmalıyıq ki, sabah dara düşəndə kimsə bizim əlimizdən tutsun.

## SÖZÜN KƏSƏRİ

***"Söz böyük şeydir. Ona görə böyükdür ki, sözlə insanları birləşdirmək də olar, ayırmaq da. Məhəbbət də qazanmaq olar, ədalət və düşmənçilik də".***

***L.Tolstoy***

Azərbaycan yenicə müstəqilliyinə qovuşmuşdu. Ancaq bu müstəqillik xalqımıza çox baha başa gəlmişdi. Neçə-neçə Vətən oğlu azadlıq yolunda şəhid olmuşdu. Yenicə qazanılmış bu müstəqilliyi qorumaq işə olduqca çətin idi. Ölkə dərin iqtisadi böhran keçirirdi. İş yerləri bağlanmış, istehsal olunan məhsulu xaricə çıxarmaq çətinləşmişdi. Xalqın başı bir yandan torpaqlarımıza göz dikən ermənilərlə vuruşmağa, digər yandan da silahlı dəstələr düzəldib hakimiyyət uğrunda mübarizə aparan vəzifəpərəstlərə qarışmışdı. Hər siyasətçinin öz qoşunu, öz ordusu vardı. Millət də qalmışdı çaş-baş. Bilmirdi ki, kim haqlıdır, kim haqsız.

Bu siyasi mübarizələrin dalğası artıq ucqar bölgələrə belə gəlib çıxmışdı. Qürurla demək olar ki, kəndimizdə ağsaqqalların, ziyalıların sayəsində həmin çətin anlarda heç bir qarşıdurma olmadı. Kəndimizin cavanları yalnız ermənilərlə döyüşmək üçün əllərinə silah götürdülər. Neçə-neçə igid oğlumuz torpaqlarımızın bütövlüyü uğrunda şəhid oldu.

Ancaq millət özünün də xəbəri olmadan parçalanırdı.

Həmin dövrdə görkəmli şairimiz İsa Cavadoğlu haq səsini ucaldaraq haray çəkirid:

Vay sənin halına, biçarə millət,
Birlik deyə-deyə parçalanmışıq!
Dil tapa bilməyib öz-özümüzə,
Yadı söyə-söyə parçalanmışıq!

Namus, qeyrətimiz tapdalanırkən,
Millət qırılırkən, Vətən yanırkən.
Birlik bayrağımız dalğalanırkən,
Gör neçə cəbhəyə parçalanmışıq?

Biz o günlərdə güllə, top səslərinə alışmışdıq. Çox vaxt bu səslərin altinda yatır və oyanırdıq. Düşmən atdığı üçün bu səslərdən qorxmurduq. İnsanlarımız gündüzlər şəhidlərimizi son mənzilə yola salır, gecələr sərhədlərə keşik çəkməyə yollanırdılar. Yaşından, səhhətindən asılı olaraq sərhədə gedə bilməyənlər də onları tək buraxmır, arxalarinca ərzaq daşıyırdılar. Hamı var-yoxunu satıb silah-sursat almaq üçün müdafiə fonduna verirdi. Belə ağır günlərdə cəbhəyə yardım göstərənlərdən biri, bəlkə də birincisi Çobanoğlu Məhəmməd və oğlanları idi. O maşınının yük yerini tez-tez doldurar, cəbhəyə yardım apарardı. Bəzən elə olurdu ki, bir-birilərindən xəbərsiz sərhədə yardım aparan oğlanları ilə cəbhə xəttində görüşərdi. Bu şirindilli, qanisti, iri görkəmli kişini artıq döyüşçülərin hamısı tanıyırdı.

...1993-cü ilin iyun ayının 14-nə açılan səhəri kənd camaatı heç vaxt unutmayacaqdır. Səhərə yaxın atəş səsləri

onsuz da səksəkəli yatmış adamları yuxudan oyatdı. Bu dəfəki güllə səsləri əvvəlkilərə bənzəmirdi, lap yaxından gəlirdi. Bir anda xəbər yayıldı ki, hökümət qoşunları ilə Sürətin dəstəsi Zəyəm çayının sağ-sol sahilində üz-üzə gəliblər. Kişilər hadisə yerinə, qadınlar, qocalar, uşaqlar isə kəndin aşağı hissəsinə, Kürə tərəf axın etdi.

Şərab zavodunun həyəti qələbəlik idi. Çoxlu hərbçi vardı. Çoxusu üz-gözünü boyamışdı. Müxtəlif döyüş texnikaları müdafiə mövqelərində yerləşdirilmişdi. Hadisə yerinə sovxozun o zamankı direktoru Tofiq Mirzəyev və icra nümayəndəsi Fazil Abbasov gəlmişdilər. Kənd camaatını da onlar ayağa qaldırmışdılar. Düyərli kəndi tərəfdən surətçilərin atdıqları mərmi Tofiq İsrafil oğlunun evinə düşmüş və o, ağır yaralı halda xəstəxanaya götürülmüşdü. Hər iki tərəfə əlavə kömək gəlirdi. Qarşı-qarşıya gələnlər döyüşmək fikrində idilər. Surətin dəstəsi Zəyəm çayını keçib Tovuzu və Qazağı tutmaq, hakimiyyəti ələ keçirmək fikrində idi. Onlar artıq qonşu rayonları və Gəncəni nəzarətdə saxlayırdılar. Hökümət qüvvələri isə nəyin bahasına olursa-olsun onların qarşısını almaq, əks-zərbələr endirmək istəyirdilər.

Deyəsən, belə getsə qan su yerinə axacaq, kənd camaatı ayaq altda qalacaqdı.

Yenə çıxış yolunu kənd ağsaqqalları tapdı. Onlar – İsa Cavadoğlu, Məhəmməd Çobanoğlu, Fərman Məhəmmədov, Eldar Qasımov, İmran Əhmədov, Camal Rüstəmov zavodun həyətində döyüş planı cızan hərbçilərə və rayon rəhbərlərinə yaxınlaşdılar. Onlar əvvəlcə ağsaqqallara əhəmiyyət vermək istəmədilər. Ancaq İsa müəllimin ağıllı, ib-

rətamiz söhbətləri, Fərman Məmmədovun qətiyyətli sözləri, Məhəmməd Çobanoğlunun şirin dili onları fikirlərindən daşındırdı.

Hərbçilərin biri Məhəmməd kişini görüb qucaqladı:

– Məhəmməd əmi, çətin gündə siz biz əsgərlərin həmişə yanında olmusunuz. Sizin kimi hörmətli ağsaqqalları eşitmək bizim borcumuzdur. Ancaq biz öz əsgəri borcumuzu yerinə yetiririk. Qiyam yatırılmalıdır.

– Ağrın alım, siz öz borcunuzu Əlibəylidə bundan daha yaxşı yerinə yetirirdiniz. Nə qiyam, nə filan, o tərəfdəkilər də bizim balalarımızdır. Onların başlarını doldurub yoldan çıxarıblar. Bu kəndin camaatına yazığınız gəlsin, – deyə Məhəmməd kişi quçaqlayıb həmin hərbçinin alnından öpdü.

Qudası Fərman müəllimin ötkəm səsi eşidildi:

– Əgər onlarla haq-hesab çəkmək istəyirsiniz, gedin Ceyrançölə, bir-birinizi qırın. Onda görək ermənilərin qabağında kim dayanacaq?

Bu vaxt iki ədəd döyüş vertolyotu zavodun üstündən keçib, kəndin başı üzərində dövrə vurmağa başladı.

Hərbçilər rayon icra hakimiyyətinin başçısı Vahid Hümbətovla məsləhətləşib belə qərara gəldilər ki, ağsaqqallardan ibarət nümayəndə heyəti Düyərli kəndi tərəfə keçsinlər, həmin kəndin ağsaqqalları ilə birlikdə oradakı dəstənin başçıları ilə danışıq aparsınlar, onlar da razı olsalar atəşkəs elan olunsun. Bu sətirləri yazarkən həmin anı həyəcansız xatırlaya bilmirəm. O tərəfə gedəcək olanlar 8 nəfər idilər. Onlar kəfənlərini boyunlarına dolayıb birbaşa ölümə gedirdilər. Çünki, gözü qızmış, bu vaxtacan əldə etdikləri asan qələbələrdən məst olmuş sürətçilər onları öl-

dürə, girov götürə bilərdilər. Xüsusilə də onların içərisində olan cavanları – Tofiq Mirzəyevi, Fazil Abbasovu, Eldar Qasımovu.

Məhəmməd Çobanoğlu çox çalışdı ki, onları geri qaytarsın, ancaq mümkün olmadı. O, üzünü yoldaşlarına tutub dedi:

– Onlarla bir az mülayim, qılıqlı danışmaq lazımdır. Rüstəmov Camal bir az hövsələsizdir, Fərman müəllim sözü kəsə deyəndir. Bu da onların xoşuna getməyə bilər. Ona görə də qoyun onlarla İsa müəllimlə mən danışım.

Qarşı tərəfdəki silahlılar onları görüb havaya atəş açdılar . Ancaq gələnlərin əksəriyyətinin yaşlı və silahsız olduqlarını görüb atəşi kəsdilər. Düyərli kəndindən də xeyli ağsaqqal silahlıların başına yığışmışdılar. Onlar əyyubluları yaxşı qarışladılar. Dünənə qədər bir-birlərinin xeyrində, şərində yaxından iştirak edən,qohumlaşan bu insanlar indi qarşılaşan iki qrupun əllində əsir-yesir olmuşdular. Düyərlilər də silahlı dəstənin komandirinə yalvarırdılar ki,qardaş qırğınına getməsinlər,günahsız insanlar nəqafil gülləyə qurban olmasınlar. Ancaq, deyəsən onu razı salıb yola gətirmək o qədər də asan iş deyildi. O çox qəzəbli danışırdı:

– Ratsiyadan eşitdik ki, Dadaş Rzayev ətraf rayonlarda sərhəddə dayanmış hökümət qüvvələrinin yarısını bizim üstümüzə yeritmək istəyir. Biz də onları qabaqlayıb Tovuzu, Qazağı, Gədəbəyi tutacağıq.

Fərman müəllimin qəzəbli səsi eşidildi:

– Elə qoçaqsınızsa gedin ermeniləri qırın, bir-birinizi yox.

Dəstə başçısının üzü masqalı köməkçisi silahını ona tərəf doğruldanda Çobanoğlu qabağa keçdi, qudası Fərman müəllimə işarə etdi ki, bura kəskin danışmağın yeri deyil. Təmkinli bir səslə, şirindilllə onları dilə tutdu:

– Dərdiniz alım, niyə acıqlanırsınız. Siz kim, biz kim. Hamımız dərinə getsək qohum çıxacağıq. Bu insanların hamısı kəndimizin, rayonumuzun ən hörmətli insanlarıdır. Surət də bizə yad deyil, bu xalqın, millətin oğludur. Bu gördüyünüz İsa müəllimin şeirlərini bütün Azərbaycn bilir. Hamınız bizim balalarımızsınız.

İsa müəllim söhbətə qarışdı:

– Mənim balalarım, dünənəcən siz də, onlar da çiyin-çiyinə erməniyə qarşı vuruşurdunuz. Bir-birinizin yaralarını sarıyır, məzarı önündə göz yaşı tökürdünüz. Birdən-birə nə oldu bu millətə? Balalarım, qardaş qırğını törətsəniz sabah tarix, insanlıq sizi lənətləyəcək.

Silahlılardan kimsə qeyri-ixtiyari dilləndi:

– Ağsaqqallar doğru deyirlər.

Bu sözlərlə sanki buzlar çatladı. Ab-hava bir az yumşaldı.Dəstə başçısı üzünü Məhəmməd kişiyə tutub yarızarafat, yarıgerçək dedi:

– Əmi, gərək Əbülfəz Elçibəy sizi özünə məsləhətçi götürəydi, sizdən yaxşı diplomat olardı.

Tofiq Mirzəyev söhbətə qoşuldu:

– Xalq diplomatiyası tarixdə bütün diplomatiyalardan üstün olub.

Onun bu sözlərinə xeyli gülüşdülər. Belə qərara gəldilər ki, hər iki kənddəki qoşunlar geri çəkilsinlər, Zəyəm çayı sərhəd olsun. İmran müəllim özünü saxlaya bilməyib ya-

vaşca deyindi:

– Ay İsa müəllim, görəsən bölünə-bölünə hara gedirik?

Bir azdan nümayəndə heyəti zavoda qayıdıb qarşı tərəfin də atəşkəsə razı olduğunu söylədi. İndi də hərbçilərin görüşünü təşkil etmək lazım gəlirdi. Bu dəfə ağsaqqalların iştirakı ilə Etibar Əmiraslanovla Surətin nümayəndəsi vəziyyəti müakirə etdilər. Razılıq əldə olunanda Məhəmməd Çobanoğlu ərklə hər ikisini qucaqlayıb dedi:

– İndi də qardaş kimi qucaqlaşıb öpüşün. Ay sizə mən əminiz qurban. Bax belə, indi sizin hər ikiniz qardaş kimi ayrılacaqsınız.

Həmin gün Əyyublu ağsaqqallarının "xalq diplomatiyası" sayəsində Düyərli və Əyyublu kəndlərinin əhalisi gecəni rahat və atəş səsləri olmadan yatdılar. Qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısı alındı. Bu barışığın əldə olunmasında həyatlarını risqə atmış insanların adları heç bir rəsmi sənədlərdə qeyd olunmasa da xalqın, insanların ürəklərində qızıl hərflərlə yazıldı.

# DİREKTOR

***"Möhkəm iradə olan yerdə dağ zəmiyə çevrilər."***
***Çin atalar sözü***

Milli ordumuz yenicə təşəkkül tapır, formalaşırdı. Əvvəlcədən formalaşmış sovet iqtisadiyyatı dağılmış, bütün iqtisadi əlaqələr qırılmışdı. Belə çətin vaxtlarda ordunu silah-sürsatla təmin etməklə yanaşı həm də ərzaq, pal-paltar, yatacaq dəstləri ilə təmin etmək də əsas vəzifələrdən biri idi. Rayondakı idarə və müəssisələr öz işlərini ordunun tələbatına uyğun olaraq qururdular.

Soyuq səngərlərdə, yerdən qazılmış kazarmalarda gecələyən döyüşçülərimiz üçün lazım olan şeylərdən biri də yorğan-döşək, yataq dəstləri idi. Bakı trikotaj fabrikinin isə tək başına bu işləri görməsi olduqca çətin idi. Ona görə də rəhbərlik belə qərara gəlmişdi ki, bölgələrdə də zavodun fillialları açılsın, həmin ərazilərdə yerləşən hərbi hissələrə həmin filliallarda yorğan-döşək, yataq dəstləri hazırlansın. Ancaq bu iş o qədər də asan deyildi. Bu iş üçün lazımı avadanlıqlar, dəzgahlar, tikiş maşınları, ən əsası isə kadrlar və uyğun bina lazım idi. Ən böyük problem isə bütün bu işlərin öhtəsindən gəlməyi bacaran təşkilatçı, halal, nüfuzlu direktor tapmaq idi. Həmin vaxtlar kəndimizdə Məhəmməd Çobanoğlunun kiçik oğlu Vidadi Əkbərovun rəhbərlik etdiyi tikiş fabriki fəaliyyət göstərirdi. Orada 300-dən çox tikişçi qız işləyirdi. Onlar artıq öz işlərinin ustaları idilər. Bu fabrik əvvəllər sex idi, fillial kimi fəa-

liyyət göstərirdi. Ancaq gənc sex rəisinin təşkilatçılığı, bacarığı sayəsində sex qısa bir müddətdə böyüyüb müstəqil fabrik oldu. Əvvəllər köhnə məktəb bnasında fəaliyyət göstərən sex Vidadinin sayəsində tikilmiş yeni binaya köçürüldü. Kənddəki gənc qızlar arasında işsizlik problemi demək olar ki, xeyli aradan qaldırıldı.

Bütün bu işləri rayon rəhbərliyi də yaxşı bilirdi. Ona görə də yeni filliala direktor axtararkən ağıllarına ilk Çobanoğlu Məhəmməd gəldi. Bilirdilər ki, hansı iş üçün getsə əliboş qayıtmayacaq. Həmin illər dövlət elə bir vəziyyətdəydi ki, it sahibini tanımırdı, yuxarıdan deyilənləri aşağılar eşitmirdi. Hər hansı bir təchizat bazasından nəyisə almaq qalırdı verənin insafına, alanın qabiliyyətinə. Çobanoğlu Məhəmməd böyük hörmət və nüfuza malik, geniş əlaqələri olan bir insan idi. Hər yerdə sözü ötür, eşidilirdi. Oğlu Vidadinin fabrikinin qurulmasında, təminatında da onun bu nüfuzunun və əlaqələrinin böyük rolu olmuşdu.

Ona bu işi təklif edəndə çox təəccübləndi, üzünü icra başçısına tutub dedi:

– Qadanız alım, bu iş üçün mən artıq yaşlanmışam, mənimki çörək bişirməkdi, zavod direktorluğu hara, mən hara?

– Məhəmməd kişi, bu günlərdə bizə çörək də lazımdır. Ancaq çörəyi oğlunuz Vahid müəllim də bişirtdirə bilər. Bilirik ki, bu işdə xeyli təcrübəsi var. Sizin işgüzarlığınız və qabiliyyətiniz bizə məlumdur. İndi Bakı trikotaj fabrikinin rəhbərliyinə təqdimatınız hazırlanır, götürüb bu axşam çıxın, qayıdıb işə başlayın, bina tapın, avadanlıq gətirin, vaxt gözləmir.

Təklifi qəbul etməkdən başqa əlacı qalmadı. Təqdimatı götürüb evə qayıtdı, Vahidi, Valehi, Vidadini yanına çağırıb məsələni onlara da söylədi. Valeh onda kənddəki üzüm emalı zavodunda baş şərabçı işləyirdi. Vidadi fabrikin direktoru idi. Vahid isə çörək sexində onun yaxın köməkçisi idi.

İlk əvvəl evin böyük oğlu dilləndi:

– Ata, sənə böyük etimad göstəriblər, bu gün ordumuz üçün lazım olan ən gərəkli bir sahəyə direktor təyin edirlər. Biz arxandayıq. Çörək sexindən ayrılmaq bilirəm sənin üçün ağırdır. Çünki onun hər bir kərpici əlindən keçib. Ancaq gözün arxada qalmasın, sexi özüm yola verəcəyəm.

Valeh həmişəki zarafatından qalmadı:

– Nə vaxtacan deyəcəyik ki, çörəkçi Çobanoğlu Məhəmmədin oğluyuq. Qoy indi deyək ki, direktor Məhəmməd Əkbərovun oğluyuq. Qoca vaxtında o boyda institutu havayı ha oxumayıbsan. Sizə bir yaxşı bina yeri də deyim. Bizim zavodun qurtaracağında böyük bir bina var. Tikilən gündən bomboşdur. Qapısını qarşı tərəfdən açsanız zavodla əlaqəsi kəsiləcək. Rəhbərliklə danışın, versin fabrikə.

Vidadi də öz köməyini təklif etdi:

– Onsuz da mənim işimlə bağlı fabrik işini az-çox bilirsən. Kadr məsələsində mən köməklik edəcəyəm. Bizim fabrikdə təcrübə keçmiş, indi iş növbəsi gözləyən çoxlu tikişçi qızlar var. Onları dəvət edərik. Bizdəki ustalardan da bir neçəsini köçürərik təzə fabrikə.

Ata qürur hissi ilə oğlanlarına baxdı. İndi öz-özünə ilk dəfə fikirləşdi ki, gör dünənəcən uşaq gözü ilə gördüyü,

hər addımlarını izlədiyi oğlanları nə tez böyüyüb, yetkin insanlar olub atalarına dayaq dururlar. Sanki bir az qayğılardan uzaqlaşdı. Həyat yoldaşı Bülqeyis xanımın süzdüyü pürrəngi çaydan içə-içə nəvələri ilə şirin-şirin söhbətləşdi, zarafatlaşdı və axşam qatara minəcəyi vaxtı gözlədi.

Bakıda onun yeni yaradılacaq fabrikə direktor təyin olunması məsələsi tez həll olundu. Rayona qayıdan kimi qollarını çırmayıb işə başladı. Qısa vaxtda fabrik işə düşdü. Kənd cavanları üçün yeni iş yeri açıldı. İndi Məhəmməd əmini ordu hissələrində daha tez-tez görmək olurdu. Həmin fabrik düz beş il fəaliyyət göstərdi, hərbi hissələr üçün yorğan-döşək, yataq dəstləri hazırladı.

Özəlləşmə prosesi başlayandan sonra vahid bir mərkəzdən idarə olunan, təchiz edilən tikiş sənayəsində də durğunluq yarandı və nəticədə bu fabrik də digər sənaye müəssisələri kimi bağlanmaq məcburiyyətində qaldı.



## SON YOLÇULUQ

***"Daha yaxşı şeylərin arzusu ilə yaşayaraq pis şeylərə hazır ol ki, taleyini soyuqqanlılıqla qarşılayasan."***
***C.Lakorde***

Bir yaralı qartalam mən,
Qanadım var uçmaq olmur.
Bu dərdlərdən yanır sinəm,
Heç kimə də açmaq olmur.

Niyə düşdüm mən bu hala,
Kimlər məni yola sala?
Sən ha çalış, ha çabala,
Bu əcəldən qaçmaq olmur.
*(R.Çıraqlı)*

Heç kim bilmirdi ki, dağ çüssəli Çobanoğlunun yumruq boyda geniş, səxavətli, sevgi, məhəbbət dolu oldu ürəyində dağ boyda bir dağ gizlənib. O, uzun illər başını iş-güclə, nəvələrindən aldığı sevinc payı ilə qatmaq istəsə də içindəki bu dağı əridə bilmədi. Əksinə, dərd yükü onun güclü çiyinlərini yavaş-yavaş əyməyə, zəhərli bir qurd kimi içindən yeməyə, onu göz görə-görə əritməyə başladı.

Oğul dərdinə dözə bilməyən mərd ürəyi ona yavaş-yavaş xəyanət etməyə başladı. Bir dəfə ikilikdə söhbətləşirdik. Nasazlığını hiss edib dedim:

– Məhəmməd əmi, canınıza fikir verin, kurorta, sanatoriyaya gedin. Allaha şükür, övladlarınızın hamısının əlini çörəyə çatdırmısınız. İstədiyiniz yerə getməyə imkanınız var.

Üzümə qəribə bir nəzər salıb dedi:

– Eh, Çıraqlı bala, dünyada elə xəstəlik var ki, insanı zaman-zaman içindən yeyib öldürür. Onu sağaltmağa heç bir təbibin, loğmanın gücü çatmaz. Mənimki də elə sağalmaz dədlərdəndir. Mənim dərdim bala dərdidir. İnsanın üzü bərkdir. Bütün dərdlərə dözür, təkcə bala dərdindən başqa. Saleh mənim belimi qırdı. Ondan sonra nə yaşamışamsa artıqdır.

Ona etiraz etdim:

– Axı çox şahid olmuşam ki, siz övlad itirən valideynlərə təsəlli verib özünüzü misal gətiribsiniz. Axı siz bir ağsaqqal kimi hələ kəndimizə çox lazımsınız. Belə danışmaq sizin kimi iradəli bir insana yaraşmaz.

– Düz deyirsən, bala, bir az kövrəldim, sənin də qanını qaraltdım. Allahın verdiyi ömürdür, özü verib, özü də istədiyi vaxt alacaq.

Onda hiss etmişdim ki, o, özündəkini bilir. Övladları onu tez-tez Bakıya ən yaxşı həkimlərə aparsalar da, ən yaxşı kurort və sanatoriyalara göndərsələr də əcəl onunla daban-basaraq gəzir, addım-addım öz qurbanını izləyirdi. Ömrünün qurub çağında elə də güclü maddi imkanları olmasa da yenə səxavətindən, əlaçıqlığından qalmır, qapısına gələni əliboş yola salmırdı. Sanki bununla da bu dünyada axıra çatdıra bilmədiyi xeyirxah əməllərini tamamlamaq istəyirdi.

Adını çəkmək istəmədiyim bir nəfər onun haqqında bir dəfə söhbət düşəndə belə bir əhvalat danışdı:

– Müşkül bir işə düşmüşdüm. İşimin asılı olduğu adamla Məhəmməd kişinin yaxın olduğunu öyrəndim. Onlara gedəsi oldum. Qapını döydüm, Bülqeyis bacı qarşıma çıxdı. Məhəmməd kişi ilə vacib işim olduğunu söylədim. Bir xeyli duruxub dedi ki, bir az nasazlıyıb, dərman atıb dincəlir. Heç bir söz deməyib geri qayıtmaq istədim. Beş-on metr getmişdim ki, gördüm Bülqeyis bacı məni çağırır. Geri döndüm. Dedi ki, kişi gəlib qapıdan qayıtdığını biləndə məni çox danladı. Səni gözləyir. Düzü, utana-utana içəri girdim. Divanda uzanmışdı. Məni görüb ayağa qalxdı, balınca dirsəklənib üzr istədi. Çay gətizdirdikdən sonra məndən soruşdu:

– Xeyir ola, ikidən-birdən gəlməzdin.

Mən onun ağrıdığını görüb dərdimi açmaqdan vaz keçdim. Dedim ki, küçədən keçirdim, fikirləşdim ki, bir səndən hal-əhval tutum. Çoxdandır çayçıya, filana çıxmırsan.

Rəhmətlik çox arif adam idi. Bilirdi ki, sözlü adama oxşayıram. Ona görə də məni məcbu edib hər şeyi öyrəndi. Sonra bildirdi ki, dediyin adam yaxın tanışımdır, yəqin məni eşidər. Sənə bir zapiska verəcəyəm, aparıb ona çatdırarsan. Sonra kiçik bir kağıza nəsə yazıb mənə vermək istədi. Ancaq sonra nə fikirləşdisə cırıb atdı.-Zəmanə yaman dəyişib, adamları tanımaq olmur. Üz-üzdən utanır, gərək səninlə özüm gedəm. Səhər tezdən gəl bizə, Vidadinin maşını ilə gedərik,-dedi.

Nə qədər etiraz etdim ki, xəstəsən, əziyyət çəkmə. Ancaq dediyindən dönmədi. Mənə bərk-bərk tapşırdı ki, saat

9-da onlarda olum.

Yolda benzin dolduranda istədim ki, pulunu özüm verim. Məni möhkəm danladı:

– Ayıb döymü, mən dura-dura sən pul çıxarırsan.

Dedim ki, sən pensiyaya baxırsan, mən heç olmasa hökümətdən qəpik-quruş alıram.

Gülə-gülə dedi:

– Camış nə qədər arıqlasa da, yenə dərisi bir dəvənin yüküdür. Çobanoğlu pensiyaçı olsa da yenə beş-on ailəni saxlamağa gücü çatar.

Yol boyu hiss edirdim ki, bərk ağrıyır, ancaq bunu büruzə vermək istəmirdi. Gəncəyə çatdıq, həmin adamla görüşdük. O, Çobanoğlunu bərk məzəmmətlədi ki, bu boyda yolu niyə əziyyət çəkib gəlibsən, bircə icmarıcın bəs idi. Beləliklə, mənim çətin işim də onun sayəsində asanlıqla həll olundu.

Geri qayıdanbaş Daşkəsən yolunda maşını kababxanaya sürdürüb bizə lülə kabab aldı. Ancaq özü demək olar ki, heç yemədi. Bax belə bir insan idi rəhmətlik Məhəmməd Çobanoğlu.

Ömrünün son illəri canı nə qədər ağrısa da bu cür xeyirxah əməllərindən əl çəkmirdi. Valehlə Vidadi üzləri kəsib ona bir söz deyə bilmədiklərindən bacıları Gülxanıma, böyük qardaşları Vahidə və analarına gileylənirdilər ki, kişi özünü çox üzür, istirahətinə heç fikir vermir.

Bir dəfə vaxtilə atalarından yuxarılara anonim məktublar yazmış, onu hər dəfə xeyli xərcə salmış bir adamın işinin dalınca getməsi onları lap hövsələdən çıxardı. Övladları arasında həmişə öz sakit təbiəti, təmkinliyi ilə seçilən

Vahid bu dəfə dözəmmədi:

– Ay ata, axı bunlar bilməsələr də mən bilirəm ki, o adamın sənə çox pisliyi dəyib. Sən də xəstə-xəstə yanına düşüb işini düzəldirsən.

Həmişəki təbəssümü ilə oğlanlarının qınaqlarına belə cavab verdi:

– Musa peyğəmbərə bir nəfər çox pisliklər edirmiş. Onun hər pisliyinin qarşılığında o həmin adama yaxşılıq edirmiş. Bu onun yaxınlarını çox əsəbləşdirir. Ona görə də bir gün yığışıb ona deyirlər ki, sən nə cür insansan. O adam sənə pislik etməkdən əl çəkmir. Sənsə ona hey yaxşılıq edirsən. Müdrik peyğəmbər onlara gülə-gülə cavab verir ki, o adam əgər pisliyindən əl çəkmirsə mən niyə yaxşılığımdan əl çəkməliyəm? Mənim balalarım, atalar deyib ki, yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir. Sizə də tövsiyyəm budur ki, həyatda ər kişilər olasınız. Kimliyindən asılı olmayaraq əgər kimsə sizi kişi bilib üstünüzə kömək üçün gəlibsə, onu naümid yola salmayın. Allah özü göydən baxır. Etdiyiniz hər bir yaxşı əməlin əvəzini böyük yaradan bir gün sizə qaytaracaqdır.

O içindəki ağrılara mərdliklə dözür, evdəkilərdən gizləməyə çalışırdı. Ancaq nə çəkdiyini ömür-gün yoldaşı Bülqeyis xanımdan gizləyə bilmirdi. Gecələr ağrılar güc gələndə canını dişinə sıxır, oğlunu, gəlinini yuxudan etmək istəmirdi. O, ağrıdığı anlarda belə doğmalarının, yaxınlarının, övladlarının acı çəkməsini, narahat olmasını, şirin yuxularına haram qatılmasını istəmirdi.

Arabir qudası Fərman müəllim gələndə bir az eyni-gö-

zü açılırdı. Bu çox şirin bir qudalıq idi. Oğlanları Valehlə Vidadi Fərman müəllimin qızları Xalidə və Mahirə ilə ailə qurmuşdular. Gəlinlərindən çox razı idi. Ona görə də gəlinlərinin atası Fərman müəllimin hər gəlişi onunçün toy-bayram idi.

İlk qudası İmran Qurbanov arabir zarafatla deyirdi:

– Ay quda, deyəsən Fərman qudanı qudalarının hamsından çox istəyirsən?

– Yox, ay İmran, hamınız – sən də, Zirəddin müəllim də mənimçün əzizsiniz. Axı səninlə biz həm də əmoğluyuq. Sadəcə Fərman müəllimin ibrətamiz söhbətləri mənə ləzzət edir. Sizin hərənizin öz yeri var.

Son vaxtlar Fərman müəllim onu yoxlamağa tez-tez gəlirdi. O, ömür-gün yoldaşı Səkinə müəllimi təzəcə itirmişdi. Ona görə də qızlarına daha çox bağlanmışdı. Fərman müəllim qohumcanlı, övladsevər bir insan idi. Övladlarının hamısına ali təhsil vermişdi. Böyük qızı Svetlana, oğlanları Mehman və Aydın həkim idilər. Xalidə ilə Mahirə müəllimə işləyirdilər. Ona görə də Çobanoğlu yaxşı bilirdi ki, bir şey olsa, ondan sonra övladları ağsaqqalsız qalmayacaqdır. Fərman müəllim bu ailənin həm yaxın qohumu, həm də dostu idi.

Fərman müəllim arabir İsa müəllimlə bərabər gəlirdi. Şair İsa Cavadoğlu ilə uzun illərdi qonşu idilər. Saz, söz aşiqi Çobanoğlu onların hər gəlişindən sonra sanki rahatlaşırdı. Hər ikisi ədəbiyyat bilicisi, şeir xiridarı idilər. Onu tez-tez müayinə edən Mehman və Aydın deyirdilər ki, ay Məhəmməd əmi, sənin ən yaxşı həkimin elə bu müəllimlərdir. Bizim dərmanlarımızdan çox onların söhbətlərinin

sənə xeyri dəyir.

Son mənzilə yolculuğa başladığını tez-tez hiss edirdi. İndi oğlu Saleh tez-tez yuxusuna girirdi. Bəzən yuxuda oğluna qonaq gedir, çoxdan itirdikləri əzizləri ilə görüşürdü. Hiss edirdi ki, bu acılı, şirinli dünya onunçün nə qədər əziz olsa da yenə ora-axirət dünyasına tələsir. İndi yuxusunda tez-tez o dünyanın insanları ilə təmasda olur, onların adlarını sayıqlayırdı. Övladları, gəlinləri gecələr onu tək buraxmır, başı üstündə keşik çəkirdilər.

Ailə 2000-ci ilin gəlişini birlikdə qeyd etdi. Nəvələrin səs-küyü şenliyi başına götürmüşdü. Hava soyuq olduğundan Məhəmməd üzünü həyat yoldaşına tutdu:

– Hava soyuqdur, birdən balacalar naxoşlayar.

– A kişi, sən onların dərdini çəkmə, əyinləri qalındır.

Bir azdan Vidadinin bişirdiyi kabab süfrəyə gətirildi. Vahid atasının ən çox sevdiyi tikələrdən onun qabağına qoydu:

– Neçə gündür bir əməlli-başlı çörək yemirsən.

Sanki boğazı tikilmişdi. Ancaq evdəki bayram əhval-ruhiyəsini pozmamaq üçün bir tikə götürüb dedi:

– Mənə baxmayın, rahat çörəyinizi yeyin. Kababı isti-isti yeməsən ləzzəti olmaz. Ay Vahid, içkiniz yoxdurmu? Gətirin, bəlkə mən də sizinlə bir qədəh vurdum.

Vidadi bir şüşə konyak gətirdi. Bu konyak bəlkə də 20 ildən çox idi onlarda saxlanırdı. Fransız konyakı idi. Kurortda olanda onu Məhəmməd Çobanoğluna hansısa rayonda raykomun birinci katibi işləyən bir kurort yoldaşı bağışlamışdı. O da həmin katibə söz vermişdi ki, bu konyakı o, Tovuza qonaq gələndə açacaq. Həmin qonaq isə

heç vaxt Tovuza gələsi olmadı. Kim bilir yaşayırdı, yoxsa yox?

O, konyakı görəndə gülümsündü:

– A bala, bu konyakı hələ saxlayırsınızmı? Yəqin Valehin bundan xəbəri olmayıb, yoxsa o, bu vaxta qədər qalmazdı, – deyə ortancıl oğluna sataşdı.

Valeh yeyib-içən, xərcləyən idi. Son tikəsini də dostuna verməyə hazır idi. Uzun illər böyük bir zavodda baş şərabçı işləsə də atasının köməyi ilə tikdiyi evdən başqa heç nəyi yox idi. Atasının bu zarafatından, xoş ovqatından Valeh də şadlandı və zarafata zarafatla cavab verdi:

– Mən Vidadi ha deyiləm bir konyakı 20 il saxlayım ki, kimsə gəlib onu içəcək. Görürsünüzmü, onu içmək yenə mənə qismət oldu. Allah qartalın yemini yuvasında yetirir.

Bu xoş zaraftlaşmadan hamının eyni-gözü açıldı. Məhəmməd kişi sanki bir az gümrahlaşmışdı. Öz əli ilə nəvələrini yedizdirir, onların iştahla yeməsindən ləzzət alırdı.

Əllərinin əsməsini övladları hiss etməsin deyə özünü möhkəm saxlayırdı, rumkanı möhkəm ovuclayırdı. İlk sağlığı özü dedi:

– Mənim balalarım, bu həyatda 70 il ömür sürdüm. Heç kimə mərdimazarlıq etmədim, bir kimsənin çəpərinə daş atmadım. Elə etdim ki, mənim övladlarım olduğunuz üçün başınızı dik tutasınız, utanmayasınız. Bir gün bu dünyadan hamı köçəcək, o cümlədən mən də. Vəsiyyət yüngüllükdür. Mənim sizə son vəsiyyətim budur ki, sonuna qədər bir-birinizə mehriban olasınız, son tikəni bərabər bölәsiniz. İndisə qədəhlərinizi götürün, qarşıdan gələn yeni ilin sağlığına içək. Arzu edək ki, 2000-ci il həm sizin, həm də

bütün Azərbaycan xalqı üçün uğurlu olsun.

Yarımçıq qədəhini sonacan içdi. Canına ılıq bir istilik keçdi. Sanki bayaqdan içini gəmirən ağrılar bir az azaldı. Onun bu axşamkı əhval-ruhiyyəsi hamının kefini açmışdı. Elə bil o heç bu səhərki xəstə adam deyildi. Gecə saat 12-də son qədəhini vuruşdurub hərə öz evinə getdi. Ancaq həmin gecə heç kim bilmirdi ki, bu evin ağsaqqalı ilə onların keçirdiy son yeni il gecəsidir.

Gecə ağrıları təzədən başladı. Bütün günü ayaq üstə olmuş, bu günkü gecənin əziyyətini çəkmiş ömür-gün yoldaşını oyatmağa qıymadı. Düşüncələr, xəyallar onu çox-çox uzaqlara, qaynı Məhəmmədin qabağını kəsib köbəkkəsməsinin başqasına qismət olmasına yol verməyəcəyini söylədiyi çağlara apardı. Xaraktercə yumşaq xasiyyətli, kövrək adam olan qaynı bu əhvalatı bəlkə sonralar yüz dəfə danışmış, gözlərindən yaş gələnəcən gülmüşdü. Övladlarının bir-bir dünyaya gəlişi, ayaq tutub yerimələri, dil açmaları, böyümələri, ailə qurmaları kino lenti kimi gözləri önünə gəlir, onu sanki bir az ovundururdu.

– İnsan ömrü neçə də qısadır, – deyə düşündü. Yenicə qayğılardan azad olub dərin nəfəs alırsan ki, əzrayıl başının üstünü kəsdirir. Nəvələrinin böyüməsini, cəmiyyət içərisinə çıxa bilmələrini doyunca seyr edə bilmirsən. Həyatı boyu yaxşı ata, sədaqətli ər, elinə, obasına gərəkli insan kimi yaşadı. Qohum-əqrəbası üçün əlindən gələni etdi. Gecəsini gündüzə qatıb çalışdı. Çalışdı ki, uşaqlıqda özü çəkdiyi korluqları balaları çəkməsin. Hər birini ayrıca ev-eşik, iş-güc sahibi etdi. Anam dediyi Gülxanımı ən yaxşı cehizlə gəlin köçürdü. Kürəkəni Ramizi oğlanlarından

seçmədi. Hətta bəzən oğlu Valeh zarafata salıb deyirdi ki, sən Ramizi bizdən çox istəyirsən. O, isə halını pozmayaraq oğluna eyni zarafatla cavab verirdi:

– Elə bilirsən Fərman müəllim səni çox istəmir. İnanmırsan get özündən soruş. Yaxşı kürəkən yaxşı oğul deməkdir.

Sağ olsun kürəkənini, heç vaxt ona qarşı hörmətsizlik etmədi. Onu özünə qaynata yox, ata bildi. Ağrıyan vaxtlarında övladları, gəlinləri ilə bərabər yastığının qırağından getmədi.

İndi əcəl qapının ağzını kəsdirəndə həyat ona yaman şirin gəlmişdi. Son gününün yaxınlaşdığını bilirdi. Ancaq bu son saniyyələrin nə vaxt, harda bitəcəyini bilmirdi. Arada özünü yaxşı hiss edəndə içində bir ümid işığı parlayırdı. Vahid bu yaxınlarda demişdi ki, İranda güclü həkimlər var, havalar bir az isinsin səni İrana aparacağam. Ancaq havalar hələ çox soyuq idi. Yatdığı otaq nə qədər isti olsa da yenə üşüyürdü.

Nəhayət, yanvarın 16-da yolçuluğunun bu dünyada sona çatdığını hiss etdi. Oğlu Vidadiyə bərbər gətirdib təraş olundu, əlini yanına qoyulmuş pencəyinin cibinə salıb xeyli pul çıxarıb bərbərin xalatının cibinə soxdu. O isə almaq istəməyib dedi:

– Məhəmməd əmi, mənə o qədər pul vermisən ki, ömrümün axırına qədər sənə qulluq etsəm də azdır.

Əli ilə işarə edib onu yola saldı. Yadına qəribə bir əhvalat düşdü. Bir dəfə yenə bərbərə getmişdi. Bərbər onun başını, üzünü qırxdıqdan sonra çıxarıb bir onluq tulladı və yanındakı yoldaşının da pulunu verdi.

Yaşca cavan olan həmin adam bir bərbərə, bir də qırmızı onluğa baxıb dözəmmədi:

– Ay Məhəmməd əmi, belə getsə sən bu dəlləkləri pis öyrədəcəksən. Mən başımı, üzümü qırxdırıb bir manat verirəm.

Hazırcavab bərbər üzünü ona tutub yarızarafat, yarı ciddi şəkildə dedi:

– Sənin başın bir manatlıq başdır. Məhəmməd əminin başı isə on qat qiymətlidir.

Birdən-birə yadına düşən bu əhvalatdan dodaqları qaçdı. Onun bu halını görən Bülqeyis sevincək oldu:

– A kişi,deyəsən bu gün bir az eynin açıqdır. Dur bir az çaydan-çörəkdən ye.

– Ürəyim uşaqları istəyir, xəbər elə hamısı gəlsin, nəvələrimi də gətirsinlər.

Yenə bütün ailə bir yerə yığıldı. Ataları uzanmışdı. Göz dolusu balalarına baxır, hər birini yaddaşına köçürüb özü ilə o biri dünyaya aparmaq istəyirdi. İki dünyanın ayrıcında qalmışdı. Bu tərəfdəkilər onu buraxmaq istəmir,o birilər isə onu öz yanlarına səsləyirdilər. Nitqi tutulsa da hər şeyi görür, hər sözü eşidirdi. Son gücünü topladı, ölümə meydan oxuyurmuş kimi pıçıldadı:

– Əlvida, gözəl dünya, əlvida gözəl balalarım.

Bülqeyis xanımın tutduğu əlləri birdən bum-buz oldu. Dünya görmüş qadın hər şeyi başa düşdü və toxtalıqla söylədi:

– Atanız ömrünü sizə bağışladı. Durun hazırlığınızı görün. Gedin molla gətirin.

Özü isə axan göz yaşları ilə ömür-gün yoldaşının bir

cüt yaş giləl追ənmiş gözlərini sığadı. Beləcə nəinki təkcə Şıxməmmədli nəslinin, eləcə də bütün Əyyublunun gözəl bir ağsaqqalı bu fani dünyaya son köçünü etdi.

Onun dəfninə böyük bir izdaham yığışmışdı. Nəinki təkcə kənd camaatı, respublikanın hər yerindən eşidib-bilən dost-tanış, qohum-əqraba onu son mənzilə yola salmağa gəlmişdi. O, bu insanların sağlığında onlardan öz halallığını almışdı. Ona görə də molla deyəndə ki, ay camaat, qohumluq, qonşuluq, dostluq haqqınızı halla edin. Hamı ürəkdən, bir ağızdan dedi:

– Halal olsun!

Bu isə hər adama qismət olmur. Düzdür böyük ürəkli camaatımız öləndə, bəzilərinə düşməsə də, yenə hamıya halallıq verir. Bəlkə də insanların o biri dünyaya aparmaq üçün ən ehtiyacları olduqları şey elə bu aldıqları halallıqdır. Ancaq heç kim bilmir ki, qazanmadığı bu halallığın ona axirətdə bir faydası olacaqmı? Ancaq hamı bilirdi ki, Məhəmməd Çobanoğlu özü ilə halal halallıq aparır.

O, müxtəlif vəzifələrdə çalışdı, fabrik direktorluğunacan yüksəldi. Ancaq o bütün mahalda, bölgədə çörəkçi Məhəmməd Çobanoğlu kimi tanındı. Çünki, o ən müqəddəs nemət olan çörəyə həmişə hörmətlə yanaşdı, heç vaxt ona haram qatmadı. Ona görə də halal çörəyi bol oldu. Məhz buna görə də tanrı onun başından tökdü. Boş təknəsini doldurdu. Evi daima ruzi-bərəkətli oldu. Kəndimizdə elə bir ailə olmadı ki, onun kürəsindən çıxan halal çörəklərdən dadmasın. Onun çörəkxanasına hamı son ümid yeri kimi baxdı. Heç vaxt da bu ümidləri boşa çıxmadı. Ona görə də onun son yolçuluğunda hamı ürəkdən, bir ağızdan,

düşünmədən dedi:

– Halal olsun!

P.S. Əziz oxucum, kəndimizin, elimizin daha gözəl bir ağsaqqalı haqqında yazdığım bu qeydləri tamamlamaq istəyirəm. Çalışdım ki, digər qəhrəmanlarım-Yusif Məmmədov, İsa Cavadoğlu, Hüseyn Dünyamalıyev, Fərman Məmmədov kimi Məhəmməd Çobanoğlunun da mənalı ömrünün çoxlarına məlum olmayan anlarım canlandırım.

Bilmirəm buna nə dərəcə nail oldum? Bunu siz məndən yaxşı biləcəksiniz. İndisə kitabın ikinci bölümünü sizin – onun yaxın dostlarının, qohumlarının, övladlarının, nəvələrinin ixtiyarına verirəm. Söz sizindir.

***Müəllif: Ramiz Çıraqlı***
*01.10.2016*



# NƏ YAXŞI Kİ, ŞİRİN XATİRƏLƏR VAR



# MƏNİM ƏZİZ QONŞUM



Biz onunla qonşu idik. Təkcə qonşumu? Yox, həm də saqqaldaş, həmsöhbət, həmdərd idik. Onun uşaqlığı Osmanlı ilə Cırdaxanın ortasında məskunlaşmış Şıxməmmədlidə, mənimki isə Osmanlıda keçmişdi. O da mənim kimi 8 illik təhsilini Cırdaxan məktəbində almışdı. Biz yaşıd idik. Uşaqlığımız bir keçmişdi. Elə uşaqlıqdan öz diribaşlığı, istiqanlılığı ilə seçilirdi. Onda hamını öz ətrafına yığmaq bacarığı vardı.

Uşaq vaxtı dərsdən sonra bir yerə yığışar, dava-dava oynayardıq. Məhəmməd bu oyunlarda heç vaxt deməzdi ki, mən kiminləyəm. Əksinə, meydana çıxar və deyərdi ki, kim mənimlədir. Cavanlığın şirin, əsrarəngiz çağlarını da birgə yaşamışıq. Rəhmətlik şeir həvəskarı idi. Məclis adamı idi. O, olan məclislər həmişə çox şən keçərdi. Çalışardı ki, süfrədəki ən yaxşı tikəni yoldaşına versin. Bu da onu hamının sevimlisinə çevirmişdi.

Rəhmətlik çox əliaçıq insan idi. Heç vaxt yanındakıların əllərini ciblərinə soxmalarına imkan verməzdi. Tale elə gətirdiki biz Osmanlıdan, onlar isə Şıxməmmədlidən təzə plana köçəndə qonşu olduq. Mən onda yeni bir şey kəşf etdim. O, yaxşı dost olduğu kimi, yaxşı da qonşu idi. Bütün qonşuların xeyir-şərində qabağa düşər, çatışmayan nə

varsa bir göz qırpımında həll edərdi.

Açığını deyim ki, belə şeylərdə o bütün qonşulardan təşkilatçı idi. O, çox bağlı qapıları açmış, illərlə küsülü qalan qudaları barışdırmışdır. Hansısa bir elçilik məsələsi çətinə düşəndə Məhəmməd Çobanoğlu qabağa düşər, şirin dillə, hikmətli məsəllərlə yola gəlməyən qız atasını yola gətirər, iki sevən gənci bir-birinə qovuşdurardı.

Mən deyərdim ki, onda Hatəm səxavəti vardı. Qapısına gələni heç vaxt əliboş qaytarmazdı. Özündə olmasa da bir başqasından borc alıb, həmin adamı yola salardı. Övladlarının toyunda böyük mağar qurardı. Varlı-kasıb, vəzifəli-vəzifəsiz hamıyı eyni hörmət-izzətlə toya dəvət edərdi. Məhz bu xüsusiyyətlərinə görə də heç kim onun var-dövlətinə qibtə ilə baxmazdı. Hamı alxış oxuyaraq deyərdi:- Allah başından töksün!

O, həm də gözəl ailə başçısı idi. Tərbiyyəli övladları gözümün qabağında böyüyüb, ailə qurublar. Onlar da ataları kimi canıyanımcıl, mehriban, xoşxasiyyətdirlər. Məhəmməddə elə bir xoş aura vardı ki, onunla həmsöhbət olanda bütün problemləri unudur, hər şeyə ümidlə baxırdıq.

Hayıf ki, əcəl onu tez apardı. Çəkdiyi oğul dağı onun aslan ürəyini didib-parçaladı. Ömrünün son günlərində rəhmətlik Fərman Məmmədovla tez-tez ona baş çəkirdik. Onlar həm də şirin quda idilər. Fərman müəllimin qızları Xalidə və Mahirə Məhəmmədin gəlinləri idi. Mən şahidi oldum ki, onun hər üç gəlini ağır məqamlarda ona həm gəlin, həm də qız oldular. Hər üçünün üzləri ağ olsun. Məncə, Məhəmməd Çobanoğlunun ən böyük xoşbəxtliyi onu ürəkdən sevən ailəsində idi. Bu isə hər kəsə qismət olmur.

Biz, bəzən Fərman müəllimlə gecə keçənəcən onun yanında olurduq. Bizi buraxmaq istəmirdi. Fərman müəllimlə mən bəzən özümüzdən ixtiyarsız ədəbiyyatdan, şeir-sənətdən danışırdıq. Bu isə onu çox rahatladırdı. Ayrılanda hey deyirdi ki, allah sizdən razı olsun, bütün ağrı-acılarım sanki, yüngülləşdi.

Fərman müəllimlə biz erkən yaşlarımızdan ata çörəyi yeməmişdik. Çətinliklə böyümüşdük. O, isə atalı böyümüşdü. Ona görə də biz bəzən hisslərə qapılıb öz uşaqlığımıza dönəndə onun gözləri yaşarırdı. Bu isə onun necə incə qəlbli bir insan olduğunu bir daha sübut edirdi.

O, 70 yaşında aramızdan köçdü. Şəxsən mən uşaqlıq yoldaşımı, gənclik dostumu və yaxşı qonşumu itirdiyim üçün çox üzüldüm. Ona olan vəfa borcumu isə içimdən gələn bir şeirlə ödəmək istədim. Bu, bəlkə də bir şeir yox, vida nəğməsi, vida ağısı idi.

**Ay Məhəmməd Çobanoğlu**

Gəncliyimiz bir keçibdi,
Ay Məhəmməd Çobanoğlu!
Düz yarım əsr keçibdi,
Ay Məhəmməd Çobanoğlu!

Toxunmadın sən heç kəsə,
Yollar açdın yaxın kəsə.
Yadda qalar yaxşı nəsə,
Ay Məhəmməd Çobanoğlu!

Oldun eldə adlı-sanlı,
El qeyrətli, qohum canlı,
Həm hörmətli, xoş ünvanlı,
Ay Məhəmməd Çobanoğlu!

Sən həyatı duyub getdin,
Yaxşı bir ad qoyub getdin,
Geniş ünvan yayıb getdin,
Ay Məhəmməd Çobanoğlu!

Öz xeyirxah əməlinlə,
Adın düşdü dildən-dilə.
Bilinəcək yerin hələ,
Ay Məhəmməd Çobanoğlu!

Bülqeyisi dərd əyməsin,
Gülxanım çox qəm yeməsin.
Valeh, Vidadi səbr eyləsin,
Ay Məhəmməd Çobanoğlu!

Özün kimi səmimidir
Gözəl nəslin davam edir,
Vahid qəlbləri ram edir,
Ay Məhəmməd Çobanoğlu!

İsa gördü belə hörmət
Hər adama olmur qismət.
Ellər söylədi: “Min rəhmət”,
Ay Məhəmməd Çobanoğlu!

*İsa Cavadoğlu*
*08.03.2000*

# AĞIR TAXTALI KİŞİ



Kəndimizdə sözü ötən, qan barışdıran kişilər çox olub və yenə də var. El arasında havayı deməyiblər ki, kişiyə Əyyubluya get. Bu sözdə dərin bir məna kodlaşdırılıb. Kəndimizdə elə ağsaqqallar olub ki, onları qonşu kəndlərə qan barışdırmağa aparıblar. Onlardan bir neçəsinin adını çəkmək istəyirəm: – Hacı Məhəmməd, oğlu Abbasəli, Qasım ağa, Dəmirçi Sadıx, Rüstəm kişi, Sarı Həmid, Qara Qurban, Zeynalov Hüseyn, Nadir müəllim, Yusif Məmmədov, İsa Cavadoğlu, Fərman müəllim və adını çəkmədiyim yüzlərcə eloğlumuzu bu siyahıya əlavə etmək olar.

Mənim tanıdığım, bildiyim, həmsöhbət olduğum belə insanlardan biri də rəhmətlik Məhəmməd Çobanoğlu idi. Onu uzun illərdi tanıyırdım. Çox yoldaşlığım olub. Çox müşkülə düşmüş məsələləri birgə həll etmişik. Onu başqalarından fərqləndirən cəhətlərdən biri, bəlkə də ən əsası onun insanlara yanaşmaq tərzi idi. Rəhmətlik, sanki insan sərrafı idi. Kiminlə nə cür danışacağını bircə baxışdaca müəyyən edə bilirdi.

O qədər xoşxasiyyət, istiqanlı, şirindilli insan idi ki, sanki ilanı da ovsunlayıb yuvasından çıxara bilərdi. İnsanın qanı nə qədər qara olsa da onunla beş dəqiqə bir yerdə olduqdan sonra bütün dərdini unudurdu. Duzlu, məzəli

söhbətləri, şirin zarafatları ilə məclisə xüsusi bir ahəng gətirirdi.

O, kəndimizdə açdığı çörək sexində bişirdiyi çörəklərlə nəinki özünü, həm də kəndimizi bütün ölkədə tanıtdı. O çörəklərin şöhrəti qısa bir müddətdə hər yana yayıldı. Hamı məclis süfrələrində məhz onun çörəklərini görmək istəyirdi. Onun kürələri çox ac qarınları doyuzdurdu. Xüsusilə də 90-cı illərdə. Çörəyin qıt olduğu həmin dövrlərdə camaat çox çətinlik çəkirdi. Elə ailələr vardı ki, mağazadan çörək ala bilmirdi. Un isə siyahı ilə verilirdi. Külfəti böyük ailələri isə verilən un görmürdü. Onlar da məcbur olub Məhəmməd kişinin çörək sexinə üz tuturdular. O, çətin anlarda kiməsə yardım etmək olduqca çətin idi. Ancaq bu çətinliklərə baxmayaraq o, heç kimi əliboş yola salmazdı.

Öz nüfuzu və hörməti sayəsində normadan əlavə gətirdiyi unu belə ailələrə verirdi. Məhz bu xüsusiyyətlərinə görə onun camaat arasında, xüsusilə sadə insanlar arasında böyük hörməti vardı. Halbuki, kəndimizdə ondan da varlı və imkanlı insanlar vardı. Sadəcə o böyük ürəkli insan son tikəsini başqaları ilə bölməyi bacarırdı.

Məhəmməd Çobanoğlu aramızdan tez getsə də onun əziz xatirəsi daima qəlbimizdə yaşayacaq, onun adı bütün məclislərdə yaxşı insanlar tərəfindən xatırlanacaqdır. Allah ona rəhmət etsin! Haqq dünyasında Məhəmməd kişiyə hüzur, layiqli balalarına isə uzun ömür, cansağlığı arzulayıram.

***Lətif Namazov,***
*"Engels" sovxozunun sabiq direktoru*

# TANIDIĞIM ÇOBANOĞLU MƏHƏMMƏD



Hər dəfə Çobanoğlu Məhəmməd haqqında düşünəndə yadıma hörmətli şairimiz Famil Mehdinin bu misraları düşür:

Nə yaxşı ki, çoxdur yaxşı adamlar,
Bölür bir dünyaya sevinci çatır.
Həyatın mənası, ömrün mənası,
Yaxşı adamların çoxluğundadır.

Birmənalı şəkildə demək olar ki, Çobanoğlu Məhəmməd yaxşı adamların cərgəsindəydi və ömrünün sonuna qədər də yaxşı adını ləyaqətlə qorudu. Bu gün onun xatirəsi ürəklərdə yaşayır. El-oba onu həmişə ehtiramla yad edir.

Mən, Məhəmməd əmini yetmişinci illərdən tanıyırdım. Ağır taxtalı, deyib-gülən, hamıya qarşı diqqətli bir insan idi. O, vaxtlar idi ki, Çobanoğlu Məhəmmədin çörəyinin sorağı bütün Azərbaycana yayılmışdı.

Mən onunla necə tanış oldum?Atamın bacısı xeyli vaxt idi ki, rəhmətə getmişdi. Onun beş uşağı vardı. Axırıncı uşaq dünyaya gələndə bibim haqq dünyasına qovuşdu. Həyat yoldaşı Ədil dayının ondan sonra üzünü gülən görmədim. Atam, əmilərim nə qədər deyirdilərsə o, yenidən evlənməyə razılıq vermirdi. Günlərin bir günü, atam onu evimizə dəvət etdi. Xeyli söhbət etdilər. Çay-çörək hazırlan-

dı. Yedilər, içdilər. Sonra Ədil dayı çıxıb getdi.

Aradan bir müddət keçəndən sonra bildik ki, atam onu evlənməyə razı salıb.

Beləcə, Ədil dayını evləndirdilər. Əyyublu kəndindən Feryad adlı bir qadınla. Məlum oldu ki, həmin xanım Əyyubluda adla tanınan Çobanoğlu Məhəmmədin qohumudur.

Atam deyirdi ki, a bala, Əyyubluda adlı-sanlı çox kişilər var. Onlarla dostluq etmək ilk növbədə sədaqətli və düzgün olmağı tələb edir. O, həmişə Fərman Məmmədovun, Seyid Ağamirin, İsa İsayevin, Kamil və Musa Dəmirovların, Böyükkişi Bədirovun, mühasib Yusif Məmmədovun və qohumumuz Çobanoğlu Məhəmmədin adlarını hörmətlə çəkirdi.

Tale elə gətirdi ki, Feryad xalanın bir qız uşağı dünyaya gəldi. Adını Nazilə qoydular.

Feryad xala bibim uşaqları üçün ana, bizim üçün isə bibi əvəzi oldu.

Ədil dayı da, Feryad bibi də rəhmətə gediblər. Hər ikisinə və onların izdivacına səbəbkar olmuş atama və Çobanoğlu Məhəmmədə Allahdan rəhmət diləyirəm.

İndi Nazilə əmim oğlu Xankişinin həyat yoldaşıdır. Oğul, uşaq sahibidirlər.

**Atamın xatirələrindən**: Bir dəfə Bakıdan gələndə təsadüfən Çobanoğlu Məhəmmədlə avtovağzalda görüşdük. O, vaxtlar idi ki, onun çörək sexinin məhsulu Əyyubludan aparılıb Bakıda satılırdı. Şöhrəti bütün Azərbaycana yayılmışdı. İllərin dostu, yaxını kimi qucaqlaşıb, bir-birimizi bağrımıza basdıq. Avtobusun yola düşməsinə xeyli var idi. Dedi ki, çay içək, çörək yeyək. Həm də görüm təzə nəyin var?

Süfrə arxasında əyləşdik. Dedi ki, müəllim o milisonerə və bakılıya dediklərini danış, iştahımız açılsın.

## Nə etmisən ki, on manat istəyirsən?

Bir gün müəllim yoldaşlarımla Bakıya kartof satmağa gedirdik. Kürdəmirdə milis postunda maşını saxladılar. Sürücü nə qədər elədisə milis üç manata yaxın durmadı. Gəlib bizə dedi ki, bəs kömək edin, on manat verməliyik.

Mən dedim:

– Sən tələsmə, bu saat onun haqqını özüm verəcəm.

Milisə yaxınlaşıb:

– Ay oğul, niyə qoymursan ki, aparıb xarab olmamış malımızı sataq? Üç manata niyə yaxın dumursan?

Milis:

– Az verir də.

Mən:

– Ay oğul, altı aydı kartofun başına dolanıram. Alasını çəkmişəm, dibini doldurmuşam, suvarmışam. Hələ mənə bir manat verən olmayıb, sən nə etmisən ki, on manat istəyirsən?

Polis üzrxahlıq edib bizi yola saldı.

## Qırxaltı ildə bu boyda yekələnmisən, altı ayda kartof nə boyda olmalıydı?

Bir gün Passaj bazarında kartof satırdıq. Ortaboylu bir nəfər piştaxtaya yaxınlaşdı. Kartofa baxıb dedi:

– Bunlar yaman xırdadır.

Dedim ki, kişi neçə yaşın var?

Dedi ki, qırxaltı. Dedim ki, sən 46 ildə bu boyda yekələnmisən, altı ayda kartof nə boyda olmalıydı ki?

Həmin adam qayıtdı ki, kişi, on kiloqram çək. Cavabından xoşum gəldi.

Həmin gün Məhəmməd əmi ilə atam xeyli deyib-gülürlər. Yeyib-içəndən sonra birlikdə Tovuza yola düşürlər.

...Sonra dəfələrlə kəndimizdə xeyir-şər işlərində iştirak etdi. Gələndə əliboş gəlməzdi.

Biz də həmişə atam rayon mərkəzinə gedəndə bilirdik ki, Çobanoğlu Məhəmmədin çörəyindən gətirəcək. Çünki, həyatda ən çox sevdiyimiz anamın bişirdiyi qara unun yuxası, bir də Məhəmməd kişinin çörəyi idi.

Arada Feryad xala da Əyyubluya gedəndə mütləq o çörəkdən gətirərdi.

Daha sonra bibim oğlu Hümbət də Əyyubludan evləndi. Bir sözlə, qohumluq əlaqələri daha da genişləndi.

Mənim o kişi ilə ilk dəfə görüşüm 1983-cü ildə oldu. Onda universitetin III kurs tələbəsi idim. Arabir rayonumuza ezamiyyətə gəlirdim. Ona qədər Məhəmməd əmini məclislərdə görmüşdüm.

...Bir dəfə də yenidən Tovuzda ezamiyyətdəydim. Rayona hər gələndə ilk dəfə xalq nəzarəti komitəsinin sədri Əli Babayevlə görüşürdüm. Onu da qeyd edim ki, Əli müəllim və həyat yoldaşı Validə xanım 1948-1950-ci illərdə atamla Qazax Müəllimlər institutunda bir yerdə oxumuşdular. Ailəvi dost idik.

Qəbul otağına girəndə gördüm ki, iki-üç nəfər var. Salam verdim. Hamı salamımı aldı. Gördüm ki, ucaboylu ki-

şi mənə tanış gəldi. Diqqətlə baxdığımı görüb dedi:

– Ay oğul, mənə tanış gəlirsən. Qəribli Musa müəllimin oğlu deyilsən ki?

Dedim ki, bəli, onun oğluyam.

Yaxınlaşıb əl verdi, görüşüb öpüşdük.

Dedi ki, mən də Çobanoğlu Məhəmmədəm.

Söz ağzından çıxan kimi mən də:

– Hə, bizim Feryad xalanın qohumu.

Məhəmməd əmi:

– Bu gün heç yerə getdi yoxdu, mənim qonağım olacaqsan, – dedi.

Bu vaxt Əli müəllim qəbul otağına çıxdı. Məni görən kimi dedi:

– Qardaşoğlu, gəl görüm, nə yaxşı gəlmisən?

Dedim:-Əmi, Tovuza gəlib sizinlə görüşməmək olar?

Qolunu boynuma salıb dedi:

– Musanın oğlu belə olmalıdır, hörmətli ol.

Sonra Əli müəllim dedi:

– Gəl içəri.

Dedim ki, yox, birinci Məhəmməd əmimi qəbul edin, o bizim ağsaqqalımızdır.

Sözün açığı heç Məhəmməd əmi bu sözlərimi gözləmirdi.

Əli müəllim qayıdıb dedi ki, bizim Musanın dostları hər yerdə var. Necə məsləhətdir.

Məhəmməd əmini qəbul etdi. On, on iki dəqiqədən sonra o, otaqdan çıxdı və katibə məni içəri buraxdı. Xeyli söhbət etdik. Gəlişimin məqsədini soruşdu.

Bildirdim ki, məktəblərin yeni dərs ilinə hazırlıqla bağlı

"Azərbaycan gəncləri" qəzetinə məqalə hazırlayacam. Aidiyyatı təşkilata göstəriş verdi və zarafatla dedi:

– Qardaşım oğludu, qorxmayın ha.

Mən sağollaşıb bayıra çıxdım. Gördüm ki, Məhəmməd əmi dəhlizdə gözləyir.

Mən:

– Əmi, niyə gözləyirsiniz ki, mənim işlərim var?

Məhəmməd əmi:

– Bu gün mənimlə olacaqsan, qonağımsan, sabah o biri işlərlə məşğul olarsan.

Çarəm qalmadı. Qayıdıb yenidən otağa girib dedim ki, Əli əmi, onlara tapşır, mən kəndə gedirəm, atamgillə görüşməyə, sabah tezdən gələcəm. Məhəmməd əmim əl çəkmir.

O, təhsilin müdirinə zəng edib vəziyyəti bildirdi.

Həmin günün böyük hissəsini Məhəmməd əmi ilə keçirdim. Yedik, içdik. Olanlardan, keçənlərədn danışdıq. Atamın lətifələrindən danışdım. Nahar edəndən sonra dedi:

– Mənim Tovuz bazarında işim var, gedək bir yerdə, sonrasına baxarıq.

Tovuz bazarına gəldik. Bir mağazaya yaxınlaşdı. Satıcı onunla yüz ilin doğması kimi görüşdü.

Sakitcə qulağına nəsə dedi. Gördüm arxaya keçib əlində bir dəst kostyum geri qayıtdı və:

– Alın baxın, görün xoşunuza gəlirmi?

Məhəmməd əmi:

– Qardaş oğlu, bu sənin üçündür.

Etiraz etdim.

Məhəmməd əmi dedi ki, sən qardaşoğlusan, biz artıq

çörək kəsmişik. Bilirəm ailəniz böyükdür.Atan xeyli tələbə oxudur. Sözümdən çıxsan, əmilik qurtardı.

Satıcı da bir yandan dedi ki, müəllim, Çobanoğlu sözü yerə salınan kişi olmayıb.

Üstünə bir cüt köynək, bir cüt də ayaqqabı əlavə etdi.

Satıcı dedi ki, Çobanoğlu, ayaqqabı da mən əmisindən paydır.

Belə ürək sahibiydi Məhəmməd əmi.

Görüşümüzün sonunda məni taksi ilə kəndə yola saldı və bərk-bərk tapşırdı:

– Tovuza yolun düşəndə əminə baş çəkməyi unutma.

...Dəfələrlə görüşlərimiz oldu. Hər görüşümüz əziz bir xatirə kimi yaddaşımda əbədi həkk olunub.

Tale elə gətirdi ki, 1993-cü ildə mən Tovuza işə gəldim. Yenə də görüşdük. Əziz bir əmi, yaxın dost kimi.

Məhəmməd əmi həmişə deyərdi:

– Camaatın evində bir ərizə yazan tapılmır, Musa müəllimin bir jurnalist ordusu var.

...Torpaqlarımızın müdafiəsinə də öz kömək əlini uzatdı. Əyyubluda hərbi paltarlar istehsal edən tikiş fabriki açdı. Neçə-neçə qız-gəlin bu fabrikdə ailəsi üçün çörək qazandı.

...Məhəmməd əmi haqq dünyasına qovuşdu. İndi onun övladları Vahid, Vidadi, Valehlə atalarımızdan bizə miras qalan dostluğu atalarımızın adına layiq şəkildə davam etdiririk.

Ruhun şad olsun, Məhəmməd əmi!

Bu şeiri də sizin xatirənizə böyük hörmət əlaməti olaraq yazmışam.

Bir dünyaydı onun böyük ürəyi,
Xoşbəxtlikdi, səadətdi diləyi.
Halal idi bol süfrəsi, çörəyi,
Nemətiydi Çobanoğlu Məhəmməd.

Yaxşılıq peşəydi daim ər kəsə,
Əməlləri, işi, gücü zər kəsə.
Qapıları açığıydı hər kəsə,
Hörmətiydi Çobanoğlu Məhəmməd.

Sirlər vardı, yaddaşında, yadında,
Ümidiydi yaxının da, yadın da.
Əməli saf, əziz dostlar adında
Sərvətiydi Çobanoğlu Məhəmməd.

Saflıq, düzlük onun könlünə yardı,
Qəlbi çiçək idi, eşqi bahardı.
Şahdağıydı, Murğuzuydu, Qoşqardı,
Qüdrətiydi Çobanoğlu Məhəmməd.

Görməzdin bir kəsin qəlbinə dəyə,
Sığmırdı nə yerə, nə də ki, göyə.
Səsləyirdi hər bir kəsi birliyə,
Ülfətiydi Çobanoğlu Məhəmməd!

Düz qurğuydu keçmişinnən əzəli,
Həyan oldu, ocaq əli, köz əli.
Danışardı şirin, duzlu, məzəli,
Söhbətiydi Çobanoğlu Məhəmməd.

Yamanların daim üstə çökərdi,
Əyrilərin gözlərini tökərdi.
El təsibin eloğlu tək çəkərdi,
Qeyrətiydi Çobanoğlu Məhəmməd.

Əli işdə oldu, qurdu, yaratdı,
Neçə imkansızın hoyuna çatdı,
Çox sağalmaz yaraları sağaltdı,
Şəfqətiydi Çobanoğlu Məhəmməd.

Bağlı idi bir Allaha, imana,
Söz deməzdi, danışmazdı gümana.
Saf amalı əziz, doğma xalqına,
Xidmətiydi Çobanoğlu Məhəmməd.

Düz böyütdü oğulları, qızları,
Gül bitirdi gözəl gələn yazları.
Mən hazıram, gözləyirəm düz barı,
Şöhrətiydi Çobanoğlu Məhəmməd.

Mərdlər ilə daim verib döş-döşə,
Əl qoyardı halal işə, düz işə.
Ay Qəribli, qazandığı həmişə,
Rəhmətliydi Çobanoğlu Məhəmməd.

***Çingiz Qəribli***
*Tovuz 9 oktyabr 2016-ci il*

# O HƏM DƏ YAXŞI QUDA İDİ



Kəndimizdə çox az ev tapılar ki,mən baş çəkməyim. Bu, mənim həkimlik peşəmlə baglıdır. Ona görə də insanları yaxşı tanıyıram.Həmişə kəndimizi kənarda hörmətə mindirən, adına şöhrət gətirən dagdanagır kişilərlə, ər qeyrətli ağbirçəklərimizlə fəxr etmişəm,qürur duymuşam.

Belə insanlardan biri də Çobanoğlu Məhəmməd idi. Gənclik vaxtlarında atamla möhkəm dost olublar. Biz üşaq olanda tez-tez atamla bizə qonaq gələn Məhəmməd əminin xoş,nurlu çöhrəsi, şirin, bal kimi dadlı dili bizim üşaq qəlblərimizi ovsunlayırdı. Qəribəydi ki, atam Fərman müəllimlə Məhəmməd əmi öz xasiyyətlərinə görə tamam fərqli insanlar idilər. Atam ciddi,bir sözü iki dəfə təkrarlamağı xoşlamayan,tələbkar,sözü kəsə deyən,Məhəmməd əmi isə olduqca qılıqlı,mehriban,fikrini atalar sözləri, zərb məsəllərlə bəzəyib çatdıran,heç vaxt hirslənməyən insan idi.

Tale elə gətirdi ki,bu dostluq qudalıq qohumluğu ilə nəticələndi. Bacım Xalidə müəllimə Çobanoğlu Məhəmmədin ortancıl oğlu Valehlə ailə həyatı qurdu. Necə deyərlər, biz daha da qayım-qədim olduq. İki ailə arasında mehriban, şirin qudalıq başladı.

Yaxşı yadımdadır,bir axşam rəhmətliklər-Bülqeyis xala

ilə Məhəmməd əmi bizə qonaq gəlmişdilər. Sözlü adama oxşayırdılar. Ancaq mətləb üstünə gələ bilmirdilər. Anam, rəhmətlik Səkinə müəllimə süfrəyə çay gətirdi. Ancaq heç biri çaya əl uzatmırdılar. Atam axırda hövsələdən çıxdı:

– Ay qudalar, çayınız soyuyur, elə bil yad yerə gəlmisiniz.

Məhəmməd əmi qayıtdı ki, ay quda, biz şirinçay içməyə gəlmişik.

Atam təəccüblə dedi:

– Ay Məhəmməd, bir evdə şirinçayı bir dəfə içərlər, onu da içmisiniz.

– İnşallah, qismət olsa bir də içərik.

Hamımızı maraq götürmüşdü, bu ikibaşlı sözlərdən heç birimiz baş aça bilmirdik. Atam da deyəsən əsəbiləşmişdi, ancaq üzə vurmurdu:

– Ay quda, mus-mus deyincə bir yolluq mustafa de.

– Fərman müəllim, sizinlə qudalıqdan ağzımız bal daddı. Halal olsun sizə ki, Xalidə kimi tərbiyəli qız böyütmüsünüz. O, bizə həm gəlin, həmi də qız olub. İndi də Vidadinin evlənmək vaxtıdır. Bülqeyislə məsləhətləşdik ki, qudalığımızı daha da möhkəmləndirək. Bizi dağa- daşa salma, Allahın əmri, peyğəmbərin şərti ilə qızın Mahirəni oğlum Vidadiyə istəməyə gəlmişik.

Düzü, bu sözlərdən hamımız çaş-baş düşdük. Çünki, evimizdə bu barədə söz-söhbət belə olmamışdı. Atam sonbeşiyini mən deyərdim ki,dünyalar qədər sevirdi. Ali təhsil almasına baxmayaraq yenə də ona "körpəm" deyə müraciət edərdi.Bir anlıq onun baxışları ciddiləşdi:

– Quda, bir adama qazandan bir dəfə pay düşər, sən də

öz payını almısan,-dedi:-Vidadini öz övladlarımdan seçməmişəm. Ağıllı, bacarıqlı baladır. Ancaq ikibaşlı qohumluqdan heç vaxt xoşlanmamışam. Xalidə ilə Valeh bu gün xoşbəxt yaşayırlar. Tutaq ki, sabah ailə qurduqdan sonra Vidadi ilə Mahirə yola getmədilər, bəs onda iki od arasında qalan Valehlə Xalidə nə etməlidirlər?

Həmişə atama böyük hörmətlə yanaşan Məhəmməd kişi bir kəlmə də olsun artıq söz demədi.

Çaylarını yarımçıq qoyub getdilər. Düzü onların bu cür gedişləri atama pis təsir etdi. Rəhmətlik anam bir az onu məzəmmətlədi ki, gərək elə kəsə cavab verməyəydin. Ancaq atam sözündən dönmədi.

– Əmiqızı, – dedi. – Belə də elçilik olar? Bu saat hansı zəmanədir ki, qızı kiminsə qoltuğuna verəsən ki, səni ərə verirəm? Gərək onlar özləri bir-birini bəyənə, həyatın sabah onlar üçün hazırlayacağı bütün sürpizlərə hazır olalar.

Sonradan Məhəmməd əmi atamın saqqızını oğurladı. Biz yenidən quda olduq. Bu qudalıq da əvvəlki kimi uğurlu alındı.

Məhəmməd əmi ilə bağlı o qədər xatirələrim var ki, yazmaqla bitməz. Yeznəm Valeh Gəncədə tələbə idi. Məhşur Çapıq Əhməd adlanan institut müəllimi Valehi “kəsmişdi”. Onun ali məktəbdən qovulmaq təhlükəsi vardı. Məhəmməd əmi hardansa eşidir ki, həmin müəllimlə atam dostdur. Əlqərəz, atamı razı salıb, Gəncəyə Əhməd müəllimin evinə gedirlər. Mən sürücülük edirdim. Ev sahibi bzi yüksək səviyyədə qarşıladı. Düzü atam getmək istəmirdi. Bilirdi ki, Əhməd müəllim çox prinsipial adamdır. Yeri gələndə heç rektorun da sözünü eşitmir. Belə bir əh-

valat danışırdılar ki, o, savadsız bir tələbəyə qiymət yazmayıb. Hətta rektor da işə qarışıb. Ancaq onu razı salmaq mümkün olmayıb. Həmin tələbənin qohumları Çapıq Əhmədi izləyib Gəncə çayı üzərindəki körpünün yanında yaxalayırlar. Ona nə qədər yalvar-yaxar edirlərsə qiymət yazmayacağını söyləyir. Axırda onun ayaqlarından tutub körpüdən başıaşağı sallayırlar ki, qiymət yaz. Ancaq o inadından dönmür. Məcbur olub onu buraxırlar. Nə qədər dost, tələbəlik dostu olsalar da atam Əhməd müəllimə xahişə getmək istəmirdi. Ancaq Məhəmməd dayının da sözünü yerə salmaq istəmirdi. Gəncəyə gedəndə belə bir şərt kəsdi ki, mən sizi tanış edəcəyəm. Öz sözünü özün de. Məhəmməd əmi razılaşdı. Əhməd müəllimgilə çatdıq. Atamla və bizlə çox səmimi görüşdü. Konyak açıb, süzüb dedi:

– Ayə, ay Fərman, hansı rüzigar səni buraya gətirib?

Bilirəm sən gecənin bu vaxtı gələn deyilsən, nəyə gəlibsən söylə, canla-başla hazıram.

Atam elə-belə yoldan keçdiyimizi və ona baş çəkmək istədiyimizi söylədi. Bir az keçəndən sonra gördük ki, Əhməd müəllimlə Məhəmməd əmi artıq qardaş olublar. Arada Məhəmməd əmi sözü fırlayıb Valehin onun oğlu olduğunu söylədi. Əhməd müəllim Məhəmməd əmiyə bildirdi ki, daha biz qardaş olmuşuq, sabah uşaq gəlsin qiymətini yazacağam. O, sonra Məhəmməd əmiyə bərk-bərk tapşırdı ki, əgər Gəncəyə yolu düşəndə ona baş çəkməsə bərk inciyəcək.

Geri qayıdanda Məhəmməd əminin kefi kökəlmişdi. Atam isə sakitcə ona qulaq asırdı. Evə çatıb xudahafizləşəndə atam dedi:

– Ay Məhəmməd, daha səninlə heç yana gedən deyiləm. Çünki belə getsə, sən öz şirin dilinlə mənim bütün dostlarımı əlimdən alacaqsan.

Bu sözdən sonra bizim hamımız bərk gülüşdük. Bu sözlərdə böyük bir həqiqət vardı. Çünki, Məhəmməd Çobanoğlu elə bir ünsiyyətcil insan idi ki, ilk tanışlıqdaca müsahibini özünə bağlamağı bacarırdı.

Yeznəm Valeh dost-tanışlı, yeyib-içən, mərd, səxavətli bir insandır. Elə bu xasiyyətləri ucundan cavanlıqda başı çox "bəlalar" çəkib. Hər dəfə də bu "bəlalar"dan onu atası qurtarıb. Növbəti bəla qurtarma əməliyyatlarından birindən sonra Məhəmməd əmi Valehi bərk məzəmmətlədi ki, sənə görə gör mən nə qədər adama ağız açmışam. Valeh gülümsəyərək dedi:

– Ay ata, sən mənə minnətdar olmalısan ki, mən sənə ölkədə bu qədər dost-tanış qazandırmışam. Mənim işimdən ötrü kimin yanına gedibsənsə dost olub qayıdıbsan.

İndi başqa bir prizmadan baxanda böyük bir həqiqət olan bu sözlərə hamı, o cümlədən Məhəmməd əmi də bərk güldü.

Onun səhəti ilə bağlı yanında çox olmuşam. Çox dözümlü, mətanətli bir insan idi. Ölümünü də bilirdi. Ancaq məndən və Mehmandan xahiş etmişdi ki, bu sirri heç vaxt övladlarına açmayım. Çünki onların üzülməsini istəmirdi. Bax, belə bir böyük insan idi bizim Məhəmməd Çobanoğlu, bizim əziz qudamız.

***Aydın Məmmədov,***
*həkim*

## YEZNƏMLƏ FƏXR EDIRƏM



Yeznəm Məmməd Çobanoğlu, doğrudan da fəxr ediləsi bir insan idi. O, boylu-buxunlu, yaraşıqlı, yumşaq ürəkli el ağsaqqalı və gözəl, mehriban ata idi. O, cavan yaşlarında kənddə vergi toplayan vəzifəsində işləyirdi.

Vergi verməyə imkanı olmayanları qanunla vergidən azad etdirərdi. O, çörəkxanada işləyəndə imkanızlara pulsuz çörək və un verərdi. Kəndin xeyrində, şərində fəal iştirak edərdi. Yasda ehsan verə bilməyənlərə,qəbir daşı düzəltdirə bilməyənlərə pulla kömək edərdi. Kənddə küsülü olanları qonaqlıq verib barışdırardı.

Məhəmməd üç oğula, bir qıza, çoxlu nəvələrə ali təhsil verdi. Onun kənddə, rayonda, mərkəzdə həm yaxşı dostları, həm yaxşı hörməti var idi. Məhəmməd mənə həmişə balaca baldız deyərdi.

Mən institutda oxuyanda maddi cəhətdən mənə kömək edərdi. Hər ay mənə pul göndərərdi.

Rektorumuzla tanış olub qiymətlərimlə maraqlanardı. Diplomlar veriləndə iclas olardı, valideynlər çağrılardı. Rektorumuz onu da dəvət etmişdi. Mənə diplom veriləndə rektorumuz məni təriflədi və ona dedi:

– Məhəmməd kişi, balaca baldızınız semestrlərdə bütün

fənnlərdən əla qiymətlər alıb. Ona fərqlənmə diplomu verirəm. İnstitutda saxlayacam. Həmin dəqiqə o, mənim yanıma gəldi, rektora təşəkkür edib məni qucaqladı, alnımdan öpdü və gözləri yaşardı. Mən də onu qucaqladım və öpdüm, mənim də gözlərim yaşardı. Bu yaş, sevinc yaşı idi. Mən onunla, o da mənimlə fəxr edirdik.

İclasdan sonra rektora və bütün müəllimlərə yaxşı qonaqlıq verdi. Allah belə insanları tək-tək yaradır. Məhəmmədin soyuqlu qış günü qəfildən ürəyi dayandı. Onun ölüm xəbəri bütün kəndlərə, rayonlara yayıldı. Qohum-qardaş, dost-tanış axın-axın, ağlaya-ağlaya onunla vidalaşmağa gəldilər. Qəlbimdən belə bir haray səsi gəldi:

Kədər bir dəryadı, sevinc qətrədi,
Dinmək istəyənin ağzında dili büdrədi.
Oba silkələndi, ellər titrədi,
Məhəmmədin ürəyi dayanan günü!

Qaya parçalandı, daş quma döndü,
Axdı göz yaşları, daşqına döndü.
Çaşdı eşidənlər, çaşqına döndü,
Məhəmmədin ürəyi dayanan günü!

Qohumlar, baldızlar yas libası geydilər, kənd yasa batdı. Yeznəmdən sonra onun həyat yoldaşı üçüncü bacım, xanım-xatın Bülqeyisi itirdim, ağır xəstəliyə düçar oldum. Yeznədən, bacılardan mənə sağalmayan yara qaldı. Xeyriyyəçi yeznəni itirəndə könlümdən bir səs gəldi:

Yeznəm qan barışdırardı bircə sözüylə,
Qəmi dağıdardı gülər üzüylə.
Qohumları, eli isidərdi ürək közüylə,
Məhəmməd haqqın elə sovqatı idi.

Ağsaqqal olmuşdu cavan yaşından,
Ay kimi işıq saçardı qohumun aynasından.
Silinməz heç zaman el yaddaşından,
Məhəmməd haqqın el sovqatı idi

Allah rəhmət eləsin, goru nurla dolsun!

***Bəyaz Aslan qızı Məhəmmədova,***
*baldızı, müəllimə*
*12 oktyabr 2016-cı i*



# UNUDA BİLMƏDİYİM İNSAN

1987-ci ilin əvvəlləri idi. Həmin dövrdə Daşkəsəndə çörək problemi mövcud idi. Belə ki, yeganə çörək kombinatının bişirdiyi çörəklər həm keyfiyyətsiz idi, həm də əhalinin tələbatını ödəmirdi. Bir gün "Daşkəsən" qəzetində bu problemlə bağlı yazı dərc olundu. Daima qəzetlə yaxından əlaqə saxlayır, məqalə və şeirlərimi dərc etdirirdim. Qəzetin məsul katibi Ramiz Çıraqlı ilə həm qələm yoldaşı, həm də ailəvi dost idik. Sıx gediş-gəlişimiz vardı. Yazı qəzetdə dərc olunandan sonra Ramizi rayon partiya komitəsinə çağırmışdılar. Hamımız onun raykomdan qayıtmasını gözləyirdik. Ancaq o, gec qayıtdığı üçün mən evə gedəsi oldum. Axşam o, işdən sonra həyat yoldaşı ilə bizə gəldi. Kefi kök idi. Ondan bu günkü çağırışın nə ilə nəticələndiyini soruşdum.

Ramiz Çıraqlı gülə-gülə dedi:

– Katib mənə təklif edir ki, gəl səni çörək kombinatına direktor göndərim, çörəyin keyfiyyətini yaxşılaşdır. Mən də cavab verdim ki, kombinatın direktorunu yox, çörəkbişirmə texnologiyasını dəyişmək lazımdır. Sonra ona kəndimizdə kürədə bişən çörəklərdən danışdım. İnanmadı, dedi ki, o çörəklərdən birini gətir baxaq. İndi gərək səhər gedib Məhəmməd Çobanoğlunun çörəklərindən gətirəm.

Biz Ramizin bu halına xeyli gülüşdük. Həmin axşam "Daşkəsən"in redaktoru rəhmətlik Məhəmmədəli Kazımov da bizdə idi.

Məhəmmədəli müəllim sakit təbiətli, xoşxasiyyətli, sakit bir adam idi. O, zarafatla dedi:

– Ramiz, məsul katibliyindən istifadə edib o yazını qəzetə soxuşdurdun. İndi öz cəzandır çək. Xoşuna gəlsə katib hər

həftə Tovuzdan sənə çörək daşıtdıracaq. Atalar yaxşı deyiblər ki, iti öldürənə sürüdərlər. Katiblə danışıb səni çörək zavoduna göndərəcəm, mənim də canım səndən qurtaracaq.

Arasından bir neçə gün keçdi. Bir axşam o yenə bizə gəldi. Bu dəfə yaman fikirli idi. Fikirləşdim ki, yəqin nəsə yazıb, onunçün onu yenə raykoma çağırıblar. Çünki, yazdığı felyetonlara görə başı çox bəlalar çəkirdi. Ancaq sən demə, məsələ tamam bambaşqa imiş. Söhbəti də özü açdı:

– Kənddən Məhəmməd əmimin çörəklərindən gətirib göstərdim. Birinci katibin çox xoşuna gəldi. İndi iki ayağını bir başmağa dirəyib ki, mütləq sinaq üçün burada belə bir kürə qurmaq lazımdır. Belə bir kürəni quracaq, çörəyi bişirəcək adamı tapmağı isə mənə həvalə edib. Məhəmmədəli müəllim düz deyirdi ki, iti öldürənə sürüdərlər. İndi mən qəzetçiliyin daşını atıb çörəkmi bişirim? Mən belə bir adamı hardan tapım? Namazalı, ümidim yenə sənədir, milisdə işləyirsən, şəhərdə hamını yaxşı tanıyırsan. Gör bu işi bacaran bir adam tapa bilirsənmi? Sənədləşmə işini özüm həll edəcəyəm. Birinci katib şəhər sovetinin sədrinə öz tapşırığını verib.

Mən elə yenicə fikirləşmək istəyirdim ki, həyat yoldaşım Çimnaz xanım zarafatla dilləndi:

– Mən də deyirəm ki, nəyin dərdini çəkir. Təki dərd çörək bişirmək dərdi olsun. Yığaram başıma qonum-qonşunun arvadlarını, gündə nə qədər desən bişirərəm. Kənddə o qədər külfədə çörək bişirmişəm ki.

Bu sözlərdən sonra Ramiz onun dilindən tutdu:

– Çimnaz bacı,-dedi-bayaqdan məni niyə dağa-daşa salırsınız? Nə lazım olsa özüm kömək edəcəyəm. Təki siz razı olun.

Zarafatla başlanan bu söhbət yekunla nəticələndi. Mən həmin dövrdə milisdə-mühafizə bölməsində işləyirdim. Qərara gəldik ki, bir usta tapıb hər ikimizin boş vaxtlarında Tovuza, Əyyubluya gedək. Usta həmin kürəyə baxıb çertyojlarını götürsün.

Beləcə, getdik həmin məşhur kürələrə baxmağa. Çörək sexinin zahiri görünüşü o qədər də gözəgəlimli deyildi. Mənim yaşadığım binanın qarşısında tikdirdiyim əl damından bir az böyük idi. Ancaq elə sexin çölündən bizi təzə çörəklərin ətri vurdu. Sex rəisinin qapısını döyüb içəri keçdik. Ucaboylu, enli kürək, üz-gözündən nur tökülən bir kişi ayağa qalxıb bizimlə görüşdü, Ramizi bağrına basıb üz-gözündən öpərək dedi:

– Bıy dərdin alım, bacoğlu, nə yaxşı əmini yada salmısan?

O, bizə çay gətirtdi, əhval-pürsanlıqdan sonra Ramiz başına gələnləri danışdı. Məhəmməd Çobanoğlu əlini-əlinə vuraraq ürəkdən güldü, gözlərindən yaş gəldi:

– Məzən olsun, bacoğlu, yaman yerdə axşamlamısan. Ancaq sən qəm yemə, əmin ölməyib ki, sən fikir çəkəsən. Durun bir kürələrə baş çəkək, qoy ustanız da baxsın, sonra gedib çörək yeyərik.

Biz çörək bişirilən yerə keçdik. Yenicə kürədən çıxmış kömbələr adama gəl-gəl deyirdi. O, səbrlə apardığımız ustaya hər şeyi başa saldı. Sonra bizi çörək yeməyə dəvət etdi. Ancaq biz getmək istəmədik. Ərklə qolumdan tutub maşına doğru çəkdi:

– Qadanız alım, bizim kəndə gəlib bir tikə çörəyimizi kəsməsəniz, üzünüzə baxmarıq. Bacoğlunun qonağı mənim qonağımdır.

Əlacsız qalıb razılaşdım. Çünki bu kənddə çox olmuşdum. Bu çörəkli camaatın xasiyyətinə yaxşı bələd idim. Bilirdim ki, belə kişilərin çörəyini kəsməmək onlar üçün təhqir sayılır.

Bu günkü kimi yadımdadır. Çörək sexindən təxminən 400-500 metr aralıda bir kababxanada oturduq. Yeməkxananın müdiri Muzdur Zahid deyilən adam özü bizə qulluq edirdi. Mən onda gördüm ki, Məhəmməd kişinin kənddə nə qədər böyük hörməti var.

Ayrılarkən bildirdi ki, kürə hazır olan kimi Ramiz xəbər versin, ustalardan birini göndərim, bir neçə gün sizə kömək etsin. Sözünün üstündə durdu. Sex hazır olanda onun ustalarından biri Daşkəsənə gəldi, bizə şöhrəti Azərbaycana yayılmış çörəklərin bişirilməsinin sirrini öyrətdi. Bizim kürədə bişən çörəklər də Daşkəsənə səs saldı. Məcbur olub növbələrin qarşısnı almaq üçün iki növbəli iş sisteminə keçdik. Sonradan katibin köməkliyi ilə Daşkəsəndə ilk qaz bizim kürəyə çəkildi.

Mən aradan uzun illər keçsə də Çobanoğlu Məhəmmədin o nurlu çöhrəsini, gülər üzünü, şirin dilini hələ də unuda bilmirəm. Eşidəndə ki, qələm dostum Ramiz Çıraqlı Məhəmməd Çobanoğlu haqqında kitab hazırlayır, xahiş etdim ki, onun haqqında mənim də bu qısa xatirəmə bir neçə səhifə ayırsın. Çünki, Məhəmməd Çobanoğlu mənim həyatda az-az rast gəldiyim ərdəmli, ağır taxtalı, vüqarlı və unuda bilməyəcəyim insanlardan biriydi.

***Namazalı Paşa,***
*şair,*
*Daşkəsən şəhəri*

## ÇƏTİN GÜNDƏ TANIDIĞIM İNSAN



Ötən əsrin 90-cı illərinin əvvəlləriydi. Ölkə bir-birinə qarışmışdı. Başqa məhsullar kimi çörək də qəhətə çıxmışdı. Böyük külfəti olanlar üçün bu qıtlıq özünü daha tez biruzə verirdi. Bəzən elə olurdu ki, yas yerlərində halva bişirmək üçün un tapılmırdı.

Bir gün tanıdığm yaxın bir adam rəhmətə getmişdi. Yas yerləri üçün ayrıca un norması nəzərdə tutulsa da, un yox idi. Ala qaranlıqdan un üçün gedən adam əliboş qayıtmışdı. Rəhmətə gedən adam kasıb, qohum-əqrəbasızın biriydi. Hamı fikrə getmişdi. Qalmışdıq mat-məəttəl. Birdən kimsə dedi ki, bir Əyyubluya da baş çəkin. Başqa biri etiraz etdi:

– O boyda Tovuzda un yoxdursa, Əyyubluda hardan olsun? Olsa da verməzlər.

Ancaq ağsaqqallardan biri ona etiraz etdi:

– A bala, siz Çobanoğlu Məhəmmədi yaxşı tanımırsınız. Olsa verəcək. Bilirəm, bu saat onun da başı qarışıqdır. Qovlar boyda olan bir kəndin özünün problemləri o qədərdir ki. Siz yenə bir sınayın.

Əyyubluya, Çobanoğlu Məhəmmədin yanına mən gedəsi oldum. Çörək sexinin qabağında xeyli adam vardı. Kimi kürələrdən çıxacaq çörəkləri gözləyir, kimi də imkan

olsa bircə tay un almaq istəyirdi.

Məhəmməd Çobanoğlu səbr və təmkinlə hamıya qulaq asır, imkan olsa kömək edəcəyini söyləyirdi.

Bu qədər adamın içərisində, başının belə qarışıq vaxtında ona yaxınlaşıb söz deməyə utanırdım. Birdən gözləri mənə sataşdı:

– Qardaşoğlu, sən kimsən, dərdin nədir? – dedi.

Məsələni açıb söylədim. Qaşları çatıldı:

– Üzü qara olsun belə zəmanənin ki, ölülərimizə halvalıq üçün bir urvalıq un tapa bilmirik, – dedi. – Bacıoğlu, özün vəziyyəti görürsən, mənim yerimdə sən olsan nə edərsən? Yas hamımızın yasıdır, istər qovlarlı olsun, istərsə də Əyyublu. Heç özüm də bilmirəm necə kömək edim?

Bu sözlərdən sonra kirmişcə sağollaşıb geri qayıtmaq istədim. Bir də gördüm ki, arxadan məni səsləyir:

– Qadan alım, olma sözlərim xətrinə dəydi? Vahidin canı üçün, özüm də çaş-baş qalmışam, bilmirəm nə edim? Cənazəni nə vaxt qaldıracaqsınız?

– Sabah, ehsanı da sabah verəcəyik.

Elə bil ki, kişinin üstündən bir dağ götürüldü. Rahat-rahat nəfəs alıb dedi:

– Narahat olma, axşam unumuz gələcək, həm gəlib un apararsınız, həm də çörək. Qoy deməsinləər ki, Çobanoğlu Məhəmməd Qovlardan onun üstünə qaçan adamı əliboş yola saldı.

Sonra məndən Qovlardan hansı nəsildən olduğumu soruşdu. Şair Bimar İsgəndərin oğlu olduğumu söylədim. Yaxına gəlib boynumu qucaqlayıb dedi:

– Deyirəm axı, hər adam kasıb-kusubdan ötrü bu qədər

yolu gəlib başqasına ağız açmaz. Atalar yaxşı deyib ki, ot kökü üstə bitər. Bala, siz soylu, köklü nəsilsiniz. Özü də siz Qovlardan deyil, Bozalqanlıdansınız. Atan Bimar İsgəndər Bozalqanlı Telli Əsədin doğmaca bacısı oğlu olub. Nəsliniz bir qan davası üzündən Bozalqanlıyı tərk edib, Qovlara köçüb. Özü də qan davası namus, qeyrət üstündə olub. Hardadır indi elə kişilər? El namusu çəkənlərin hamısının aqibəti belə olur. Ancaq elə kişilər həmişə xalqın ürəyində yaşayıb və yaşayacaqlar.

Ətrafdakıların marağını görüb mənim atam, nəslim, kökküm haqqında elə maraqlı əhvalatlar danışdı ki, düzü mən onların çoxunu bilmirdim. Sonra Çobanoğlu Məhəmməd atamın bir neçə şeirini əzbərdən söylədi. Yadımda qalanlar bunlardır:

## DÜNYADI

Arif olan aç gözünü yaxşı bax,
Adəmi taxtında görən dünyadı.
Axşamdan sabaha yoxdu vəfası,
Neçə sifət, Çarızaman dünyadı.

Neçə Süleymanlar olub hökümdar,
Neçə peyğəmbərdən söyləyir xəbər,
Əyyubu canından edibdir zinhar,
Zilhiccəni dilləndirən dünyadı.

Neçə min il qabaq xalı qalıbdı,
Neçə dəfə boşalıbdı, dolubdu.

Nuhu bu yanından yola salıbdı,
Neçə sular bulandıran dünyadı.

Hər ləhzəsi neçə milyon can ilə,
Gələr keçər, hesab ilə, san ilə.
Hər dağını, hər daşını, qan ilə,
Neçə dəfə bələndirən dünyadı.

Belə gəlib, belə gedər həmişə,
Heç kəslə dostluğunu görmədim, haşa.
İsgəndər at sürdü yetmədi başa,
Yarı yolda millləndirən dünyadı.

Baş əyməz şahlara, nə mülkədara,
Baxan döy şöhrətə, dövlətə, vara.
Çoxlarını gedər-gəlməz yollara,
Üzü qara yollandıran dünyadı.

Əcəb tora saldı miskin Bimarı,
Qabaqdan köçünü döndərdi geri.
Əzrayıl sifətli çox iyidləri-
Puçqaxlarda külləndirən dünyadı.

## BİR DAŞI

(Aşıq Xalıqverdiyə)

Püsəri xahərim, nuri didarım,
Aç mətahın, tök bazara, bir daşı.
Dəryadan bir qətrə pay alan kimsə,
Bir dayanı, bir çalxanı, bir daşı.

Bu sözləri doğru deyib atalar,
Cahangirlər bədöy seçib at alar,
Müxənnəti topa qoyub atalar,
Məkrlidir mədhi, məğzi, bir də aşı.

Vaxt var idi dizim möhkəm, saç qara,
İndi bənzər qəddim dala, saç qara,
Gəl Bimarın məzarına sanc qara,
Ünvanına sahib eylə bir daşı.

Axşam üstü, Məhəmməd Çobanoğlunun dediyi vaxt 2 tay un, bir xeyli çörək götürüb yas yerinə gətirdim. İndi o illər çox-çox arxada qalıb. Məhəmməd Çobanoğlu da dünyasını dəyişib. Hər dəfə Əyyublu kəndinə yolum düşəndə, indi qapısı bağlı çörək sexinə baxanda həmin əhvalat və mərd, səxavətli Çobanoğlu Məhəmməd yadıma düşür.

***Məmməd Bimaroğlu,***
*şair*



# NƏVƏLƏRIMIN DAMARLARINDA ONUN DA QANI AXIR



Mən Məhəmməd dayını uşaq vaxtımdan tanıyıram. Biz yeddinci sinifdə oxuyan vaxtlarda Vahidlə qardaşlıq olmuşuq. Bir-birimizə çox mehriban, sadiq dost idik. Ona görə də Məhəmməd dayını çox yaxından tanıyıram. Məhəmməd dayı çox xeyirxah, qohumlarına, qardaşlarına, dostlarına çox isti münasibət bəsləyən bir insan olub. Vahid müəllimlə mənim dostluğum axıra qədər davam eləyib. Sonra bu dostluq qohumluğa çevrilib. Mən Məhəmməd dayının balaca nəvəsi olan Nurlanəni böyük oğlum Mirzəyev Natiqə gəlin gətirmişəm. Bizim qohumluğumuz çox mehriban və şirindir.

Uzun illər yüksək vəzifələrdə işləmişəm, çox sayda insanla qarşılaşmışam. Ancaq Məhəmməd dayı kimi kişilər dünyaya az-az gəlir. Bir gün uşaqlıq dostum Vahid dedi ki, Şəmkirin Şiştəpə kəndində bir nəfərdə çörək sexi üçün qurğu var. Gedək, görək onu ala bilirikmi?

Həmkəndlimiz Qret Fərmanı da götürüb getdik Şiştəpəyə. Fərman kişi həmin adama məqsədimizi açıqladı. O, bildirdi ki, gecikmisiniz, həmin qurğunu elə dünən başqa birisinə 400 dollara satmışam və beh də almışam. Biz korpeşiman geri qayıdanda Fərman kişi dedi ki, gərək Çoba-

noğlunun özünü gətirəydik.

Ev sahibi bizi saxlayıb Məhəmməd kişini haradan tanıdığımızı soruşdu. Vahid müəllim onun oğlu olduğunu söylədi. Kişi onu bağrına basıb öpməyə başladı:

– Çobanoğlu Məhəmməd mənə elə bir yaxşılıq edib ki, həyatım boyu unuda bilmərəm. Bu günkü günüm üçün ona borcluyam. Həmin sizə lazım olan şeyi hələ aparmayıblar, gəlin götürün, mən satdığım adama hər şeyi başa salaram.

Vahid müəllim cibindən pul çıxarıb ona uzatdı. Ancaq nə qədər israr etdisə o, pulu götürmədi. Dedi ki, Çobanoğlunun mənə etdiklərinin əvəzində evimi də ona bağışlasam azdır.

Biz əlacsız qalıb lazım olan şeyi götürüb kəndə qayıtdıq. Ancaq həmin yaxşılığın nə olduğunu günü bu gün də bilmirəm. Bax belə bir kişi idi Çobanoğlu. Mən fəxr edirəm ki, mənim nəvələrimin damarlarından axan qana onun soyunun da qanı qarışıb.

***Tofiq Mirzəyev***



# BIZIM ÇOBANOĞLU



Məhəmməd Çobanoğlunun böyük oğlu Vahid müəllim mənə zəng edib atası haqqında xatirələrimi yazmağı xahiş edəndə, mən xeyli fikirləşdim. Çünki Məhəmməd Çobanoğlu kimi bir adam haqqında nə isə fikir söyləmək ciddi məsuliyyət tələb edir.

Mən Məhəmməd kişini uşaq vaxtlarımdan tanıyırdım. Onu sözükeçən, hamının xeyrinə-şərinə yarayan, bütün kəndi gözəl çörəklə təmin edən bir çörəkxananın müdiri və atamın dostu kimi tanıyırdım.

Sonra tale elə gətirdi ki, Çobanoğlu ilə quda olduq, iki bacım - Xalidə və Mahirə onun gəlinləri oldu, ailəvi yaxınlığımız möhkəmləndi. Bundan sonra Məhəmməd kişini daha yaxından tanıdım. O, çöldə qoçaq, sözünü deyən, pul qazanan olduğu qədər, evdə çox mülayim, bütün uşaqlarının qayğısını çəkən həssas bir insan idi. Təsəvvür edin ki, həftədə bir dəfə Zəyəm bazarına gedəndə ayırdığı övladlarının ailələrinə də ayrıca bazarlıq edirdi, onların bütün qayğısını özü çəkirdi.

Məhəmməd kişi ucaboylu, göyçək bir adam idi. Kənddə dalaşan, küsülü adamları barışdırardı. Kimin hansı idarədə, təşkilatda dolaşıq işi olardısa ona müraciət edərdi. Məhəmməd kişinin xahişi ilə bütün bu işlər qaydasına düşərdi.

Mən Məhəmməd kişinin həm də müalicə həkimi olmuşam.

Məhəmməd Çobanoğlu iki dəfə miokard infarktı keçirmişdi. Dərmanları içirdi, lakin pəhriz gözləmirdi. Yeyib-içən adam olmuşdu. Ona görə deyirdi ki, pəhriz gözləyə bilmirəm. Bir dəfə onların evinin yanından keçirdim, maşını dayandırıb bacıma baş çəkmək istədim. Həyətə girəndə gördüm Məhəmməd kişi stolun arxasında tək oturub, stolun üstündə bir boşqab iri doğranmış soğan var. Bu vaxt onun gəlini-bacım Mahirə əlində bir iri boşqab quyruq kababı kişiyə yaxınlaşıb stolun üstə qoydu. Bu vaxt kişi məni gördü (demişdim yağlı yeməklər, erkək əti olmaz).

Məhəmməd kişi Mahirəyə dedi ki, a bala, bunu kimə gətirmisən? Bilmirsənmi mən yağlı yemək yemirəm?

Mahirə isə: – Məhəmməd əmi özün sifariş etmədinmi? – deyə soruşdu.

Mən yaxınlaşıb dedim ki, Məhəmməd dayı, bilirəm özün “zakaz” veribsən, mənə görə yeməyindən qalma. Kişi gülüb dedi:

– Bala, nə edim, dözə bilmirəm.

Məhəmməd kişi bir qohum kimi, valideyn kimi, kəndin ağsaqqalı kimi hamının qəlbində daim yaşayacaq. Allah rəhmət eləsin.

Mənim bacım Mahirənin balaca bir nəvəsi var, adı Məhəmməddir. Arzu edirəm balaca Məhəmməd cəmiyyətdə babası kimi mərd, sözünü deyən, xeyirə yarayan bir kişi olsun!

***Mehman Fərman oğlu Məmmədov,***
*həkim kardioloq*

# SÜLHƏ ÇALIŞAN INSAN



Mənim dayım Çobanoğlu Məhəmməd gülərüz, xoş xasiyyət bir insan olmuşdur. O həmişə həyatda sülhə birinci yer vermişdir. Dayım həyat yoldaşı ilə bizə tez-tez gəlib-gedərdi. Onlar hər ikisi bizim bütün işlərimizdə olduqca fəal iştirak edərdi. Biz bacı-qardaşlar ondan çox şey öyrənmişik. Mənim həyatda heç vaxt yadımdan çıxmır. Anam Sayalı ağrıyarkən dayım Tovuz rayonunun bütün hörmətli və savadlı həkimlərini dəvət etmişdir. Biz bacı-qardaşlar həyatda yaşadığımız dövrdə ona minnətdarıq. Dayım bütün bayram şənliklərində bizim arxamızca maşın göndərərdi. Heyf ki, həyatdan tez getdi. İndiyə qədər yaşasa bizim üçün daha yaxşı olardı. O, həyatda hər şeydən xəbərdar insan idi. Dayımızın bütün övladları indi də bizimlə qohumluq münasibətlərini davam etdirirlər. Dayım Çobanoğlu Məhəmməd başda olmaqla bütün dayılarıma rəhmət diləyirik. Mən həyatda kimin dayısı sağdırsa o insanlara deyirəm ki, dayılarının qədrini bilsinlər. Deyiləsi xatirələr olduqca çoxdur. Mənsə fikirlərimi ona həsr etdiyim şeirlə bitirmək istəyirəm.

O xeyirxah gözəl insan,
Hamıya demişdir can.

Olmamışdır gördüyü işdən
Heç vaxt peşiman.

Tutmuşdur daim haqq yolunu,
Bütün kəndimiz bilir bunu.
Göstərmiş biz gənclərə kömək,
Dayı, yoxsan aramızda bizim,
Bilinir hər yerdə izin.

***Elxan Sarıyev,***
*bacısı oğlu*



# SAYILIB-SEÇİLƏN DAYIM



Mənim dayım Çobanoğlu Məhəmməd kəndimizin sayılıb-seçilən şəxsiyyətlərindən biri olmuşdur. Müdriklərdən kim isə demişdir ki, insan ən azı 90 il yaşamalıdır. Heyif ki, dayım o yaşa gəlib çatmadı. Dayım el ağsaqqalı olmaqla yanaşı, həm də gözəl ailə başçısı, gözəl bir insan idi. Onun həyat yoldaşı Bülqeyis xala o ailədə bizə həmişə ana kimi olmuşdur. Dayım və həyat yoldaşının gözəl xasiyyəti var idi. Biz qardaş və bacıları öz övladları qədər istəyirdilər və heç bir vaxt övladlarından seçməmişdilər. Ağlımız kəsəndən həmişə dayımızla fəxr etmişik. Mən Bakıda tələbə olarkən və Şəmkirdə istehsalatda işlədiyim müddətdə həmişə insanların dilindən bir söz eşitmişəm:- Haradansan, hansı kənddənsən, Çobanoğlu Məhəmmədi tanıyırsanmı?

Biz qardaş və bacılar dayımızın adını həmişə uca tutmuşuq. Mənim bütün qardaş və bacılarıma, bacı oğlanlarına və qızlarına tövsiyyəm odur ki, dayımın adını həmişə uca tutsunlar. Dayımız Çobanoğlu Məhəmməd biz qardaş və bacıların qəlbində həmişə yaşayıb, bu gün də yaşayır və həyat boyu yaşayacaqdır.

***İlham Sarıyev,***
*bacısı oğlu*

# OĞLU VAHİDİN VƏ AİLƏ ÜZVLƏRİNİN XATİRƏLƏRİ

## NƏSLİMİZ HAQQINDA EŞITDIKLƏRIM VƏ ÖYRƏNDIKLƏRIM



Babam Qurbanov Çoban Əkbər oğlu 1900-cu ildə Əyyublu kəndində dünyaya göz açıb.

Babam anadan olanda anası rəhmətə gedib, babam qalıb körpə.Atası Əkbər kişi başqa birisilə evlənəndən sonra analığın yanında qalmasın,deyə,onu özü ilə Kürün qırağında yerləşən mal-qoyun fermasına, qohumlarının yanına aparır.Günlər ötdükcə babam Çoban böyüyür, 6-7 yaşa çatanda atası Əkbərin çobanları onu "balaca çoban" çağırırlar.Babamın əsl adı Qurban olub. Çobanlar onu balaca çoban çağırdıqlarına görə onun adı Çoban qalmışdı. Babam cavan yaşına çatanda kənddə gəzən vaxtlarında gözəl-göyçək bir qızla rastlaşıb. Sonra onunla maraqlanıb, öyrənib ki, bu qız Əmiraslanın qızıdır. Nəhayət, günlər, aylar keçir, bir-birini sevirlər.

1927-ci ildə ailə qururlar. 1930-cu ildə bir oğlan övladları dünyaya gəlir. Hər ikisinin sevinci yerə-göyə sığışmayıb, çox seviniblər. Sonra uşağa ad qoyulanda atası deyib ki, mən bu uşağa peyğəmbər adı qoyacağam. Ona görə də adını Məhəmməd qoyublar.

1932-ci ildə bu ailəyə bir sevinc də bəxş olub, ikinci oğul da dünyaya gəlib. Onun adını Hümbət qoyurlar.

Günlər beləcə ötüb keçirdi. Babam Çoban kənd sovetində milis işləyirmiş. 1936-cı ildə dünyaya gələn üçüncü övladının adını Əmirəhməd qoyurlar. Çoban babam iki qardaş, bir bacı olublar. Qardaşının adı Rüstəm, bacısının adı Lalaxanım idi. Pəri nənəm mənə danışırdı ki, babam Çoban bacısını o qədər çox istəyirdiki evinə bazarlıq edəndə həmişə onun payını ayırırdı. Müharibə dövründə çörəyin, unun qıt vaxtında öz evinə dəyirmanda taxıl üyüdəndə həmişə bacısı Lalaxanımın da evi nəzərində olurdu. 1940-cı ildə dördüncü oğlu dünyaya gəlib. Onun adını anası Pəri Qəşəm qoyub.

Aylar illər beləcə ötüşürdü. 1942-ci ildə bir qız övladları dünyaya gəlib. Adını Sayalı qoyublar. Atam Əkbərov Məhəmməd VII sinfə qədər kənddəki Cırdaxan məktəbində oxuyub. VII sinfi bitirdikdən sonra Aşağı Quşçu orta təhsil məktəbinə gedib. VIII-IX-X sinfi orada qurtarıb. Əsgərlik yaşına qədər Alakol kəndində kənd sovetinin katibi işləmişdi. 1949-cu ildə evlənib.

Bir gün atam Məhəmməd xəstələnib, babam onu Zəyəmə həkimə aparıb. Zəyəmdən qayıdanda dostu olan Maşaaslanla rastlaşıb. Təklif edib ki, uşaq qucağında yatıb, bizə gedək. Çay içən vaxtı babam görüb ki, beşikdə bir uşaq yatıb. Babam soruşubdur ki, o yatan uşaq qızdımı, oğlandımı? Maşaaslan deyib ki, qızdır. Bu zaman babam deyib ki, mən əhd edirəm ki, mən səndən tez ölsəm qızı mənim oğluma verəsən. Burada uşaqları göbəkkəsdi eləyiblər. 1950-ci ildə Çobanın evinə bir sevinc də gəlir, bir nəvələri

dünyaya göz açır. Çobanla Pərinin sevincinin həddi-hüdudu olmur. Uşağa ad qoyma vaxtı gələndə Pəri deyir ki, uşağın adını mən qoyacağam. Mən onun adını Vahid qoyuram. Məhəmməd ilk övladının oğlan, qız olmasını bilmirdi. Onun üçün fərqi də yox idi. Həmişə bu barədə fikirləşəndə deyirdi ki, oğul,qız hamısı allahın verdiyi paydır, bircə Bülqeyis sağ-salamat qurtarsın.

O vaxtlar yenicə qurulmuş, müharibədən təzə çıxmış ölkədə həkim çatışmırdı. Doğum işlərini kənd mamaçaları özləri görürdülər. Bu da ölüm hallarının çoxalmasına səbəb olurdu. Buna görə də həyat yoldaşının sağ-salamat qurtarması onu çox sevindirirdi. Utana-utana anasından soruşur:

– Ay ana, nəvənin adını nə qoydunuz?

– Rəhmətliyin oğlu, sənin uşağının adını niyə mən qoyuram. Atalar deyib ki, oğlan uşağının adını atası qoyar.

Anasının bu sözlərindən sonra bilir ki, oğlu olub. Vahidin dünyaya gəlişi evlərinə elə bil baharı, yazı gətirmişdi. Aylar, illə keçir, bir-birini əvəz edirdi. Sonra Məhəmmədin bir qız övladı dünyaya gəldi. Qızın adını babası Çoban Gülxanım qoydu.

Gülxanım dünyaya gələndə atam hərbi xidmətdə imiş. Babam həmişə deyirmiş ki, ay Pəri, bircə arzum var ki, Məhəmməd əsgərlikdən sağ-salamat qayıdıb ailəsini, uşaqlarını təhvil alsın. Onda ölsəm də dərdim olmazdı. Elə bil allahtəala onun səsini eşitmişdir. Məhəmməd gələndən 3 gün sonra Çoban rəhmətə gedir. Qurban əti ehsan ətinə qarışır. Atası öləndən sonra bütün ailənin yükü onun boynuna düşür. Hərbi xidmətdən sonra yeyinti sənaye texni-

kumuna daxil olub, oranı qurtarıb. Sonra müxtəlif vəzifələrdə çalışıb. Kolxozda briqadir, kənd istehlak cəmiyyətində anbardar, əmtəəşünas, yeməkxana müdiri, Ağstafada pambıq zavodunda müdir vəzifəsində işləyib. 1970-ci ildə Rayon partiya komitəsinin təşəbbüsü ilə müasir çörək sexi yaradılıb və oraya rəhbər təyin olunub. Uzun illər çörəkxana müdiri vəzifəsində çalışıb. Ailənin yükü onun üzərinə düşəndən sonra qardaş-bacılarını böyüdüb, hərəsini bir sənət sahibi edib. Bacısını köçürüb, qardaşını da evləndirib. Eyni zamanda, öz ailəsi də böyüyürdü. 1959-cu ildə bir oğlan övladı da dünyaya gəldi. Onun adını da Valeh qoydular. İllər beləcə ötüb keçirdi. Onun dünyaya gələn üçüncü oğlunun adını Saleh qoydular. 1962-ci ildə bir oğlan uşağı da oldu. Onun adını da Vidadi qoydular. Vidadi evin son beşiyi idi.

Qardaşı Hümbət Çobanoğlu kənd istehlak cəmiyyətində sürücü vəzifəsində çalışırdı. Qardaşı Əmirəhməd Çobanoğlu da orada mühafizəçi işləyirdi. Ən kiçik qardaşı Qəşəm Çobanoğlu milis şöbəsində işləyib. Hüquq fakültəsini bitirdikdən sonra sahə müvəkkili, axtarış şöbəsinin inspektoru və axtarış şöbəsinin rəisi vəzifəsində çalışmışdır. Bacısı Sayalı Çoban qızı evdar qadın olmuşdur.

Məhəmməd Çoban oğlunun ilk övladı mənəm. 1950-ci ildə anadan olmuşam. 1967-ci ildə orta məktəbi bitirmişəm. 1968-1969-cu illərdə Engles adına sovxozun istehsalat sahəsində çalışmışam. 1970-ci ildə Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedoqoji İnstitutuna daxil olmuşam. 1974-cü ildə həmin institutu bitrmişəm. 1975-ci ildə Aşağı Ayıblı 2№-li orta məktəbə müəllim təyin olunmuşam. Bir

neçə il tarix müəllimi işlədikdən sonra vəzifəmi dəyişib Tovuz rayon təmir-tikinti idarəsində sex rəisi vəzifəsində işləmişəm. 1981-ci ildə 1№-li Mingəçevir sənaye kombinatının Tovuz filialında müdir vəzifəsində işləmişəm. 1975-ci ildə atamın əmisi oğlu Qurbanov İmranın qızı Xəzəllə ailə həyatı qurmuşam. 1976-cı ildə qızım Pəri, 1978-ci ildə qızım Şöhrət, 1970-ci ildə oğlum Ruslan, 1983-cü ildə qızım Nurlanə dünyaya gəlib.

1985-ci ildə Moskva koperativ institutunun Bakı filialının iqtisadiyyat fakültəsini qurtarmışam. Həyat yoldaşım Qurbanova Xəzəl İmran qızı Xalq Təsərrüfatı İnstitutunu bitirib.

Əmim və qaynatam Qurbanov İmran atamla uşaqlıqda bir yerdə böyüyüb, cavanlıqları br yerdə keçib, həmişə bir yerdə oturub-durublar. Sirləri bir, söhbətləri bir olub. Əmim Qurbanov İmran uzun müddət Engels adına sovxozda kassir və anbardar vəzifəsində çalışıb. İşləyə-işləyə pensiyaya çıxıb.



## XATİRƏLƏRİM

Bir gün atamnan Ağstafaya Qəşəm əmimin evinə ağac materialı almağa getmişdik. Elə oldu ki, işlə əlaqədar çörək yeyə bilmədik. Axşam saat 6-da evə gəlib çatdıq. Anam bizə yemək gətirdi. Bu zaman Ruslanın 5-6 yaşı olardı. Atam onu dizinin üstünə oturdanda mənim acığım tutdu. Dedim ki, onu yerə qoy, çörəyini ye, sonra görüşərsən. O, mənim üzümə qəribə baxdı. Dedi ki, Vahid, mən bunu sənə başa sala bilmərəm. Allahdan arzum budur ki, sənin də nəvən olsun, onda sən bilərsən nəvəni tullamaq olarmı. Mən ürəyimdə fikirləşdim ki, mən uşağımı qucağıma almıram, nəvə kimdir ki, mən onu qucağıma alam. İllər beləcə keçdi, mən baba oldum. Doğurdan da nəvənin nə qədər şirin olduğunu onda anladım. İndi mən 11 nəvə babasıyam.

Şair İsa Cavadoğlu ilə mən söhbət edəndə dedim ki, müəllim, mənim nəvəm olub, adını Vahid qoymuşam. İsa müəllim mənim müəllimim olub. Ona görə İsa müəllim bu şeiri nəvəmə həsr edib.

Şeirin başlığı belədir:

## VAHİD MÜƏLLİMƏ MƏKTUB

Salam, Vahid müəllim,
Eşitdim nəvən olub.
Nənə-baba, ailə
Bayram edib şən olub.
Ev-eşiyə yaz gəlib,

Aysunun da qəlbində
Gül açıb, gülşən olub.
Öz adını ərmağan
Eyləmisən nəvəyə,
Çağırıbsan fərəhlə
"Balaca Vahid" deyə.
Ata-ana qayğısı
Olsun daim üstündə.
Toy etsinlər Vahidə
Ata olsun bir gün də.
Nəsil davam eyləsin,
Hamı əhsən söyləsin.
Adı gəzsin ellərdə,
Şirin-şirin dillərdə.
Fəxr etsin el-oba da,
Ehtiramla desinlər:
Vahid müəllim olub
Bu Vahidin babası.

***Vahid Əkbərov,***
*oğlu*



# MƏNİM İSTƏKLİ ƏMİM VƏ QAYNATAM



Mən 1975-ci ildə Məhəmməd Çobanoğlunun oğlu Vahidlə ailə qurmuşam. Mən III kursa keçəndə bizim toyumuz olub. Qaynatam mənimlə qaynata kimi yox, əmi kimi rəftar edirdi. Qaynatamın evi həmişə qonaqlı-qaralı olmuşdur. O çox qonaqpərvər insan idi. Onu qeyd edim ki, onun ürəyində oğul yarası vardı. 22 yaşında olan həkim Salehini itirmişdi. O gündən sonra əmim çox sarsılmışdı. Hətta ağır infakt xəstəliyi keçirmişdi.

Biz bacı-qardaşların ən istəkli, sevimli əmisi olub.

O, məni həmişə qadan alımla çağırıb, buyurub. O qədər mehriban, qayğıkeş, şirin dilli, heç nəylə əvəz olunmayan bir insan idi. Hər həftənin bazar günü bir heyvan kəsirdi. Oğlunu, qızını, gəlinlərini stolun başına yığar, bizə kabab çəkərdi. O həmişə istirahətə, sanatoriyaya gedəndə bizə pay alıb gətirərdi. Hansı mağazada hansı paltar xoşumuza gəlsə, onu bizə alardı. Mən onun səbəbinə oxuyub diplom almışam. Azərbaycan Xalq Təsərrüfat institutunu qurtardım.

Bir xatirəsi də heç yadımdan çıxmayıb. İsti yay günlərinin birində Bakıda institutdan qatarla kəndə gəlirdik. O vaxt belə adət, qayda-qanun vardı ki, gəlinlər başını örtür-

dülər. Mənim də başım örtülü idi. İstidən nəfəs almaq mümkün deyildi. Vaqonda bizdən başqa 2-3 nəfər qadın vardı. Birdən əlini uzatdı, yaylığımı açıb kənara tulladı və dedi ki, sən mənim gəlinim yox, qızımsan. O, rəhmətə gedəndə biz çox sarsıldıq. Elə bir dağımız uçdu.

Məkanın cənnət olsun, əmi!

***Xəzəl Qurbanova,***
*gəlini*



## BABALAR BABASI



Babamın məndə çox xatirələri var. Bütün nəsillərdə olduğu kimi, Şıxməmmədlinin də ağsaqqalı babam idi. Babam haqqında səmimi, xoş xatirələrim həyatımın unudulmaz anlarıdır. Əlbəttə, kimdən babası haqqında soruşsalar tərifləyər. Amma sözün həqiqi mənasında mənim babam yaraşıqlı, uzun boylu, gülərüz insan olub. Onu da xüsusi qeyd etməliyəm ki, babam nəvələrə qarşı çox mülayim, xoş xasiyyətli idi. Babamın adı çəkiləndə nənəm Bülqeyisin adını da unutmaq olmaz. Nənəm çox təmkinli, qohumlarını çox istəyən, zəhmətkeş bir qadın olub. Mən fəxrlə deyə bilərəm ki, məndə olan müsbət xasiyyətlərimin hamısını babamdan öyrənmişəm. Məni ali məktəbə babam qoyub. Mən ali məktəbə girəndə o çox sevinmişdi. Babam nəvələrinin içində ən çox məni istəyirdi. Bacılarımdan Pəriylə, Şöhrətin toyunu görmüşdü. Çox arzusunda idi ki, mənim toyumu görsün. Ancaq ona qismət olmadı. Mən də, həyat yoldaşım Samirə də babamın xatirəsini əziz tuturuq. Mən çalışıram ki, həyatımda xalqımıza, elimizə layiq bir oğul olum. Çünki babamın həyat yolu bir məktəb idi. Allah ona rəhmət eləsin!

***Ruslan Əkbərov,***
*nəvəsi*

# NƏSLİMİZİN ATASI



Elə şəxsiyyətlər var ki, onların haqqında fikir söyləmək çətindir. Məhəmməd Çobanoğlu da mənim üçün həmin insanlardandır. O böyük şəxsiyyətin xatirəsini həm bir elin ağsaqqalı kimi, həm də el atası kimi canlandırmaq istərdim. Mən bu kəndə gəlin gələndə nəinki ailəmdə, qohum-qardaşlar arasında Məhəmməd Çobanoğlunun haqqında söylənən xoş sözlər, xoş xatirələr məni də sevindirirdi.

Ailəmizdə, qohumlarımızda Məhəmməd Çobanoğlu haqqında söhbət düşəndə hamı deyirdi: "Allah ona rəhmət eləsin. Dar gündə hamının köməyinə çatıb." Həyat yoldaşım Ruslan həmişə onun haqqında mənə gözəl xatirələr danışır.

***Samirə Məhəmməd qızı Məhərrəmova,***
*nəvəsi, Ruslanın həyat yoldaşı*

# MƏN BABAMIN ANASIYDIM



Mənim babamla xatirələrim digər nəvələrə nisbətən daha çoxdur. Ona görə ki, babam nəvələri arasında məni daha çox istəyirdi. Babam haqqında, onunla keçirdiyim xoş günlər haqqında xatirə yazmaq çətindir. Babam məni həmişə hara gedəndə özüylə aparırdı. Bakıya Qəşəm babagilə gedəndə məni də özü ilə götürərdi. Hətta bir dəfə Gürcüstana qonaq gedəndə yenə məni apardı. Rəhmətlik Saleh əmi hərbi xidmətdə idi. Onun yanına gedəndə də məni özüylə aparıdı. Babam məni o biri nəvələrindən ona görə çox istəyirdi ki, mənə öz anasının adını qoymuşdu. Məni həmişə "anam" deyə çağırırdı. Mən Məhəmməd Çobanoğlu kimi babam olduğu üçün fəxr etməliyəm.

***Pəri Əkbərova,***
*nəvəsi*

## ƏN ŞİRİN SÖZ



Baba sözü dünyanın ən şirin sözüdür. Məhəmməd Çobanoğlu kimi baba haqqında yazmaq mənim üçün həm şərəfli, həm də qürurverici bir hissdir. Çünki o, mənim xatirəmdə övladları üçün çox yaxşı bir ata, nəvələri üçün mehriban, şirindil bir baba idi. O, bütün nəvələrinə diqqətli və qayğıkeş idi.

İndiki kimi yadımdadır, o, həmişə bizi dizinin üstündə oturdar, bizə şirin-şirin nağıllar danışardı. O, nəvələrinin hamısına ayrı-ayrılıqda qızıl payları almışdı. Uşaq vaxtı məndən soruşan olanda ki, kimin qızısan? Mən fəxrlə babamın adını çəkərdim,- Mən Çobanoğlu Məhəmmədin nəvəsiyəm,- deyirdim. Mən babamla həmişə fəxr etmişəm. Babam heç vaxt ölməyəcək, daima bizim qəlbimizdə yaşayacaqdır.

***Şöhrət Vahid qızı Əkbərova,***
*nəvəsi*

# SƏNLİ GÜNLƏRi AXTARIRIQ



Mənim hörmətli, izzətli babam, bütün nəvələrin səni çox istəyir, bunu deməyə ehtiyac yoxdur. Mən babamın ilk nübarı, böyük oğlu Vahidin kiçik qızıyam. Mən öz-özümə fikirləşirəm ki, görəsən, mənim babam kimi düşüncəli kişilər indi də varmı? Məndən böyük bacı və qardaşlarım öz xatirələrini geniş yazıblar. Mən də öz kiçik xatirələrimi qələmə alıram. Amma babamın bizə etdiklərini kitablara sığışdırmaq olmaz.

Babamın adlı-sanlı, geniş qəlbli, saf ürəkli, gözəl bir adam olduğunu bütün el bilir. Mənim babam qardaş-bacısının da uşaqlarının qayğısını çəkibdir. Hansı birinin nəyə ehtiyacı olardısa onu ödəməyə çalışardı. Sənin adınla fəxr edirik, gözəl babam.

Ay baba, sənin balaların səni nə qədər istədiklərini özləri bilirlər. Amma biz nəvələr elə bilirik ki, səni bizim qədər istəyən olmaz. Biz, hər gün məktəbə gedəndə yolun üstündə səninlə görüşürdük. Sən bizi öpər, əzizlər, cibimizə pul qoyar, məktəbə yola salardın. Mənim babam, sən olmayanda biz məktəbə gedəndə yenə də gözlərimiz səni axtarır, amma nə fayda, itəni tapmaq olmaz. Səni itirdiyimiz gün ən pis gündür. Biz nəvələr səninlə keçirdiyimiz günləri axtarırıq.

Sənin haqqında çox xatirələr var, baba. Onları yazsam başa düşməyən yaxşı sanmaz. Kaş sənin elədiklərinin hamısını qələmə ala biləydim. Allah sənə rəhmət eləsin, əziz babam!

***Nurlanə Vahid qızı Əkbərova,***
*nəvəsi*



# *QIZI GÜLXANIMIN VƏ AİLƏ ÜZVLƏRİNİN XATİRƏLƏRİ*

## DÜNYANIN ƏN YAXŞI ATASI



Mən bu xatirəni yazmağa çox çətinlik çəkirəm. Qələmə aldığım bu xatirələri göz yaşlarımla yazıram.

Bu yazı mənə keçmişimi xatırladır, dərdimi təzələyir.

Çobanoğlunu xatırlamaq mənə çətindir. Xəyalımda çox şey qalıb, amma yaza bilmirəm.

Mənim atamın arzusu balalarını xoşbəxt görmək idi. O, bizim oxumağımız üçün əlindən gələni etdi. Həyatda beş övlad böyütdü. Hamımıza ali təhsil verdi. Mən ali məktəbdə oxuyarkən mənim gələcəkdə yaxşı bir müəllimə olmağımı istəyirdi.

Atamın hər dəqiqəsi mənim yaddaşımda silinməyən izlər buraxıb. Ona görə ki, atam ailəcanlı insan idi. Atam xalqını da çox sevirdi. Mənim atam kənd sakinlərinə də əlindən gələn köməyi edirdi.

Mənim yaddaşımda bir şey qalıb, atam çörək zavodunda işləyirdi. O illər un, çörək qıt idi. Atam kəndimizin bütün insanlarını həm un, həm də çörəklə təmin etdi.

O, evimizə gələn hər bir insana sərt cavab verməzdi. Hamya "qadan alım" deyərdi. Mən atama belə bir sual

verdim ki, sən niyə hamıya "qadan alım" deyirsən?

O, məni başa saldı ki, xalqını sevməyən insan xoşbəxt olmaz. Atamın xatirələri qəlbimdədir, amma hamısını qələmə almaq mümkün deyil. Atamın söylədiyinə görə, atasını çox erkən itirmişdi. Atasını itirdikdən sonra anası ilə bərabər özündən balaca qardaşlarını və bir bacısını çox çətinliklə böyütmüşdü. Onların hamısını böyüdüb ev-eşik etmişdi.

Atamın anası bizimlə qalırdı. Atam hər gün işə gedəndə bizə belə bir tövsiyyə edərdi: "Kim məni çox istəyirsə mənim anama hörmət etsin." Biz də onu istəyirdik. Bir şey daha yaxşı yadımdadır. Atamın anası dünyasını dəyişəndən sonra atam anasının şəklini pasportunun arasına qoyub cibində gəzdirərdi.

Hərdən şəkili cibindən çıxarıb baxar, onu xatırlayar, sonunda kövrəlib ağlayardı. Mənim atam çox kövrək, qəlbi yumşaq adam idi.

Mən ali məktəbi qurtarıb ailə qurdum.

İllər keçdi, bizim ailəmizə ağır itki üz verdi. Qardaşım Saleh maşın qəzası ilə dünyasını dəyişdi. Bu hadisə atama, anama, ailəmizə böyük dərd oldu.

Balasının ölümü atamı çox sarsıtdı. Atam və anam onun iş avadanlıqlarını və əldə olan video yazılarını özləri dünyalarını dəyişənə qədər saxladılar. İndi isə Vidadi saxlayır. Bu, bizim üçün unudulmayan bir dərd oldu.

Atam bu ağır zərbədən bir il keçməmiş ağır ürək infaktı keçirdi. O, çox ağır vəziyyətdə yatırdı. Mən atamın yanında dururdum. Atamı çox savadlı Mehman həkim müalicə edirdi. Mənim ən dəhşətli, qorxulu, həyəcanlı günlərim

atamla bağlı idi. Demək olar ki, bütün günü ağlayırdım. Həyatım boyu atam qədər çox istədiyim ikinci bir adam xatırlamıram. Atam məni "anam" deyə çağırardı. Mənim bir sözümü iki etməzdi. Nə qədər fikirləşirəm ki, görəsən atam mənə bir kəlmə olsa da acı söz deyibmi?

Bir sözlə, atam bizə gözəl bir həyat yaşadıb. Mənim atamla bağlı o qədər xatirələrim var ki, yazmaqla qurtarmaq olmaz.

Mənim üçün ən ağır gün 2000-ci il yanvar aının 16-sı oldu. Mən gözəl atamı itirmişəm. Elə hesab edirəm ki, hər yanvar ayı gələndə mənim üçün ən dəhşətli düşmən gəlir. Ən faciləli gün mənim üçün o gündür. Mən o günü həyatımın sonuna qədər unuda bilmərəm. Atam dünyasını qəfil dəyişib, o, bizim heç birimizə bir kəlmə söz deyə bilməyib.

Bu günkü kimi yadımdadır. Həftənin bazar günü idi. Azacıq qar yağmışdı. Mənə xəbər çatdı ki, atam xəstələnib. Mən çatanda artıq atam həyatda yox idi. Onu itirəndən sonra yaşamaq mənə ağır gəlir. Çünki varlığımı itirmişəm. Həyatımı itirmişəm.

Əlvida, gözəl atam!

Ruhun şad olsun, qəbrin nurla dolsun. Bu sənin keçirdiyin iztirablı həyat yollarının sonudur. Mən də burada xatirəmi sona çatdırıram.

***Gülxanım Əkbərova,***
*Məhəmməd qızı*

# BABAMIN QOYDUĞU ADI DAŞIYIRAM



Anamın dediyinə görə, mənim adımı da babam qoyub. Babam mənim ən dəyərli varlığım idi. Babamın bir sözü yadımdadır. Anama deyirdi ki, övladda nəvə, dövlətdə dəvə. Deyəsən, mən bu balamı öz uşaqlarımdan çox istəyirəm.

Mənim babam o qədər gülər-üzlü, şirin sözlü adam idi ki, deməklə, yazmaqla göstərmək mümkün deyil. Mən ilk dəfə məktəbə gedəndə babam mənə gözəl bir kostyum almışdı. Kim məndən soruşanda ki, kostyumunu kim alıb, deyirdim ki, Məhəmməd babam. Babamın əzizləməyi ilə beləcə məktəbi qurtardım.

İndi siz deyin, belə babanı unutmaq olarmı?

Sonra mən ali məktəbə daxil oldum. Mən Bakıda oxuduğum müddət babam fabrikdə işləyirdi. İşi ilə əlaqədar tez-tez Bakıya gəlirdi.

Hər Bakıya gələndə məni əzizləyər, cibimə pul qoyar, əynimə təzə paltar alardı. Babam bütün nəvələrini çox istəyirdi. Hamısının qayğısını çəkirdi. Ümumiyyətlə, mənim babam o qədər mehriban, o qədər şirin insan idi ki, onu danışmaqla, yazmaqla təsvir etmək mümkün deyil. Babam az sonra mənə təmtəraqlı bir nişan etdi. Bir ildən sonra mənə toy etdi. Bu toyda babam çox gözəl, ağıllı məsləhətlər verdi, sağlıqlar dedi, xeyir-dua verdi. Amma

bu şən günlər tez keçdi. Babam toydan üç ay sonra ömrünə vida etdi. Mənim üçün ən ağır zərbə bu oldu. Mənim babam kənddə Çobanoğlu adı ilə tanınırdı. İndi mən şirin babamı itirmişəm. Bundan çətin gün həyatımda olmayıb. Babamı əvəz edəcək elə bir insan yoxdur. Babamda olan o böyük ürək heç kimdə ola bilməz.

Həyatım boyu babamın etdiyi söhbətləri, verdiyi ağıllı məsləhətləri heç vaxt unutmaram. Deyirəm, baba, başda mən olmaqla sənə bütün nəvələrin qurban. Əzizim, iki gözüm babam, sənin haqqında bir kitab yazaram. Amma yaza bilmirəm, sənin bizə elədiyin kitablara sığmaz.

Adına qurban, ay baba, səni hər gün, hər dəqiqə xatırlayıram. Sən mənə həmişə lazımsan. Mənim mamam yanvar ayını özünə düşmən sayır. Ona görə ki, həmin ayda sənin kimi gözəl atasını itirib. Mənim babam, sənə allah rəhmət eləsin. Qəbrin nurla dolsun. Yerin behişt olsun!

***Asim Abbasov,***

*nəvəsi*



# BABASIZ GÜNLƏRIMIN XATIRƏLƏRI



Mənim üçün bu sətirləri yazmaq çox çətindir. Çətindir ona görə ki, o günləri xatırladıqca göz yaşlarım damla-damla yazdığım xatirənin sətirlərinə tökülür. Bu xatirəni göz yaşsız yazmaq mümkün deyil. Həyatda heç kimin babası, bizim babamız qədər olmaz. Bəlkə də bu kitabı oxuyanların çoxları deyəcək ki, hamının babası özünə şirindir. Mən bu sözlə barışmıram. Mənim babam yeganə bir şəxsiyyət idi. Babama el arasında Çobanoğlu deyirdilər.

Mən belə düşünürəm ki, böyüklərin babama verdiyi bu ad elə ona ilahidən verilmişdir. Bu ad üzü nurlu Məhəmməd peyğəmbərin adını daşıyır.

Gülər üzlü, nurlu Məhəmməd baba, bütün hamı sənin xeyirxahlığından, alicənablığından, qayğıkeşliyindən danışır. Doğ rudan da, mənim babam elini, obasını sevən, qan barışdıran bir insan idi. Babam az yaşadı, amma mənalı bir həyat yaşadı. Biz sənin adını fəxrlə çəkirik. Adın gələndə başımız uca olur. Mən belə düşünürəm ki, ruhun başımızın üstündədir. Həyat davam edir, biz də yaşayırıq sənin adınla fəxr edəedə. Babam, bir şeyi yaza bilmirəm, sənin bizi təmtəraqla saxladığını yazmağa utanıram. Allah sənə rəhmət eləsin!

***Səadət Abbasova,***

*nəvəsi*

# BABAM HAQQINDA XATİRƏ



Mən də babamdan xatirə yazmaq istəyirəm. Baba deməyə mənim də haqqım çatır. Mən bu şirin sözlü, gülər üzlü babanı tanıyandan onun nəyə qadir olduğunu gördüm. İlin bütün bayramlarında bu baba bizim hamımızın qəlbini sevindirərdi. Bir də mən onu bilirəm ki, mən onu tanıdığım az müddət ərzində o mənim qəlbimi ələ alıb özünü mənə sevdirmişdi. Babam bizim evə gələndə mənim anama belə bir xahiş etmişdi: Qızım, mənim qızımın bacısı yoxdur, mən səndən bir təvəqqə edirəm. Sizin mənim qızıma quda yox, bacı olmanızı istəyirəm. O gündən mənim anamla qaynanam ən yaxşı bacılardan yaxşıdırlar.

Yeni il bayramı idi. Bizim ailəmizi atam evi qonaq çağırmışdı. Biz orda qonaqlıqda idik. Bu vaxt qapıda bir maşın siqnal çaldı. Gələn Məhəmməd baba idi. O, mənim atama dedi ki, uşaqları aparmağa gəlmişəm. Mən yeni ili onlarla keçirmək istəyirəm.

Bizi öz evinə qonaq apardı. Bu qonaqlıqda babam məni evinə ayaqaçdı elədi və mənim qoluma qızıl saat bağladı və dedi ki, qızım, bu hədiyyəni götür. Sonra baban səni Novruz bayramında yenə çağırıb, daha gözəl hədiyyə alacaq. Bu, bizim ilk və son görüşümüz oldu. Babam on altı gün sonra əbədiyyətə qovuşdu. Babalı günü mən az gördüm.

***Sevinc Yusifova,***
*gəlini*

# *OĞLU VALEHİN VƏ AILƏ ÜZVLƏRİNİN XATİRƏLƏRİ*

## O, HƏM DƏ TƏRBİYYƏ VERDİ



Atam haqqında fikir söyləmək, söz demək çox çətindir. Xüsusi ilə atam Məhəmməd Çobanoğlu kimi tanınan, hörmət edilən bir insan haqqında. Mən atamın ən çox qayğıkeş, tələbkar zəhmətkeş valideyn olmağından danışmaq istəyirəm.

Biz ailədə 5 uşaq olmuşuq - 4 qardaş, 1 bacı. Mənim atam və anam bütün həyatlarını 5 övladın böyüməsinə, düzgün təlim-tərbiyyəsinə, təhsil almasına sərf ediblər. Bacı-qardaş hamımız ali təhsil almışıq. Bu atam və anamdan böyük zəhmət və qayğı tələb edirdi. Atam biz övladlarına həmişə zəhmətkeş, halal əlli, doğru dilli olmağı tövsiyyə edirdi. O, çox ürəyi yumşaq insan idi. İstəyirdi ki, hamıya əl tutsun,köməklik etsin.

Atam-anam təhsildən sonra hamımızı evləndirdi, ev-eşik, oğul-uşaq sahibi etdi. Bizə göstərdikləri qayğını nəvələrinə də göstərirdilər. Gəlinlərini və kürəkənini bizdən seçmirdilər.

Biz həyatda nə qazanmışıqsa atam və anama minnətdarıq. Mən hamıya mənim valideynlərim kimi valideyn arzulayıram.

***Valeh Əkbərov,***
*oğlu*

# ONU QAYNATA YOX, ATA GÖZÜNDƏ GÖRÜRDÜM



Hər bir nəslin göstəricisi, məsləhətçisi, qoruyucusu onun ağsaqqallarıdır. Bizim nəslin ağsaqqalı, söz biləni, köməkçisi, yol göstərəni mənim qayınatam Çobanoğlu Məhəmməd olub.

Əlbəəttə, kimdən qaynatası haqqında soruşsan hər kəs xoş sözlər yazar. Amma sözün əsl mənasında ucaboylu, şirin danışıqlı, xeyirxah insan olan Məhəmməd əmi tərifə layiq şəxsiyyət olub. Mən onun ikinci gəliniyəm. O, gəlinlərini heç vaxt öz övladlarından seçmirdi. O, bizə və uşaqlarımıza qarşı çox mehriban idi. Heç birimizə güldən ağır söz deməzdi. Mən onun kimi bütün övladlarının, nəvələrinin, hətta nəticələrinin problemlərini özü həll edən, qayğılarını çəkən ikinci bir valideyn tanımıram.

Mənim anam cavan dünyasını dəyişib. Həmin ərəfədə mən dözə bilmirdim, ağlayırdım. Bir gün Məhəmməd əmi əlini mənim çiynimə qoyub dedi ki, qızım, az ağla, mən atan və Bülqeyis anan sənin yanındayıq. Mən bir az təskinlik tapdım. Məhəmməd əminin adı çəkiləndə, onun söhbəti gedəndə təbii ki, çox təmkinli, kübar və zəhmətkeş qadın olan Bülqeyis xanımı xatırlamamaq olmur. O həm yaxşı qaynana, yaxşı ana, yaxşı nənə idi. Məhəmməd əmi

həmişə səliqəli və zövqlü geyinərdi. Bu isə onun ömür-gün yoldaşı Bülqeyis xanımın ona göstərdiyi diqqətin, qayğının nəticəsi idi.

Mən bütün gəlinlərə Məhəmməd əmi kimi qayınata, Bülqeyis ana kimi qaynana arzulayıram. Mən onlarla fəxr edirəm və edəcəyəm. Allah onlara rəhmət etsin!

***Xalidə Fərman qızı Məmmədova,***
*gəlini, müəllimə*



# BİZ XOŞBƏXT NƏVƏLƏRİK



Babamla bağlı fikirlərimi söyləmək mənə ağırdır. Mən həyatda ən çox babamla fəxr etmişəm. Məndən kimin oğlusan soruşan olanda Çobanoğlu Məhəmmədin nəvəsiyəm deyirəm. Babam bütün nəvələrini sevərdi, əzizləyərdi. Biz nəvələr onun adını hər yerdə qürurla çəkirik.

Mən elə düşünürəm ki, Məhəmməd kimi babamız olduğu üçün xoşbəxt nəvələrdən olmuşuq.

Babam heyif ki, həyatda yoxdur. O bizi savadlı, ali təhsilli görməyə çalışırdı. Mənim heç vaxt yadımdan çıxmaz, mənə əlifba kitabını babam almışdı. Mən ona söz verdim ki, dərslərimi yaxşı oxuyub, ali təhsil alacam.Çox şükürlər olsun, mən babamın arzusunu yerinə yetirdim. Ali məktəbə qəbul olub, ali təhsilli mütəxəssis oldum.

Babamın adını mən soyadımda daşıyıram. Mən hər yerdə Məhəmmədli Elşad sözünü fəxrlə deyirəm. Çalışacağam babamın adına layiq övlad olum. Babamın haqqında nə qədər yazsam azdır.

Bütün nəvələrinin bu günkü naliyyətlərində babamın əməyi var. Onun bizə göstərdiyi qayğını, çəkdiyi əziyyəti heç bir vaxt unutmarıq. Babam heç vaxt ölməyəcək, daima bizim qəlbimizdə yaşayacaqdır!

***Elşad Valeh oğlu Məhəmmədli,***
*nəvəsi, mühəndis*

# ƏN GÖZƏL SÖZ



Babam-necədə gözəl səslənir bu söz dilimizdə. Ancaq bu sözün gözəlliyi əsl mənim babama aiddir.

Mehriban, gülərüz, şirin dilli, hər kəlməsindən bal tökülən, babam! Səninlə bağlı bu kiçicik səhifədə hansı xatirələri yazım bilmirəm. Sən o qədər mehriban, o qədər səmimi idin ki, sənə olan sevgimiz, xoş duyğularımız heç zaman dəyişməz. Biz həmişə səninlə öyünüb, səninlə fəxr etmişik. Uşaqlıqdan baba deyəndə həmişə can sözü eşitmişik. Hər zaman biz nəvələrini əzizləyən, qayğımızı çəkən, bizi öpüb qoxlayan babamızı necə unuda bilərik?

Hər məktəbə gedəndə babamızı görmədən, onunla görüşmədən getməzdik. O, da sanki hər səhər ilk işi kimi küçəyə çıxıb gözləyərdi bizi. Heç birimizi seçməzdi, həftə sonları gəzməyə aparardı, ürəyimiz istəyənləri alardı. Biz heç vaxt görmədik babamın sərt üzünü. Həmişə onu şən, şirin cümlələri ilə xatırlayırıq.

Onun ailədə mehribanlığı, nənəmə olan sevgisi də xatirəmizdədir.

Nənəm xanım- xatın, mehriban, gözəl siması olan canım idi mənim. Babamdan sonra təsəllimiz olan, bizə babamın yoxluğunu hiss etdirməyən sevimli nənəm. İndi hər

ikiniz də qəlbimizdə xoş, şirin xatirələr və izlərlə yaşayırsınız. Bir sizi çox sevirdik, həmişə də sevəcəyik. Siz bizim qəlbimizddə hər zaman yaşayırsınız.

Allah sizə rəhmət etsin!

***Vüsalə Əkbərova,***
*nəvəsi, müəllimə*



# QOŞA QANAD



Babam haqqında danışmaq, yazmaq mənim üçün həm çətin, həm də şərəfdir. Mən babamı itirəndə IV sinifdə oxuyurdum. Çox şeyi başa düşmürdüm. Amma onun gözəl səsi qulağımdan, gülər üzü heç vaxt yadımdan çıxmayacaq. Babam haqqında nə yazsam azdır. Çox hörmətli bir insan və şəxsiyyət olub. Kəndimizdə az adam tapılar ki, onun hansısa bir işində babamın rolu olmasın. Çox böyük ürəyə malik olan babam qayğıkeş bir dost kimi də insanlara hər zaman kömək edirdi. Yaxınlarının, dostlarının hər zaman sevincinə və kədərinə şərik çıxdı, kövrək oldu.

Babamın ömür-gün yoldaşı olan Bülqeyis xanım çox gözəl ana olub, gözəl nənə olub. Zəhmətkeş, qayğıkeş, gülərüzlü xanım-xatın nənəm mənim sirr yoldaşım olub. Məni gözəl məsləhətləri ilə başa salıb, düzgün yol göstərib. Allahdan sənə rəhmət diləyirəm. Sizi kimi həyatda nənə-baba tək-tək olurlar. Mən çox xoşbəxtəm ki, mənim Bülqeyis kimi nənəm, Məhəmməd Çobanoğlu kimi babam olub. Mən həmişə sizinlə fəxr etmişəm və edəcəm də. Allah hər ikinizə rəhmət eləsin, ruhunuz şad olsun. Amin!

***Mətanət Valeh qızı Əkbərova,***
*nəvəsi, müəllimə*

## QORUYUCU



Babam haqqında danışmaq mənim üçün çox çətindir. Gərək elə cümlələr yazam ki, babama layiq ola. Bilirik ki, hər nəslin qoruyucusu və göstəricisi onun ağsaqqallarıdır. Əlbəəttə kimdən babası haqqında soruşsalar hər kəs xoş sözlərini deyəcək. Amma mən babam haqqında olan hisslərimi, fikirlərimi sözlə ifadə edə bilmirəm. Onu deyə bilərəm ki, mənim babam gözəl insan, əsl baba idi. Babam işi ilə əlaqədar tez-tez Bakıya gedərdi. Biz nəvələri də onun başına toplaşardıq ki, bizi də apar. Babam sakitcə mənim üzümə baxıb gülərdi, mən o dəqiqə bilirdim ki, məni aparacaq. Sakitcə gözləyirdim. Sonra evlərimizə gedəndə məni çağırıb deyərdi ki, tezdən hazırlaşıb gələrsən. Babam bütün nəvələrini çox istəyirdi. Onun üçün hər nəvənin öz yeri varıydı. Amma məni həmişə hamısından fərqləndirirdi. Mən də babamı hamıdan çox istəyirdim. Elə babanı kim çox istəməz ki. Babamla bağlı xatirələrim o qədər çoxdur ki, bir kitaba sığmaz. Mən həmişə babamla fəxr eləmişəm. Fəxr eləmişəm ki, Çobanoğlu Məhəmmədin nəvəsiyəm.

***İlahə Valeh qızı Əkbərova,***
*müəllimə*

# *VİDADİ ƏKBƏROV VƏ AİLƏ ÜZVLƏRİNİN XATİRƏLƏRİ*

## MƏN ONU SONRADAN TANIMAĞA BAŞLADIM

***"Düşmən xətasından xilas olmaq üçün dostluq, məqsədə çatıb arzulara nail olmaq üçün səbr, hörmət, ehtiram qazanmaq üçün mülayimlik lazımdır."***

***Labruer***



Mən evimizin sonbeşiyiyəm. Adətən valideynlər ömürlərinin ahıl vaxtlarına düşən sonbeşiklərini bir az ərkəsöyün böyüdürlər. Bizim ailədə isə əksinə olub. Rəhmətlik valideynlərim mənim tərbiyəmdə bir az sərt olublar. Rəhmətlik atam hələ yadıma gəlmir ki, birimizə güldən ağır söz desin. Ancaq bir səhvimiz olanda onun bircə tənəli baxışı bəs idi ki, hər şeyi anlayaq.

Müdrüklər deyiblər ki, valideynlər, xüsusilə də, atalar övladları ilə dostluq etsələr yaxşıdır. Atam ən çox böyük qardaşım Vahidlə ünsiyyətdə olub. Gözünün ilk ovu, evin böyük oğlu kimi hər işi onunla məsləhətləşib. Ona görə də atamın bir çox xasiyyətləri Vahiddə cəmləşib. O da atam kimi mülayim, xoşsifət, ünsiyyətcildir.

Əliaçıqlıqda atama ən çox Valeh çəkib. O da pul xərcləyən, başına dost-tanış yığan, varının qədrini bilməyən, hamını razı salmağa çalışan bir insandır. Atam bəzən onu ələfxərclik üstündə danlayanda Valeh də yarızarafat, yarıgerçək cavab verərdi ki, məni niyə danlayırsan, sənə oxşamışam.

Ancaq, mən özüm bilmirəm ki, hansı xüsusiyyətlərim atama oxşayır. Rəhmətlik özü deyərdi ki, işə məsuliyyətlə yanaşmaqda, izgüzarlıqda bircə Vidadi mənə oxşayıb. Ancaq, mən atam kimi hövsələli deyiləm. O, hər işi aramla, səbr və təmkinlə görərdi. Mən isə çalışıram ki, əlimdəki işi dərhal bitirim.

Deməк istədiyim odur ki, tək-tək heç birimiz atamı əvəz edə bilmərik. Ondakı bütün xüsusiyyətləri biz üçümüz birlikdə cəmləşdirə bilərik. Vahidlə mənim aramda 12 yaş fərq var. Mən atamdan sonra onu özümə ata hesab etmişəm. Bəzən o, atamla bağlı xatirələri danışanda hiss edirəm ki, Məhəmməd Çobanoğlu kimi tanınan o kişini mən indi-indi tanıyıram. Çünki, gözümü açandan, ağlım kəsəndən evimizdə hər şeyi hazır görmüşəm. Elə düşünmüşəm ki, yəqin bu, belə də olmalıdır. Vahidsə atamın çəkdiyi bütün çətinliklərin, apardığı mübarizələrin canlı şahidi olub.

Bu gün ata ocağında mən yaşayıram. Valideynlərimin vəfatından sonra bu ocağı daima isti saxlamaq, bu ocaqda isinməyə gələn balalarına onların yoxluğunu hiss etdirməmək kimi məsuliyyətli bir borc mənim öhdəmə düşüb. Mən və həyat yoldaşım bu məsuliyyəti yaxşı dərk edirik, çalışırıq ki, onlar gələndə atasızlığı, anasızlığı, babasızlığı, nənəsizliyi hiss etməsinlər, özlərini bu evdə, bu ocaqda uşaqlıqda hiss etdikləri kimi hiss etsinlər. Bu, mənum atanmın son arzusu olub.

***Vidadi Əkbərov,***
*Oğlu*

# MƏNİM İKİNCİ ATAM



Bu, doğurdan da belə idi. Mən ondan həmişə ata nəvazişi görmüşdüm. O, həm gözəl el ağsaqqalı, qayğıkeş ata, nəvələrini sevən bir baba idi. Mən onun kiçik gəlini idim. Həmişə mənə deyərdi ki, atanın da körpəsisən, mənim də. O məni gəlin yox, qızı kimi sevərdi. Həmişə deyərdi ki, Gülxanımın balaca bacısısan. Hara gedirdisə mənə mütləq uşaq kimi bir hədiyyə alıb gətirərdi. Çox vaxt mağazaya alış-verişə məni də özü ilə apарardı. Mən onun adını çəkib bir şey almaq istəyəndə mənə "can, qadan alım" nə istəyirsən, deyə cavab verərdi.

Bir epizod heç vaxt yadımdan çıxmır. Uşaqlar balaca idilər. Onlara məktəb ləvazimatları almalı idik. Məhəmməd əmim bir az ağrıyırdı. Uşaqlara dedi ki, atanızla gedin alın. Hər ikisi küsüb dedi ki, yox, babamız getməsə biz heç yerə gedən deyilik. O, özünü nəvələrinə o qədər sevdirmişidi ki, bütün bunlar ondan irəli gəlirdi. Mən həyatda ikinci elə bir baba tanırmıram ki, onu əvəz etsin. Gözəl xasiyyəti, şirin dili, kövrək qəlbi var idi. Ulu Tanrı ona bir insan kimi hər şey vermişdi-təmiz ürək, xeyirxahlıq. Həmişə hamının hər işini təmənnasız düzəldərdi. Onu qeyd edim ki, o, çox qonaqpərvər insan idi. Bütün qardaşlarını, bacısını, qohum-əqrəbasını başına yığardı. Sevərdi ki, nə-

vələri, oğulları, gəlinləri, qızı hamısı stolunun başında olsun. Ata ocağında olan mən və həyat yoldaşım onun xatirəsini həmişə əziz tuturuq. Adını yaşatmaq üçün nəvəmizə onun adını vermişik. Arzu edirik ki, o da məhz onun kimi bir şəxsiyyət olsun. Qaynatam haqqında nə qədər danışsam bitməz. Ondan sonra həyatda təsəlli tapdığımız xanım- xatın, təmkinli qaynanam da bizi tərk etdi. Allah qəbirlərini nurla doldursun. Allah hər ikisinə rəhmət etsin!

***Mahirə Məmmədova,***
*gəlini, müəllimə*



# KAŞ Kİ, ZAMANI GERİ QAYTARA BİLƏYDİM



Ürəyimdə yaşatdığım, həsrətini çəkdiyim babam. Mən həmişə fəxr edirəm ki, Məhəmməd Çobanoğlunun nəvəsiyəm. Bir nəvənin babasına olan sevgisindən, ona olan məhəbbətindən sizə söz açıram. Babamla olan xatirələrimi unutmaq qeyri-mümkündür. Bəlkə də bir kitaba belə sığmaz. Babam elə bir insan idi ki, nəvələrinə yaxşı baba, gəlinlərinə yaxşı ata, oğlanlarına dost, sirdaş. Mehriban, alicənab, xeyirxah, hər kəsə can yandıran və çox kövrək idi. Atam evin balacası olduğundan babam bizimlə yaşayırdı. Babama çox bağlı idim. Məni çox şıltaq, ərkəsöyün böyütmüşdü. Hər gün nazımla oynayardı, hər sabah oyananda saçlarıma sığal çəkib deyərdi ki, balamın saçları bir az da uzayıb.

Evimizdən bir az aralıda yas yeri düşmüşdü. Anamla mağazadan gəlirdik. Babam çox ucadan danışan idi. Yoldan səsini eşitdim. Uşaqlıq, babamın yanına qaçdım. Məni görən kimi gülümsəyərək, gəl baban qurban, deyərək səslədi. Harda olursa-olsun səsi gələn kimi yanına qaçardım. Elə bil onunla nəfəs alırdım. Babam çox qonaqpərvər idi. Hər kəs onun başına yığılardı. Demək olar ki, evimizdə hər gün toy-bayram idi. Hər gün məni özü ilə iş yerinə aparardı. Çox əzizləyərdi, mənim bir kəlməm iki olmazdı. Babam tək bizimlə yox, hər kəslə yaxşı rəftar edərdi. Heç

kimin qəlbini qırmazdı, kimsəni əliboş qaytarmazdı. Babam həmişə deyərdi ki, alim olmaq asan, insan olmaq çətindir, çalışın həmişə yaxşı insan olun.

2000-ci il yanvarın 16-sı idi. Səhər yeni açılmışdı. Nə biləydik ki, həmin gün üzərimizə qara bulud çökübmüş. Babamla vidalaşacağıq. Hər məktəbdən gələndə babamın oturduğu yerə baxıb ağlar, köksümü ötürərdim. Sanki, uşaqlığım, xoşbəxtliyim babamla bərabər getdi. Həmişə məni "Ərəbzəngi" deyə səsləyərdi, onun nağılını mənə söyləyərdi. Babamla nənəm həmişə qəlbimdə yaşayacaqlar. Hər kəsə elə nənə, baba qismət olsun.

Allah onlara rəhmət etsin, ruhları şad olsun!

Amin!

***Zülfiyyə Əkbərova,***
*nəvəsi*



# ƏMİMİN PEŞƏSİNİN DAVAMÇISIYAM



Mənim babamla bağlı xatirələrim demək olar ki, digər nəvələrinə nisbətən çoxdur. Çünki mən babamla bir yerdə yaşayırdım. Ona görə babam haqqında, babamla keçirdiyim xoş günlər haqqında xatirə yazmaq mənə çətindir. O günləri təkrar yaşayırmış kimi oluram. Babam həmişə məni öpüb əzizləyərdi, heç vaxt mənim qəlbimi qırmazdı. Hara gedəndə məni özü ilə aparardı. Mənə bir balaca ləqəb də qoymuşdu. Məni öpüb əzizləyər, "şefimə" qurban olum deyərdi. Mən həmişə babamla fəxr etmişəm. Elə olub məndən soruşanda kimsən, kimlərdənsən, atamın adını çəkmişəm tanımayıblar. Amma deyəndə ki, Çobanoğlu Məhəmmədin nəvəsiyəm, dərhal tanıyıblar. Heç vaxt görmədim onun sərt üzünü. Həmişə onu şən, şirin sözləri ilə xatırlayıram. Baba, deyəndə, "can" kəlməsindən başqa söz eşitməzdim. Babamla nənəm həmişə arzu edirdilər ki, mən diş həkimi olum. Çünki, diş həkimi olan əmim həyatdan vaxtsız köçmüşdü. İstəyirdilər mən onun davamçısı olum. Mən bu uğuru qazandım. Ali məktəbə qəbul oldum. Qurtardıqdan sonra Qovlar qəsəbə xəstəxanasında əmək fəaliyyətinə başladım. Çox heyf ki, babam bunu görmədi. Ancaq nənəm bunun şahidi oldu. Elə bil bütün dünyanı onu vermişdilər. Onlar həyatdan köçsələr də, ruhları bizimlədir. Hər ikisinə Allah rəhmət etsin!

***Elfaq Əkbərov,***
*nəvəsi, həkim*

# MƏNİM DƏ HAQQIM ÇATIR



Mən də babam haqqında xatirə yazmaq istəyirəm. Mən onun ocağının balaca gəliniyəm. Mənim Babamla heç bir tanışlığım olmasa da onun haqqında deyilən sözlərdən onun necə alicənab, şirin, mehriban olmasını eşitmişəm. Hamı onun qayğıkeşliyindən, xeyirxahlığından danışırdı. Elə şəxsiyyətlər var ki, onlar haqqında fikir söyləmək çox böyük məsuliyyət tələb edir. Çünki, onlar nəinki sağlığında, həm də haqq dünyasına qovuşanda belə çıraqban olurlar. Məhz mənim babam da bu cür şəxsiyyətdir. Bu böyük şəxsiyyətin obrazını həm bir elin ağsaqqalı kimi, həm də gəlini olduğum Əkbərovlar nəslinin, ailəsinin ağsaqqalı kimi canlandırmaq istərdim. Həyatımızın unudulmaz mükafatları, şansları çox olur. Hər zaman ərdəmliyin simvolu kimi qibtə etdiyimiz bir şəxsiyyətin adını bu gün məhz mənim övladımın yaşatması, canlandırması mənim üçün ən böyük mükafatdır. Bu gün uşaq olsa belə zərif düşüncələri ilə hiss olunur ki, oğlum daşıdığı adın məsuliyyətini dərk edir. O ada layiq olmağa çalışır. Bu, həm mənim ailəm, həm də bir ana olaraq mənim üçün Allahın bəxş etdiyi bir şansdır. Mən allahdan arzu edirəm ki, mənim adı Məhəmməd qoyulan övladım onun kimi adlı-sanlı bir şəxsiyyət olsun. Baba ocağını həmişə şənləndirsin.

***Yasəmən Əkbərova,***
*gəlini*

# XATİRƏYƏ DÖNƏN ÖMÜR



Məhəmməd əmimgil 4 qardaş, bir bacı olublar. Məhəmməd, Hümbət, Əmirəhməd, Qəşəm və Sayalı(Allah hamısına rəhmət eyləsin. Amin!). Məhəmməd əmim evin böyüyü olub. Ataları Çoban kişi kəndin sayılıb-seçilən kişilərindən olub. Vaxtsız köçüb dünyadan. Ataları erkən öldüyündən Məhəmməd əmim evin həm böyük oğlu, həm ata əvəzi olub.

Mənim atam ondan yaşca çox az kiçik olmasına baxmayaraq, onu həmişə ata əvəzi bilmiş, bir sözünü iki eləməmişdi. Atam Hümbət Çobanoğlu həmişə deyərdi ki, Məhəmməd körpəlikdən ağıllı, uzaqgörən idi. Çox kövrək ürəyi var idi. Cavanlığından məclislərdə, mərəkələrdə, el arasında özünə xüsusi hörmət qazanmışdı. Böyüklə böyük, kiçiklə kiçik kimi rəftar etməyi bacarırdı.

Mən Məhəmməd əmimlə həm də bir növ iş yoldaşı olmuşam. Məhəmməd əmi Əyyublu kəndində-yəni öz kəndimizdə böyük bir çörək sexi işlədirdi. Mənim atam da sürücü idi. Çörək maşını işlədirdi.

Hər səhər kəndin mağazalarına çörək aparırdı. Mən isə boş vaxtlarımda (məktəbdən sonra, məktəbdən əvvəl) atama kömək edirdim. Atamla əmimin çox mehriban münasibətləri var idi. Atam onun hər tapşırığına əməl etməyə ça-

lışardı. Sanki Məhəmməd onun qardaşı yox, atası idi.

Anam əmimlə ölüncə üz-üzə kəlmə kəsməmişdi, onun yanında yamşaqlı hərlənirdi. Məhəmməd əmimin özü kimi ağıllı, uzaqgörən bir xanımı var idi. Onu "Bülqeyis mama"deyə çağırardıq hamımız. Qonaqlı, qaralı, mehriban bir xanım idi. Atamla həmyaşıd idilər. Çox isti münasibətləri var idi. Aralarından su keçməzdi.

Atam əmimə çox bağlı idi. Bəlkə də bir yerdə işlədiklərinə görə çox yaxın idilər. Mənim atam da çox mehriban, kövrək ürəkli idi. Əmimin ölümündən sonra atam cəmi 3 ay yaşadı, ürəyi dözmədi. Bir yerdə olanda tez-tez uşaqlıq xatirələrindən danışardılar. Keçmişə bağlı adamlar idilər. Xatirələr onlar üçün əziz idi, həm də çox əziz. İndi özləri xatirəyə dönüblər.

***Yusif Hümbət oğlu Əkbərov,***
*qardaşı oğlu*



# BİZİM AND YERİMİZ



Biri vardı, biri yoxdu. Bu gəlimli-gedimli dünyada, son ucu ölümlü dünyada, cöhrəsi nurlu, qəlbi qürurlu, evi qonaqlı-qaralı, ailəyə sədaqətli, qayğıkeş, sanballı bir insan yaşayırdı-Məhəmməd Çobanoğlu. Məhəmməd əmim olduqca nurani bir adam idi. Böyüklə böyük, kiçiklə kiçik olmağı bacaran bir adam.

Mən istəyirəm Məhəmməd əmim haqqında dünyadan nakam getmiş Salehin, Rənanın diliylə danışam. Hərçənd bu çox çətindir. Belə fürsət bəlkə də ələ düşməyəcək bir də. Saleh də atasına elə "Məhəmməd əmi" deyə müraciət edirdi. Məhəmməd əmim, Rəna, Saleh. Elə bil ki, onların üçünün də torpağı bir yerdən götürülmüşdü. Bir yerdə olanda elə söhbət edərdilər ki, deyərdin həmyaşıddırlar. Biz yeri gələndə nədənsə çəkinsək də Salehlə Rəna bir az ərköyün idilər. Həm də ürəklərində söz saxlaya bilmirdilər. Şıltaq idilər. Elə bil nakam gedəcəklərini duymuşdular. Daha çox danışıb-gülmək, bir yerdə olmaq istəyirdilər. Rəna tez-tez samovar qaynadar, hamını başına yığardı. Söhbət qızışardı. Salehin çox şirin söhbətləri var idi.

Biz uşaqkən elə bilirdik ki, Məhəmməd əmim bizim babamızdır. Çünki mənim atam da, əmilərim də onu ata kimi sevər, sözündən çıxmazdılar. "Məhəmmədin başı" üçün

deyəndə bilərdik ki, iş tamamdır.

Məhəmməd əmimdən danışanda onun xanımı Bülqeyis mamamdan söz açmamaq ən azından günah sayılar. Biz hamımız ona "Bülqeyis mama" deyərdik. Mənim atamla, anamla Bülqeyis mamam arasında elə isti münasibət var idi ki, onu ifadə etmək mümkün deyil. Məhəmməd əmimin evinə girən mütləq əyləşməli, heç olmasa çay içməli idi. Bülqeyis mama sanki anaları idi hamısının. Məclisə, mərəkəyə girəndə hamı ona ehtiramla yer göstərərdi. Olduqca mehriban, uzaqgörən bir xanım idi.

Bəlkə də bu mehribançılıq, bu hörmət də ailədən gəlirdi. Məhəmməd əmim ailəsinə çox diqqətli, mehriban idi. Həmişə cavanlara ibrətamiz tövsiyyələr edərdi. Çox sevdiyi bir şeir parçasını hamımıza deyərdi:

Elinə, gününə yanmayan bir kəş,
Tutaq ki, sultandı, xandı nə fayda?
Gənclikdə özünü xar eyləyənlər
Qocalan vaxtında qandı, nə fayda?

Bəli, gənclikdən özünəməxsus yer tutmuşdu tay-tuşları arasında. Hamının məsləhət yeri olmuşdu, əzizlərinin isə and yeri.

***Südabə Hümbət qızı Əkbərova,***
*qardaş qızı*

# "TÜRK SOYLU, OĞUZ BOYLU KƏNDİMİZ"KİTABINDAN

## ÇÖRƏK ƏTRİ



Həyatda hərə bir şeylə yadda qalır. Kimi varı, pulu, dövləti, xeyirxah əməlləri, alicənablığı, ağsaqqallığı ilə, kimi də öz peşəsi ilə. İnsan öz peşəsinin kamil ustası olanda o peşəni hörmətə mindirir, özünə də hörmət qazandırır.

Əkbərov Məhəmməd Çobanoğlu da yaddaşlarda həm yuxarıda sadalanan keyfiyyətlərinə, həm də kamil bir çörək ustası olmasına görə yaşayır.

Düzdür, o 1970-ci ildə kənddə çörək sexi açana qədər bir çox işlərdə işləmiş, xeyli təcrübə qazanmışdı. O, hərbi xidmətdən əvvəl maliyyə agenti işləmiş, sonra hərbi xidmətini başa vurduqdan sonra yeyinti-sənaye texnikumunu bitirmişdir. Ömrünün ahıl çağlarında isə Xalq təsərrüfatı institutunda təhsilini başa vurmuşdur. O, kolxozda briqadir, yeməkxana müdiri, kənd istehlak cəmiyyətində əmtəə-

şünas, anbardar, Ağstafa pambıq zavodunda müdir vəzifələrində işləmişdir.

Ancaq onu təkcə Tovuzda deyil, bütün Azərbaycanda Çobanoğlu Məhəmməd kimi tanıdan onun özünəməxsus reseptlə bişirdiyi kürə çörəkləri oldu. Çörəkçiliyə 40 yaşında başladı. Əvvəllər müdür işlədiyi yeməkxana binasını yenidən quraraq kürələr tikdirdi. Bu kürələrdə bişən çörəklərin ətri uzaqdan adamı vururdu.

***Ramiz Çıraqlının xatirələrindən:***

– Uşaq vaxtı kanala çimməyə gedirdik. Çimdikdən sonra özümüzü dəmiryolunun qırağındakı ağacların kölgəsinə verər, gəlib-keçən qatarlara tamaşa edərdik. Bir də görürdün qatarlar dayanır, qarşıdakı çörək sexində işləyən cavanlar əvvəlcədən hazır saxladıqları çörəkləri maşinistlərə verərdilər.

Gəncədəki, Bakıdakı müdirləri də özləri üçün Məhəmməd əminin çörəklərindən apartdırdıqları üçün maşinistlərin bu hərəkətlərinə göz yumardılar. Bir də görürdün ki, Məhəmməd əmi işçilərindən bizə də bir-iki kömbə çörəyi göndərərdi.

Həmin çörəyi əlüstü aşırardıq. Həmin çörəklərin dadı-tamı hələ də damağımızdan getməyib. İndi jurnalist peşəmlə bağlı bir çox çörək zavodunda, sexində oluram. Ancaq heç birində Çobanoğlunun çörəklərinin ətri gəlmir.

Daşkəsən rayonunda işləyirdim. Rayonda çörək işi çox problem idi. Bişirlən çörəklər olduqca keyfiyyətsiz idi. Bişildikdən bir saat sonra quruyub qaxaca dönürdü. Bir dəfə qəzetdə bu barədə tənqidi məqalə yazdım. Çörək sexinin

müdiri rayon partiya komitəsinin birinci katibinə şikayət etdi. Təbii ki, heç bir rəhbər işçi tənqidi sevmir. Çünki, o dövrdə bütün rayon qəzetləri mərkəzi komitəyə göndərilirdi.

Birinci katib məni qəzəblə qarşıladı:

– Səni çörək zavoduna müdür göndərsəm, yaxşı çörək bişirə bilərsənmi? Bizim zavodun bişirdiyi çörəklərin nəyi pisdir? Bəlkə sizin Tovuz rayonunda başqa sort çörəklər bişirilir?, – deyə, katib məni sorğu-sual atəşinə tutdu.

Mən ona Məhəmməd Çobanoğlunun bişirdiyi çörəklər barədə danışdım. Kiçik bir kürədə gündə 3-4 ton keyfiyyətli kürə çörəklərinin bişirildiyini söylədim.

İnanmadı mənə. Bir həftə sonra Məhəmməd əminin sexinin, kürələrin şəklini çəkdim, bir neçə çörək də götürüb getdim katibin yanına. O, çörəkləri görəndə gözlərinə inanmadı. Bir tikə kəsib dadına baxıb xeyli fikrə getdi və məndən soruşdu:

– Görəsən o kişini dəvət etsəm gəlib bizim zavoda rəhbərlik edərmi?

– Yox, – dedim, – əgər dəstək versəniz burada sınaq üçün kiçik bir kürə qurmaq olar.

O, hər cür dəstək verəcəyini söylədi. Fikrimi dostum Namazalıya söylədim. Onun həyat yoldaşı Çimnaz bacı təmiz-tarıq, əlindən hər iş gələn bir qadın idi. Ailə razılığa gələndən sonra Namazalını və bir nəfər ustanı götürüb kəndə – Məhəmməd əminin yanına gətirdim. Məsələni ona açıb söylədim. Fikrimizi alqışladı. Sonra sexi necə tikməyi, kürəni necə qurmağı ustaya başa saldı. Özü də söz verdi ki, kürə hazır olanda işçilərindən birini 3-4 günlüyə

göndərəcək Daşkəsənə, kürə çörəyinin bişirilmə qaydasını öyrətsin.

Daşkəsəndə ilk kürə quruldu. Məhəmməd əmi sözünü tutaraq bir nəfər çörək ustasını bizə qoşdu. Az vaxtda Çimnaz bacının bişirdiyi çörəklər rayona səs saldı. İnsanlar saatlarca kürənin qarşısında növbəyə düzülürdülər. Rayonda qazlaşma aparılanda I katib ilk növbədə həmin kürəyə qaz çəkdirdi. Sonradan şəhərdə bir neçə belə kürə quruldu.

Məhəmməd əmi belə xeyirxah, nəcib insan idi. O, üstünə qaçan heç bir insanı əliboş geri qaytarmazdı. O qədər şahidi olmuşuq ki, imkansız adamlar əl arabalarında çörəkxanadan un daşıyır. 90-cı illərin əvvəli idi. Bütün iqtisadiyyat çökdüyündən un da qitlaşmışdı. Hər şey norma ilə verilirdi. Adını çəkmək istəmirəm, ailəsi böyük olan adamlardan biri çayxanada çay içən Məhəmməd əmiyə yaxınlaşıb dedi:

– Ay, Çobanoğlu, iki gündür uşaq acdır. Nə evdə urvalıq un, nə də çörək almağa pul var.

O, xeyli fikirləşib üzünü həmin adama tutdu:

– Bir saatdan sonra get, 1 tay un apar. Bir tay una görə hökumət məni tutacaqsa qoy tutsun.

Məhəmməd Çobanoğlu çox şirin söhbətcil, dünyagörüşlü bir insan idi. Bir dəfə hansısa toyda bir yerə düşmüşdük. Xanəndə S.Vurğunun "Dağlar" şeirini oxuyurdu. Məhəmməd əmi bərk xəyala dalmışdı.Mahnı qurtardıqdan sonra belə bir əhvalat danışdı:

– Sütül oğlan idim. Yeməkxanada işləyirdim. Bir gün rəhmətliklər S.Vurğun və Hüseyn Zeynalov yeməkxanaya

gəldilər. Hüseyn müəllim böyük şairlə möhkəm dost idilər. O vaxtlar Hüseyn Zeynalov Qazaxda işləyirdi. Hər ikisi çox sadə insanlar idi. S.Vurğun çay içə-içə cibindən bir "kazbek" qutusu çıxarıb mənə verib dedi:

– Bala, al bu şeiri bir vərəqyə köçür.

Mən həmin şeiri köçürüb böyük insana qaytardım. Bu "Üstündən karvan yeriməz, sıxdır duman-qarın dağlar" misraları ilə başlayan "Dağlar" şeiri idi. Mən həmin "Kazbek" qutusunu uzun illər saxladım, sonradan bilmədim necə oldu?

Məhəmməd Çobanoğlunun çörək sexi düz 25 il işlədi. Çox qarınlar doyurdu. Ondan sonra sex dayandı. 1990-1995-ci illərdə N.Nərimanov adına Bakı Trikotaj Fabrikinin Tovuz filialına direktor təyin olunan M.Çobanoğlu hərbi hissələr üçün yorğan-döşək, yataq dəstləri hazırlamaq kimi məsul bir işi yerinə yetirirdi.

O, həyat yoldaşı Bulqeyis xanımla birlikdə beş övlad böyüdüb boya-başa çatdırırdılar. Övladları Vahidə, Gülxanıma, Valehə, Salehə, Vidadiyə ali təhsil verdilər. Oğlu Salehin vaxtsız ölümü isə onun ürəyinə xal saldı. Bəlkə də çəkdiyi oğul dərdi onu çox yaşamağa qoymadı-cəmi 70 il yaşadı. 2000-ci ilin yanvar ayında dünyasını dəyişdi. Qəribədir ki, həyat yoldaşı Bulqeyis xanım da onunla eyni gündə 2015-ci ilin yanvarın 16-da həyata əlvida dedi.

İllər keçsə də hələ də Çobanoğlundan sonra yetimləşən çörək sexinin yanından keçəndə sanki, həmin kömbələrin ətrini duyuruq.

# MƏN HEÇ VAXT UNUTMURAM KI, ÇOBANOĞLUNUN OĞLUYAM



Bu sözləri söhbət əsnasında Vidadi Əkbərov söylədi. Vidadi həm də Məhəmməd Çobanoğlunun övladı olmağın özünün də bir məsuliyyət olduğunu bildirərək dedi:

– Həyatda nə qazanmışamsa, nəyə nail olmuşamsa atama borcluyam. O, təkcə bizi böyüdüb, ali təhsil verməyib. Həyatda istər sağlığında, istərsə də indi onu daima arxamda hiss etmişəm. Hansısa bir iş görəndə, bir hərəkət edəndə həmişə fikirləşirəm ki, görəsən bu addımım atamın ad-sanına xələl gətirməyəcək ki? O, bizə sadə, səxavətli olmağı, insanlara hörmətlə yanaşmağı öyrədib. 1987-ci ildə ali təhsilimi fərqlənmə diplomu ilə bitirib təyinatla rayonumuzdakı Əli Bayramov adına sovxoza göndərildim. Gözləyirdim ki, atam mənimlə təzə təyinat yerinə gedəcək, məni sovxozun direktoruna xahiş edəcək. Ancaq elə olmadı. Mənə dedi ki, get həyatda özün-özünə uğur qazan. Bir az da cibimə

xərclik qoyub işə getdi. Sovxozun direktoru Fərman Nağıyev idi. Adlı-sanlı, tanınmış bir insan idi. O, məni yaxşı qarşıladı. Təyinat kağızıma baxıb dedi ki, bala, bizdə sənin ixtisasına uyğun boş iş yeri yoxdur. Düzü belə dağlıq bir yerdə işləmək də heç ürəyimcə deyildi. Direktorun bu sözləri bir az da ürəyimcə olmuşdu. Ona görə də sağollaşıb tələsik çıxmaq istəyəndə direktor məni yenidən yanına çağırıb haralı olmağımı soruşdu. Aşağı Ayıblıdan olduğumu biləndə məndən kimin oğlu olduğumu öyrənmək istədi. Atamın adını çəkəndə gülə-gülə dedi ki, bala, sən ki, mənim qardaşım oğlusan, sovxozda komsomol təşkilat katibi yeri boşdur, işləyə bilərsənmi? Razılaşdım və həmin gündən işə başladım. Ancaq öz-özümə məətəl qaldım ki, atam mənim təyinat yerimi bildiyi halda nəyə görə mənimlə dostunun yanına getmədi? Çox-çox sonralar özü bunu mənə söylədi: -Oğul, -dedi-Fərman Nağıyev mənim köhnə dostumdur. Fikirləşdim ki, birdən boş yeri olmaz, mənə görə pis vəziyyətdə qalar.

Vidadi Əkbərov bir müddət burada qaldıqdan sonra Xatınlı kəndində yerləşən şərab zavodunda sex rəisi vəzifəsinə işə girdi. Kollektivdə dərin hörmət qazandı. Kənd sakini Sakit Abbasovun söylədiklərindən:

– 1990-cı ilin sentyabr ayı idi. Mənim "jiqulu" markalı minik maşınımda qonşunun həyətyanı çardağında olan üzümünü yığıb Gürcüstana aparırdıq.

Tovuzun girəcəyindəki postda bizi saxlayıb maşınmızı polis şöbəsinə apardılar. Nə qədər and-aman etdik ki, qapı üzümüdür, inanmadılar. İki gün maşın şöbədə qaldı. Mütəxəssis gətirib çardaqdakı üzümlərə baxış keçirdilər. İki

gündən sonra maşınımızı polislər Xatınlı zavoduna apardılar. Orada Vidadini görüb əhvalatı ona danışdıq. O isə öz növbəsində laboranta göstəriş verdi ki, maşındakı süfrə üzümünün şəkərliyini düzgün ölçün. Nümunə götürlükdən sonra maşını çənə boşaltdılar. Bu vaxt polislər gəlib zavoddan arayış istədilər. Verilən arayışda məhsulun aşağı şəkərlikli süfrə üzümü olduğu göstərilirdi. Bu polis zabitini cin atına mindirdi, tələb etdi ki, arayış dəyişdirilsin. Bu zaman Vidadi önə çıxıb dedi ki, siz özünüz qanunsuz iş görübsünüz, bizi də qanunsuzluğa məcbur edirsiniz. Polislər bir xeyli mübahisə edib getdilər. Bizsə əlimizdəki arayışa əsasən şikayət etdik və həmin polisdən məhsulumuzun bazar qiymətilə pulunu aldıq. Halbuki, Vidadi Əkbərov olmasaydı məhsulumuz da müftə gedəcəkdi, özümüzün haqqımızda da cinayət işi qaldırılacaqdı.

1989-1990-cı ildə Tovuzda bir sıra zavod və fabriklər açılırdı. Tovuz tikiş fabriki bunlardan ən böyüyü idi. Rayon partiya komitəsinin o vaxtki, birinci katibi T.Abbasovun bu sahədəki xidmətlərini unutmaq olmaz.Vidadi Əkbərovu həmin fabrikə sex rəisi vəzifəsinə dəvət etdilər. Dəvəti qəbul etdi. Bir il həmin fabrikdə işləyib təcrübə qazandı.

1991-ci ildə isə doğma kəndində ilk tikiş fabrikini açdı və oraya direktor təyin edildi. Həmin fabrikin tikintisini özü apartırdı. Tikiş avadanlıqları gətirdi. Beləcə kənddə cavanlar, xüsusilə də qızlar üçün yeni iş yeri açıldı. Fabrik tam gücü ilə işləyəndə orada 350 nəfərdən çox gənc işləyirdi. Deyərdik ki, kənd üçün bu ən xeyirli və savab iş idi. 1998-ci ilə qədər Vidadi Əkbərov tikiş fabrikinin direkto-

ru vəzifəsində işlədi. O, işdən çıxdıqdan sonra fabrik də öz fəaliyyətini dayandırdı.

V.Əkbərov bir müddət "Paolin" firmasında müdir işlədi. Dörd il isə Tovuz suvarma sistemləri idarəsində nasos stansiyasının rəisi vəzifəsində çalışdı.

"Aqrolizinq ASC"-nin Əyyublu kəndində yerləşən Tovuz filalına ildə bir direktor təyin olunurdu. Bir ildən artıq heç kim davam gətirmir, texnikalar tez-tez sıradan çıxır, əhali üçün nəzərdə tutulmuş gübrələr isə alverçilər vasitəsilə satılırdı. Bu isə əhali arasında möhkəm narazılığa səbəb olurdu. Vidadi Əkbərovun filiala müdir təyin olunması ilə bu sahədə qayda-qanun və dönüş yarandı. Yeni vəzifəsinin 1 ili tamam olanda burada köhnəlikdən əsər-əlamət qalmamışdı. Həyat-baca səliqə-səhmana salınmış, hər yerə gül-çiçək əkilmiş, texnikalar saz vəziyyətə gətirilmişdi. O, idarəni təhvil alanda bir ədəd də olsun saz texnika yox idi. İndi isə vəziyyət tamam bambaşqadır. İdarəyə 70 yeni texnika gətirilib, 35 yeni iş yeri açılıb. Fermerlərə gübrələr sənəd əsasında, qayda-qanunla verilir. V.Ələkbərov bir daha sübut etdi ki, o Məhəmməd Çobanoğluna layiq oğuldur.

O, xoşbəxt ailə başçısıdır. Kəndin ən hörmətli insanlarından biri olmuş Fərman müəllimin qızı Mahirə xanımla ailə qurub. Bir oğlu bir qızı var. Oğlu Elfaq dayıları Mehmanın, Aydının yolu ilə gedərək həkimlik peşəsini seçib.

Qızı Zülfiyyə isə evdar qadındır.

Vidadi Əkbərov yeni vəzifəsində bir şeyi də sübut etdi. Sübut etdi ki, Əyyublular rəhbərlik etməyi bacaran insanlardır. Təki onlara meydan verilsin.

# ŞƏKİLLƏRDƏ YAŞAYAN ÖMÜR





*Çobanoğlu Məhəmməd*



Atası Çoban



Anası Pəri



*Həyat yoldaşı Bülqeyis*



*Əmisi oğlu və qudası*
*İmran Qurbanov*



*Qardaşı Qəşəm*



*Qardaşları və ailə üzvləri*



*Vahid və Saleh. 1981-ci il*



*Saleh valideynləri ilə*




*Vahid, Xəzəl nəvələri ilə*



*Vahidin nəvələri Aysu və Vahid*



*Adını daşıyan Məhəmməd Elfaq oğlu, nəticəsi*

***Yaxşı kişi olacağam,***
***Təzə cığır salacağam.***
***Mən Məhəmməd babam kimi***
***Yaddaşlarda qalacağam.***



*Nəticəsi Mehrac Elfaq oğlu*

***Mən atamın gur səsiyəm,***
***Anamın gül nəfəsiyəm.***
***Kim soruşsa deyəsiyəm:***
***Çobanoğlu nəvəsiyəm.***

# MÜNDƏRICAT

Qurban necə çoban oldu ........ 3
Dağılan mal-mülk ........ 7
Göbəkkəsmə ........ 12
“Kazbek” qutusuna yazılmış şeir ........ 17
Oxumaq heç vaxt gec deyil ........ 20
Şöhrəti Azərbaycana səs salmış çörəklər ........ 25
Oğul dağı ........ 29
Sözün kəsəri ........ 33
Direktor ........ 40
Son yolçuluq ........ 44

***NƏ YAXŞI Kİ, ŞİRİN XATİRƏLƏR VAR*** ........ 57
Mənim əziz qonşum ........ 58
Ağır taxtalı kişi ........ 62
Tanıdığım Çobanoğlu Məhəmməd ........ 64
O həm də yaxşı quda idi ........ 73
Yeznəmlə fəxr edirəm ........ 78
Unuda bilmədiyim insan ........ 81
Çətin gündə tanıdığım insan ........ 85
Nəvələrimin damarlarında onun da qanı axır ........ 90
Bizim Çobanoğlu ........ 92
Sülhə çalışan insan ........ 94
Sayılıb-seçilən dayım ........ 96

***OĞLU VAHİDİN VƏ AİLƏ ÜZVLƏRİNİN XATİRƏLƏRİ*** ........ 97
Nəslimiz haqqında eşitdiklərim və öyrəndiklərim ........ 97
Xatirələrim ........ 102
Mənim istəkli əmim və qaynatam ........ 104
Babalar babası ........ 106
Nəslimizin atası ........ 107
Mən babamın anasıydım ........ 108
Ən şirin söz ........ 109
Sənli günləri axtarırıq ........ 110

*QIZI GÜLXANIMIN VƏ AİLƏ ÜZVLƏRİNİN XATİRƏLƏRI*......112
Dünyanın ən yaxşı atası......112
Babamın qoyduğu adı daşıyıram......115
Babasız günlərimin xatirələri......117
Babam haqqında xatirə......118

*OĞLU VALEHİN VƏ AİLƏ ÜZVLƏRİNİN XATİRƏLƏRİ*......119
O, həm də tərbiyyə verdi......119
Onu qaynata yox, ata gözündə görürdüm......120
Biz xoşbəxt nəvələrik......122
Ən gözəl söz......123
Qoşa qanad......125
Qoruyucu......126

*VİDADİ ƏKBƏROV VƏ AİLƏ ÜZVLƏRİNİN XATİRƏLƏRİ*......127
Mən onu sonradan tanımağa başladım......127
Mənim ikinci atam......129
Kaş ki, zamani geri qaytara biləydim......131
Əmimin peşəsinin davamçısıyam......133
Mənim də haqqım çatır......134
Xatirəyə dönən ömür......135
Bizim and yerimiz......137

*"TÜRK SOYLU, OĞUZ BOYLU KƏNDIMIZ" KITABINDAN*......135
Çörək ətri......139
Mən heç vaxt unutmuram ki, Çobanoğlunun oğluyam......144

*ŞƏKILLƏRDƏ YAŞAYAN ÖMÜR*......148

**Ramiz Çıraqlı**

**«Çobanoğlu Məhəmməd»**

**Bakı, «MBM», 2016, 160 səh.**

Naşir: Afər Fəttahova
Bədii redaktor: Vüqar Sadayev
Dizaynerlər: İradə Əhmədova, Mirabdulla Babayev
Mətni yığdılar: Nübar Əsgərova, Əfsanə Əfqanqızı,
Nərmin Əliyeva
Operator: Tərlan Quliyeva

---

Yığılmağa verilib: 21.09.2016
Çapa imzalanıb: 05.12.2016
Ofset çap üsulu ilə
Tiraj 300, şərti çap vərəqi 10
Kitab "MBM" nəşriyyat-poliqrafiya
mətbəəsində çap olunmuşdur.
Bakı, Mətbuat pr., 529
Tel.: (99412) 539-75-06